RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN





№ 119 (9286) 7 İYUN 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Kənd Təsərrüfatı Nazirliyi yeni ünvana köçüb

## Prezident İlham Əliyev nazirliyin yeni inzibati binasının açılışında iştirak edib

**Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Bakıda yeni inzibati binası istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.**

Son illərdə paytaxtda modern üslubda tikilən binalar sırasına daha biri əlavə olunub. Xətai rayonu, Nəcəfqulu Rəfiyev və Süleyman Vəzirov küçələrinin kəsişməsində ucaldılan yeni bina da müasir memarlığı ilə diqqəti cəlb edir. Kənd təsərrüfatı naziri Məcnun Məmmədov bina barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, yeni binanın tikintisinə 2017-ci ildə başlanılıb və bu ilin iyun ayında başa çatdırılıb. Müasir memarlıq üslubuna uyğun inşa olunan bina nazirliyin aparatı ilə yanaşı, Aqrar Kredit və İnkişaf Agentliyi, Aqrar Tədqiqatlar Mərkəzi, Aqrar İnnovasiya Mərkəzi və Aqrar İnkişaf Könüllüləri olmaqla 500-ə yaxın əməkdaşın fəaliyyəti üçün nəzərdə tutulub.

Binanın hündürlüyü 12 metr olan foyesində "Əbədiyyət" kompozisiyası nümayiş olunur. Kompozisiyanın müəllifi rəssam-heykəltaraş Rəşad Mehdiyevdir.

Üç hissədən ibarət olan kompozisiyanın rəmzi motivi Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyini əks etdirir.

Kompozisiyada Azərbaycan xalqının həyat fəlsəfəsinə uyğun əbədi dəyərləri, qalib insan ruhunu, zəhməti və bərəkəti, dayanıqlılığı nümayiş etdirən ideyalar əksini tapıb.

→ 2



# Güclü lider, müstəqil siyasət, qüdrətli dövlət

## İlham Əliyevin qətiyyətli diplomatiyası sayəsində Azərbaycan yeni çağırışlara cavab verən ölkə statusuna sahiblənib

**Əlverişli coğrafi mövqeyi, regional və beynəlxalq nəqliyyat yollarının üstündə yerləşməsi, təbii resursları, iqtisadi və hərbi gücü ilə Cənubi Qafqazın lider dövləti hesab olunan Azərbaycan həm də dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. Bunun da səbəbi son 20 ildə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətdir.**

Məhz İlham Əliyevin sözünə və vədinə sadiqliyi, irəli sürdüyü qlobal təşəbbüsləri Azərbaycanın nüfuzunu və siyasi çəkisini gündən-günə artırmaqdadır. Bu gün dünyanın siyasi xəritəsində elə bir Azərbaycan var ki, onun dəstəyi olmadan, rəyi nəzərə alınmadan hər hansı regional prosesləri müzakirə və həll etmək mümkün deyil. İstənilən mövzulu qlobal danışıqların aparıldığı platformalarda ölkəmiz mütləq təmsil olunur və əsas söz sahibi kimi çıxış edir.

→ 5

**Azərbaycanın QURTULUŞ salnaməsi: Heydər Əliyevdən İlham Əliyevə 30**

# Heydər Əliyev ideyaları regional inkişafın əsas istinadgahıdır




**Şəki Şəhər İcra Hakimiyyəti ilə "Azərbaycan" qəzeti Ulu Öndər Heydər Əliyevin 100 illik və Milli Qurtuluş Gününün 30 illik yubileylərinə həsr olunan birgə konfrans keçiriblər. Heydər Əliyev Mərkəzində keçirilən tədbirin iştirakçıları öncə Ümummilli Liderin abidəsi önünə gül dəstələri düzüb, onun xatirəsini ehtiramla anıblar.**

*Konfransı açan Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan USUBOV qeyd etdi ki, Azərbaycanın tarixində, xalqın yaddaşında Heydər Əliyev müstəqil və suveren dövlətin simvolu, qətiyyətli lider, böyük vətəndaş kimi qalmışdır. Azərbaycanın dünəni və müasir tarixi Heydər Əliyevin adı ilə bağlıdır. Məhz müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycan dövlətçiliyini xaos və böhran vəziyyətindən çıxarmış, vətəndaş müharibəsinin qarşısını almış, atəşkəs rejiminin tətbiqinə nail olmuş, bir sözlə, xalqımızın taleyində misilsiz xilaskar missiyasını şərəflə yerinə yetirmişdir.*

- Ulu Öndər Xalqa və Vətənə sonsuz sevgisi, dövlətçiliyə hədsiz sədaqəti ilə indiki və gələcək nəsillərə nümunə olacaq siyasi məktəb miras qoymuşdur. Heydər Əliyev ölkə həyatının bütün sahələrində qanunun aliliyinin müdafiəçisi, davamlı inkişafın və islahatların banisi olmuşdur. İqtisadiyyatın yenidən qurulması, kənd təsərrüfatının dirçəldilməsi, peşəkar ordunun yaradılması, çevik və balanslı xarici siyasət kursunun həyata keçirilməsi, səhiyyə, elm, təhsil, mədəniyyət, incəsənət sahələrinin inkişafı, hüquqi və demokratik dövlət quruculuğu məhz onun adı ilə bağlıdır.

Ulu Öndərin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illər ölkəmizin sürətli inkişaf dövrü olmuşdur. Azərbaycanda həmin illərdə 250-dən çox zavod, fabrik, yüzlərlə istehsal sexləri, sosial obyektlər istifadəyə verilmiş, 630 min yeni iş yeri açılmışdır. Həmin 13 il ərzində istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ilə bərabər olmuşdu.

→ 6-7

# Naxçıvan iqtisadiyyatı ölkə iqtisadiyyatına tam inteqrasiya olunacaq

### Dövlət proqramının digər hədəfi muxtar respublika əhalisinin həyat səviyyəsinin daha da yüksəldilməsidir

Məqsəd həm də Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədlərə nail olmaq üçün 2023-2027-ci illər üçün 11 prioritet istiqamət müəyyən olunmuş və dövlət proqramının həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılmışdır.

→ 8

# Strateji əməkdaşlıq

### Azərbaycan-İsrail münasibətlərinin təməlində tarixi bağlar, etibarlı tərəfdaşlıq və dostluq dayanır

Azərbaycanda yaşayan yəhudilər hər zaman cəmiyyətimizin fəal hissəsi olublar və ölkəmizdə baş verən bütün məsələlərdə aktiv iştirak ediblər. Hər zaman Azərbaycan və İsrail dövlətləri arasındakı əlaqələrin inkişafında çox fəal rol oynayan Azərbaycanın yəhudi icması və əsasən Azərbaycandan olan yəhudilərdən ibarət İsraildəki Azərbaycan diasporu Vətən müharibəsi dövründə də ölkəmizin ədalətli mövqeyini müdafiə etdi, Azərbaycana dəstək mitinqləri keçirdi.

→ 5

# İqtisadi qüdrətin real göstəricisi

### Dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzura ayrılan vəsaitin artırılması Böyük qayıdışı daha da sürətləndirəcək

Qarabağ və Şərqi Zəngəzurun bərpasına bu ilin dövlət büdcəsindəki əlavə vəsaitdən 2 milyard 260 milyon manat ayrılaraq ümumilikdə 5 milyard 260 milyon yönəldilməsi planlaşdırılıb.

→ 8



# 5,5 milyard manat yatırım, 37,7 min iş yeri

### Bu, 473 sahibkarlıq subyektinə verilmiş 571 investisiya təşviqi sənədi hesabına mümkün olur

→ 10

# *MN:* "Ermənistan silahlı qüvvələri mövqelərimizi atıcı silahlardan fasilələrlə atəşə tutub"

İyunun 6-sı saat 11:40-dan saat 16:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Qaraiman yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Daşkəsən rayonunun Astaf yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bundan başqa, saat 16:25 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Ağdam rayonu istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

Bölmələrimiz tərəfindən qeyd olunan bütün istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Eyni zamanda qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri ordumuzun Şuşa, Xocavənd və Ağdam rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

# Kənd Təsərrüfatı Nazirliyi yeni ünvana köçüb

## Prezident İlham Əliyev nazirliyin yeni inzibati binasının açılışında iştirak edib












*Əvvəli 1-ci səh.*

Mərkəzdə Heydər Əliyevin büstü olan kompozisiyada ağacın budaqları səmaya və sonsuzluğa doğru ucalır. Kufi üslubunda xüsusi bir nizamla yaradılan şəbəkə səmanı ifadə edir. Səmada Ümummilli Liderin anadan olmasının 100 illiyini əks etdirən 100 ulduz parlayır.

Ağacla bərabər səmaya ucalan sütunlar ərzaq təhlükəsizliyinin dayanıqlılığını təcəssüm edir. Ağacın budaqları kompozisiyanın sağına - qələbə və sülhün bərqərar olduğu bərəkətli torpaqlar əks edilmiş rəsmə doğru uzanır. Yağlı boya ilə işlənən əsərdə əzəmətli dağın və geniş buğda zəmisinin üzərindən səmaya doğru pərvazlanan göyərçinlər 44 günlük Vətən müharibəsində qazanılan qələbəni müjdələyir.

"Əbədiyyət" kompozisiyasının sol hissəsində torpaqlarımızda yetişən nemətləri təqdim edən insan əlləri heykəli əks etdirilib. Bərəkət və zəhməti təcəssüm etdirən əllər ağacın budaqlarından qidalanır.

Qeyd edildi ki, burada Ümummilli Liderə həsr olunan xüsusi "Heydər Əliyev-100" guşəsi də yaradılıb. Bu il xalqımız müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Ulu Öndərin Azərbaycanda aqrar sahənin inkişafı ilə bağlı gördüyü işlər guşədə geniş əks olunub.

Nazirliyin yeni binası ilə tanışlıq zamanı qeyd olundu ki, 215 otaqdan ibarət işçi mərtəbələrdə





əməkdaşların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada nazirliyin Elektron İdarəetmə Mərkəzi üçün xüsusi otaq, hər cür şəraitə malik və müasir multimedia vasitələri ilə təchiz olunan konfrans və iclas zalları, həmçinin müxtəlif təyinatlı iclas otaqları, yeməkxana var. Diqqətə çatdırıldı ki, ərazidə 170 avtomobil yerlik dayanacaq yaradılıb.

❖ ❖ ❖

Qeyd edək ki, ölkəmizdə kənd təsərrüfatına dövlət dəstəyinin gücləndirilməsi, aqrar sığorta mexanizminin tətbiqi aqrar sahənin dinamik inkişafına müsbət təsirini göstərir. Bunun nəticəsidir ki, 2022-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalının həcmi 3,4 faiz artıb. Artım dinamikası 2023-cü ilin ilk dörd ayında da qorunub saxlanılıb. Həmin müddətdə ölkədə kənd təsərrüfatı məhsulları istehsalının həcmində ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz artım qeydə alınıb.

Subsidiyaların Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə verilməsi aqrar sahədə rəqəmsallaşma səviyyəsinin ildənilə artmasını təmin edir. Aqrar sahəyə dair müasir innovasiyalar və texnologiyalara, texnoloji yeniliklərə, kənd təsərrüfatı texnikasına, damazlıq heyvanlara əlçatanlığın təmin edilməsi, gübrə bazarının liberallaşdırılması sağlam rəqabət mühitinin formalaşmasına səbəb olub. Məhsul istehsalının artması kənd təsərrüfatı məhsullarının ixrac potensialını yüksəldib. Belə ki, ötən il ölkəmizdən xarici bazarlara 886,1 milyon ABŞ dolları dəyərində kənd təsərrüfatı məhsulu ixrac olunub. İxracın həcmi əvvəlki illə müqayisədə 1 faiz artıb.

## İsveçin Kralı Əlahəzrət XVI Karl Qustava

Əlahəzrət.

İsveç Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınıza daim firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 iyun 2023-cü il*

## Nigeriya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Asivaju Bola Ahmed Tinubuya

Hörmətli cənab Prezident!

Nigeriya Federativ Respublikasının Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Nigeriya münasibətlərinin xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Nigeriya xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2023-cü il*

## Latviya Respublikasının yeni seçilmiş Prezidenti zati-aliləri cənab Edqars Rinkeviçsə

Hörmətli cənab Rinkeviçs!

Latviya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan-Latviya münasibətlərinə xüsusi əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcək, strateji tərəfdaşlığımız və səmərəli əməkdaşlığımız daha da genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Latviya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2023-cü il*

## Azərbaycanla Avstriya arasında ATƏT və Aİ çərçivəsində əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti vurğulanıb

İyunun 6-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Avstriyaya işgüzar səfəri çərçivəsində bu ölkənin Avropa və beynəlxalq məsələlər üzrə federal naziri Aleksandr Şallenberq ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin aktual məsələləri, o cümlədən regionda və dünyada baş verən hadisələr müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycan və Avstriya arasında siyasi, iqtisadi, enerji təhlükəsizliyi, mədəni, humanitar və s. sahələr üzrə ikitərəfli əməkdaşlıq gündəliyinin mövcudluğunu qeyd edib.

Münasibətlərin inkişafında qarşılıqlı səfərlərin və təmasların, siyasi məsləhətləşmələr formatının, o cümlədən parlament diplomatiyasının mühüm rolu vurğulanıb. İki ölkə arasında iqtisadi, o cümlədən investisiyalar sahəsində əməkdaşlıq üçün geniş potensialın olduğunu qeyd edən nazir Ceyhun Bayramov bu istiqamətdə mövcud potensialdan istifadənin vacibliyini qeyd edib. İki ölkə arasında çoxtərəfli münasibətlərin, xüsusilə ATƏT və Avropa İttifaqı (Aİ) çərçivəsində əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması, sülh gündəliyinin irəli aparılması istiqamətində görülən işlər, mövcud çağırışlar və çətinliklər barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. Bu xüsusda Ermənistanın üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməməsinin, hərbi-siyasi təxribatları və mina təhdidini davam etdirməsinin sülh səylərinə xələl gətirdiyi bildirilib.

Nazir Aleksandr Şallenberq Avstriyanın Azərbaycanla əlaqələrin daha da genişləndirilməsinə əhəmiyyət verdiyini qeyd edərək bu xüsusda münasibətlərin inkişaf perspektivlərinin müzakirəsi üçün siyasi məsləhətləşmələrin əhəmiyyətli platformalardan biri olduğunu bildirib. Bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsi istiqamətində səylərin Avstriya tərəfindən dəstəkləndiyi diqqətə çatdırılıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan Qarabağ bölgəsinin etnik erməni sakinlərinin yenidən inteqrasiyasında qərarlıdır

**"Azərbaycan Qarabağ bölgəsinin etnik erməni sakinlərinin bərabərhüquqlu vətəndaşlar kimi ölkəmizin siyasi, hüquqi, iqtisadi və sosial çərçivəsinə yenidən inteqrasiyasında qərarlıdır".**



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı bildirib. Nazir bu xüsusda dövlətlərin daxili işlərinə qarışmamaq, milli azlıqlara mənsub şəxslərin inteqrasiyasına xələl gətirməmək və ya qonşu dövlətlərin ərazisində separatizmi qızışdırmamaq üzrə öz öhdəliklərinə ciddi şəkildə riayət etməyin zəruriliyini vurğulayıb.

Azərbaycan hökumətinin gördüyü yorulmaz səylər nəticəsində məcburi köçkün ailələrinin birinci qrupunun artıq Azərbaycanın Zəngilan rayonunun Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndlərinə və Azərbaycanın Laçın şəhərinə qayıtdığı barədə məlumat verən C.Bayramov bununla belə, Azərbaycan ərazilərinin mina və digər partlayıcı maddələrlə kütləvi şəkildə çirklənməsinin əsas maneə, həmçinin ciddi humanitar təhlükə olmaqda davam etdiyini diqqətə çatdırıb.

## Ceyhun BAYRAMOV: "Azərbaycan müxtəlif platformalarda səmərəli çoxtərəfli əməkdaşlığın tərəfdarıdır"

"Azərbaycan ATƏT də daxil olmaqla, müxtəlif platformalarda səmərəli çoxtərəfli əməkdaşlığın tərəfdarıdır. Ölkəmiz eyni zamanda ehtiyacları və prioritetləri əsasında ATƏT və onun təsisatları çərçivəsində əməkdaşlıqda maraqlıdır".

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı bildirib. ATƏT regionunda ümumi təhlükəsizlik mühitinin əhəmiyyətindən söz açan nazir Helsinki Yekun Aktında təsbit edilmiş ATƏT iştirakçı dövlətlərinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmətdən başlayaraq təşkilatın prinsipləri və öhdəliklərinin sülh və təhlükəsizliyin təməli olaraq qalmasının, coğrafi üstünlüklər və ikili standartlar olmadan bərabər və qeyd-şərtsiz tətbiq olunmasının əhəmiyyətindən bəhs edib.

C.Bayramov həmçinin ölkəmizin ATƏT çərçivəsində davamlı fəallığının regionda sülh, təhlükəsizlik və sabitliyə töhfə vermək öhdəliyimizin sübutu olduğunu bildirib.

* * *

"Azərbaycan-Ermənistan normallaşma prosesi çərçivəsində ikitərəfli sülh sazişi mətni üzərində danışıqlar aparılır", - deyən nazir son bir neçə həftə ərzində Vaşinqtonda, Brüsseldə, Moskvada və Kişineuda keçirilən danışıqların tərəflərin mövqeyini daha yaxşı anlamağa imkan yaratdığını diqqətə çatdırıb.

Ceyhun Bayramov deyib ki, Azərbaycanı ikitərəfli müzakirələrin gündəliyini formalaşdıran üç konkret istiqamət üzrə fikir ayrılıqlarını aradan qaldırmaq üçün Ermənistan tərəfdən qarşılıqlı siyasi iradə gözləyir. Bu kontekstdə, Ermənistanın Azərbaycanın suveren ərazilərində qeyri-qanuni hərbi mövcudluğunu davam etdirməsi, daxili işlərimizə ardıcıl müdaxilə, Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə Qarabağ bölgəsinin erməni əsilli yerli sakinləri arasında dialoqa mane olması və beynəlxalq miqyasda, o cümlədən ATƏT çərçivəsində qarayaxma kampaniyası aparılmasının Azərbaycan Ermənistan arasında dövlətlərarası normallaşma üzrə danışıqlara əsas maneə olduğu diqqətə çatdırılıb.

## ATƏT-in Daimi Şurasının xüsusi iclasında Ermənistanın müharibə cinayətlərindən danışılıb

**"Keçmiş münaqişə (Ermənistan-Azərbaycan münaqişəsi - red.) nəticəsində itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi barədə məlumatların açıqlanması ilə bağlı Ermənistanın öhdəliklərinə əməl etməsinə dair davamlı çağırışlarımıza məhəl qoymur. Ağır hərbi cinayətlər və insanlığa qarşı cinayətlərlə bağlı ədalətin təmin edilməsi əhəmiyyətlidir".**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı səsləndirib.

Ceyhun Bayramov Azərbaycanın beynəlxalq öhdəliklərinə sadiq qaldığını, konstruktiv dialoqa açıq olmaqla yanaşı, beynəlxalq hüququn pozulmasına göz yummayacağını və beynəlxalq səviyyədə müvafiq addımlar atmağa davam edəcəyini bildirib.

# A.N.Mollazadənin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Asim Nazim oğlu Mollazadə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2023-cü il*

# Azərbaycan Respublikasında qida təhlükəsizliyi sahəsində fərqlənən bir qrup şəxsin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında qida təhlükəsizliyi sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayev Asəf Azad oğlu
Ələkbərov Malik Mürsəl oğlu
Əliyeva İlahə Mirsə-Əli qızı
Əliyeva Tamilla Aliyevna
Hacıyeva Aytən Tofiq qızı
Hümbətov Sirac Mərfət oğlu
İbrahimov İsmayıl Nadir oğlu
Məmmədov Sadiq Ərzuman oğlu
Zeynalov Nizami Əkbər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2023-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Əs-səlamu aleykum va rahmatullahi va barakatuhu.

Dost Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə böyük məmnuniyyətlə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı və uğurlar, dost xalqınıza davamlı tərəqqi və firavanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz və xalqlarımız arasında münasibətləri möhkəmləndirmək, birgə əməkdaşlıq əlaqələrini inkişaf etdirmək əzmində olduğumu vurğulayıram.

*Dərin hörmətlə,*

***Əbdüllətif Camal RƏŞİD,***
***İraq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Məmnunluqla bildirirəm ki, birgə səylərimiz sayəsində qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığımız müxtəlif sahələrdə daha da güclənir. Həmçinin inanıram ki, ikitərəfli əməkdaşlıq kənd təsərrüfatı, nəqliyyat və turizm sahələrində də genişlənərək daha da möhkəmlənəcəkdir.

Bu fürsətdən istifadə edərək Sizə münasib olan vaxtda Zati-alinizi Monqolustana səfərə dəvət etmək istəyirəm.

Zati-aliləri cənab Prezident, Sizə möhkəm cansağlığı və firavanlıq, dost Azərbaycan xalqına isə rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Uxnaaqiyn XÜRELSÜX,***
***Monqolustanın Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına Avstraliya hökuməti və xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq əlaqələri növbəti illərdə də inkişaf edəcəkdir.

*Dərin hörmətlə,*

***Devid Con HÖRLİ,***
***Avstraliya İttifaqının General-Qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ölkənizə və xalqınıza əmin-amanlıq, uğurlar, rifah diləyirəm.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Maha VAÇİRALONQKORN,***
***Tailandın Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək Zati-alinizə xoşbəxtlik və möhkəm cansağlığı, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Eyni zamanda qardaş Azərbaycan xalqına firavanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***Luis ABİNADER,***
***Dominikan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Uruqvay xalqı və hökuməti adından, şəxsən öz adımdan Azərbaycanın Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi, həmçinin əziz xalqınıza sülh və firavanlıq arzularımı qəbul edin.

Qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında çox gözəl ikitərəfli münasibətlər yaranıb. Bu münasibətlərin iqtisadi, siyasi, mədəni əməkdaşlıq zəminində daha da möhkəmlənəcəyinə tam əminəm.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə ən yüksək ehtiramımı bildirirəm.

***Luis Lakalye POU,***
***Uruqvay Şərq Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli Prezident İlham Əliyev!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Bəhreyn Krallığının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuram. Zati-alinizə cansağlığı və səadət, Azərbaycan Respublikasının dost xalqına davamlı tərəqqi və rifah diləyirəm.

Zati-aliləri, yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Salman bin Həməd Al XƏLİFƏ,***
***Bəhreyn Krallığının vəliəhdi və Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 180** — **QƏRAR** — **Bakı şəhəri, 2 iyun 2023-cü il**

## "İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"nın təsdiq edilməsi haqqında

"İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən istifadəyə görə maliyyə yardımı göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 may tarixli 2131 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1."İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə bu Qərara uyğun olaraq maliyyə yardımı alan işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarların uçotunun aparılmasını təmin etsin.

3. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 iyun tarixli 180 nömrəli Qərarı ilə təsdiq edilmişdir

## İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara elektrik enerjisi və təbii qazın satışı, su təchizatı və tullantı sularının axıdılması xidmətlərindən (bundan sonra - kommunal xidmətlər) istifadəyə görə dövlət büdcəsindən maliyyə yardımının (bundan sonra - maliyyə yardımı) ödənilməsi ilə bağlı hüquqi və təşkilati məsələləri tənzimləyir.

1.2. Maliyyə yardımı Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinə əsasən riskli vergi ödəyicisi olmayan, habelə işğaldan azad edilmiş ərazilər üzrə vergi uçotuna alınan və bilavasitə həmin ərazilərdə maddi nemətlər yaratmağa yönəldilmiş fəaliyyəti həyata keçirən hüquqi şəxslərə və ya sahibkarlıq fəaliyyətini hüquqi şəxs yaratmadan həyata keçirən fiziki şəxslərə (bundan sonra - sahibkar) kommunal xidmətlərdən istifadəyə görə ölkədaxili tariflərə uyğun olaraq ödədikləri vəsaitin 20 (iyirmi) faizi məbləğində ödənilir.

1.3. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

### 2. Maliyyə yardımının ödənilməsi üçün müraciət

2.1. Maliyyə yardımının ödənilməsi üçün sahibkar hər ay bitdikdən sonra növbəti ayın 5-dək bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun formada müvafiq məlumatları, habelə kommunal xidmətlərin dəyərinin ödənilməsini təsdiq edən sənədi (sənədləri) elektron qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə (bundan sonra - Dövlət Vergi Xidməti) bunun üçün Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsində yaradılmış elektron kabinet vasitəsilə təqdim edir.

2.2. Dövlət Vergi Xidməti bu Qaydanın 2.1-ci bəndinə uyğun təqdim edilmiş sənədlərdə və məlumatlarda (bundan sonra - məlumatlar) imtinaya səbəb olmayan çatışmazlıq müəyyən etdikdə, həmin çatışmazlıq qeyd edilməklə onun 5 (beş) iş günündən gec olmayaraq aradan qaldırılması üçün sahibkarlara məlumatların təqdim edildiyi tarixdən 3 (üç) iş günü müddətində elektron qaydada bildiriş göndərir.

2.3. Çatışmazlıq bu Qaydanın 2.2-ci bəndində qeyd edilən müddətdə aradan qaldırılmadıqda, Dövlət Vergi Xidməti tərəfindən müraciət baxılmamış saxlanılır. Bu hal sahibkarın yenidən müraciət etməsinə mane olmur.

2.4. Məlumatlar bu Qaydanın tələblərinə uyğun olmadıqda, maliyyə yardımının verilməsindən imtina edilir və bu barədə Dövlət Vergi Xidməti tərəfindən əsaslandırılmış qərar qəbul olunmaqla 3 (üç) iş günü müddətində elektron qaydada sahibkara göndərilir. Bu qərar sahibkarın yenidən müraciət etməsinə mane olmur.

2.5. Sahibkar tərəfindən məlumatlar müvafiq ayın 5-dən sonra təqdim edildikdə, həmin müraciətlər məlumatların təqdim edildiyi aydan sonrakı ay üzrə nəzərə alınır.

2.6. Dövlət Vergi Xidməti bu Qaydanın 2.1-ci, 2.2-ci və 2.5-ci bəndlərinə uyğun təqdim olunmuş məlumatlar əsasında müraciətlərə hər ay bitdikdən sonra növbəti ayın 15-dək baxır və ödəniləcək maliyyə yardımının məbləğini müəyyən edir.

2.7. Kommunal xidmətlər göstərən dövlət müəssisələri - Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti maliyyə yardımının məbləğinin dəqiqləşdirilməsi üçün göndərilən sorğu əsasında sahibkarlar tərəfindən istehlak edilmiş və dəyəri ödənilmiş kommunal xidmətlərlə əlaqədar ödənişlərin həcmi barədə aylıq məlumatları 5 (beş) iş günü müddətində Dövlət Vergi Xidmətinə təqdim edirlər.

### 3. Maliyyə yardımının ödənilməsi qaydası

3.1. Maliyyə yardımının ödənilməsi üçün müraciət edən sahibkarlara maliyyə yardımı aşağıdakı qaydada ödənilir:

3.1.1. Dövlət Vergi Xidməti hər ayın 20-dək icmallaşdırılmış məlumatlar əsasında maliyyə yardımının ödənilməsi ilə bağlı bu Qaydanın 2 nömrəli əlavəsinə uyğun ödəniş sifarişini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinə təqdim edir;

3.1.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi 2 (iki) iş günü müddətində bu Qaydanın 3.1.1-ci yarımbəndinə uyğun olaraq təqdim edilmiş ödəniş sifarişi əsasında maliyyə yardımının məbləğini sahibkarın bank hesabına köçürülməsini təmin edir.

3.2. Bu Qaydaya uyğun olaraq maliyyə yardımı almış sahibkarların uçotu Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən aparılır.

"İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"na

## 1 nömrəli əlavə

### Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə

20___ - ilin _________ ayında ______________________________________________ tərəfindən
(hüquqi şəxsin adı, hüquqi ünvanı, VÖEN-i / fiziki şəxsin soyadı, adı və atasının adı, VÖEN-i)

**İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar tərəfindən kommunal xidmətlərin istehlakına dair**

**MƏLUMAT**

| Kommunal xidmətin adı | Alınan elektron qaimə-fakturaya dair məlumatlar | | | | | | Ödəniş | |
|---|---|---|---|---|---|---|---|---|
| | tarixi | seriya və nömrəsi | malın ölçü vahidi | malın vahidinin satış qiyməti (manatla) | malın miqdarı | məbləği (manatla) | tarixi | məbləği (manatla) |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| CƏMİ | | | | | | | | |

Bank rekvizitləri ______________________________

"İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) istifadəyə görə maliyyə yardımının ödənilməsi qaydası"na

## 2 nömrəli əlavə

20___ - ilin _________ ayı üzrə işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara ödənilməli olan maliyyə yardımının məbləğinə dair

**ÖDƏNİŞ SİFARİŞİ**

| Sıra №-si | İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar barədə məlumat | | | |
|---|---|---|---|---|
| | hüquqi şəxsin adı və ya fiziki şəxsin soyadı, adı və atasının adı | VÖEN-i | bank rekvizitləri | ödəniləcək məbləğ |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| | | | | |
| CƏMİ | | | | |

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 181** — **QƏRAR** — **Bakı şəhəri, 5 iyun 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 823; 2018, № 8, maddə 1797; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 fevral tarixli 35 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"nin 2.4-cü bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qarabağ və Şərqi Zəngəzurun bərpası daha da sürətlənəcək

## Dövlət büdcəsindən bu məqsədlə ayrılan vəsaitin həcmi artırılır

**İyunun 6-da Milli Məclisin 2023-cü il növbədənkənar sessiyasının ilk iclası keçirilib. Parlamentin Sədri Sahibə Qafarova növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**





Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu inkişaf strategiyası ötən 5 ayda makroiqtisadi sabitliyi və maliyyə dayanıqlığını daha da möhkəmləndirməyə, iqtisadi inkişaf sahəsində dövlət siyasətinin prioritetlərini və məqsədlərini əldə etməyə imkan yaratmışdır. Bu gün Azərbaycan dünyanın ən dinamik inkişaf edən ölkələrindən biridir.

Qeyd olunub ki, iqtisadi göstəricilərin artımı nəzərdə tutulan hədəflərin əldə edilməsi, o cümlədən işğaldan azad olunmuş bölgələrdə bərpa-quruculuq işlərinin sürətləndirilməsi, müdafiə və təhlükəsizlik vəzifələrinin yerinə yetirilməsi məqsədilə bu ilin dövlət büdcəsi haqqında qanunda və büdcə zərfinə daxil olan digər 2 qanunda dəyişiklik edilməsinə imkan yaradıb.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, bununla əlaqədar olaraq, ölkə Prezidenti müvafiq qanun layihələrini qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edib və gündəliyin ilk üç məsələsi məhz bu qanun layihələridir.

Gündəliyin birinci məsələsi olan "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə məlumatı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib. Komitə sədri bildirib ki, "Büdcə sistemi haqqında Qanunun" 23.7-ci maddəsinə əsasən dövlət büdcəsinə yenidən baxılarkən, onun gəlir və xərcləri üzrə məbləğinin büdcə gəlirləri təsnifatının, büdcə xərclərinin funksional, iqtisadi və inzibati təsnifatlarının paraqrafları səviyyəsində dəyişdirilməsi nəzərdə tutularsa, qanunvericilik təşəbbüsü qaydasında və Azərbaycan Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndi nəzərə alınmaqla qanunda göstərilmiş 8 sənəd Milli Məclisə təqdim edilib.

Tahir Mirkişili diqqətə çatdırıb ki, 2023-ci ilin dövlət büdcəsi haqqında qanun layihəsi qəbul olunarkən dövlət büdcəsi gəlirlərinin 30 774 milyon, xərclərinin 33 353.3 milyon, kəsirinin isə 2 579.3 milyon manat olacağı planlaşdırılıb. Eyni zamanda 2023-cü ildə ÜDM-nin real artım tempinin 2.7 faiz, qeyri-neft-qaz ÜDM-nin real artım tempinin 4.5 faiz, inflyasiyanın orta illik səviyyəsinin 6.9 faiz olacağı proqnozlaşdırılıb, dövlət büdcəsində hesablamalar neftin bir barelinin orta illik qiymətinin 50 ABŞ dolları səviyyəsinə uyğun həyata keçirilib.

Komitə sədri bu ilin yanvar-aprel aylarında Azərbaycan iqtisadiyyatında yaradılmış əlavə dəyərin 40 milyard manat, iqtisadi artım tempinin 0,1 faiz təşkil etdiyini söyləyib. O qeyd edib ki, 2023-cü ilin dövlət büdcəsinə yenidən baxılma zamanı təqdim edilmiş məlumatlarda ÜDM-nin 111,6 milyard manatadək artırılması, iqtisadi artım tempinin isə 1,8 faizə endirilməsi nəzərdə tutulur. ÜDM-də nominal məbləğdə nəzərdə tutulan artımın həm neft-qaz, həm də qeyri-neft-qaz sektoru hesabına təmin olunacağı proqnozlaşdırılır. Belə ki, dürüstləşdirilmiş proqnozda ÜDM-də gözlənilən 5,6 milyard manat artımın 4,4 milyard manatının qeyri-neft-qaz, 1,2 milyard manatının isə neft-qaz sahələrindən formalaşacağı gözlənilir. Qeyri-neft-qaz sektorunda real artım proqnozu 2023-cü il üçün 4.5 faizdən 4.9 faizə qədər artırılıb. Yenidən baxılan "Büdcə zərfi"ndə hesablamalar neftin bir barelinin orta illik qiymətinin 10 ABŞ dolları artırılaraq 60 ABŞ dolları səviyyəsinə uyğun həyata keçirilib.

Nəzərə çatdırılıb ki, cari ilin 4 ayı ərzində dövlət büdcəsi gəlirlərinin proqnoz və icra göstəriciləri arasında fərqlər müşahidə olunub. Dövlət Neft Fondundan transfert istisna olmaqla, dövlət büdcəsinin gəlirləri 4 ay ərzində proqnozdan 2 412.0 milyon manat artıq icra edilib. Artıq gəlirlərin 1.077 milyon manatını qeyri-neft gəlirləri, 1 315.0 milyon manatını isə neft gəlirləri təşkil edib. Komitə sədri bu dövr ərzində ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin gücləndirilməsi, Böyük Qayıdışa dair Dövlət Proqramının icrası, dövlət borcunun idarə edilməsi üzrə yeni yanaşmanın tətbiqi və digər zəruri xərclərlə bağlı dövlət büdcəsi qarşısında yeni maliyyələşmə tələbatının yarandığını deyib. Qeyd edib ki, mühüm dövlət vəzifələrinin icrası üçün dövlət büdcəsi qarşısında bu il əlavə olaraq 4338,4 milyon manat məbləğində maliyyə tələbatı yaranıb.

Bildirilib ki, deyilənləri nəzərə alaraq yenidən baxılan dövlət büdcəsinin gəlirlərinin 3 005.5 milyon manat artırılaraq 33 779.5 milyard manata, xərclərinin 3 215.5 milyon manat artırılaraq 36 568.8 milyon manata, kəsirin 210 milyon manat artırılaraq 2 789.3 milyard manata çatdırılması təklif olunur. 2023-cü il üzrə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbətinin 25,4 faiz olması proqnozlaşdırılıb.

Sonra iclasda maliyyə naziri Samir Şərifov çıxış edib. O bildirib ki, 2023-cü ilin dövlət büdcəsində Böyük qayıdış proqramında nəzərdə tutulan layihələrin icrası üçün 3 milyard manat vəsait təsdiq olunub. Artıq həmin vəsaitin 60 faizə yaxın hissəsi carin ilin ötən 5 ayı ərzində istifadə olunub. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev cari ilin I rübünün fiskal, xüsusilə dövlət büdcəsinə daxilolmalar üzrə göstəricilərin müsbət dinamikasını, habelə 2023-cü il üzrə tərtib olunmuş sosial-iqtisadi inkişaf proqnozunun 2022-ci ilin faktiki icra göstəricilərinə nisbətən artıma doğru yenilənməsini nəzərə alaraq, büdcədə yaranmış əlavə gəlirlərin,ilk növbədə Böyük qayıdış proqramı üzrə layihələrin maliyyələşdirilməsinə, ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsinə yönəldilməsi vəzifələrini müəyyən edib.

Diqqətə çatdırılıb ki, dövlət büdcəsinin təsdiq olunmuş bəzi xərclərinin optimallaşdırılması və yerdəyişməsi hesabına büdcə xərcləri daxilində 1 milyard 123 milyon manat məbləğində əlavə maliyyə təminatı yaradılıb. Cari ilin ilk 5 ayında Dövlət Neft Fondunun dövlət büdcəsinə transfert üzrə daxilolmalar nəzərə alınmadan dövlət büdcəsinin əlavə gəlirləri 2,6 milyard manat təşkil edib. Bu vəsaitin 50 faizi qeyri-neft sektoru hesabına, digər hissəsi isə neft sektorundan daxilolmalar hesabına təmin edilib.

Bildirilib ki, bütövlükdə qeyd olunan 4,3 milyard manat maliyyə resurslarının 2 milyard 260 milyon manatlıq hissəsi işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işlərinin aparılmasına yönəldilməklə, cari ildə Böyük qayıdış proqramı üçün ayrılan dövlət büdcəsinin vəsaiti 5 milyard 260 milyon manata yüksəldiləcək. Digər prioritet istiqamət olan ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyin daha da artırılması üçün əlavə ayrılacaq 1 milyard manat vəsait nəzərə alınmaqla, xüsusi müdafiə təyinatlı xərclərə yönəldilən vəsaitin ümumi məbləği 3 milyard 70 milyon manata çatdırılacaq.

Qeyd olunub ki, bununla yanaşı, bir sıra digər istiqamətlər üzrə də əlavə xərclərə vəsaitin yönəldilməsi təklif olunur. Belə ki, Azərbaycanın həmtəsisçisi olduğu Beynəlxalq İnvestisiya və İnkişaf Fondlarının Nizamnamə kapitalında Azərbaycan tərəfinin payının maliyyələşdirilməsi, ölkəni yeni "Azərsky2" peykinin orbitə çıxarılması ilə əlaqədar "Azərkosmos" Səhmdar Cəmiyyətinin Nizamnamə kapitalının artırılması üçün ümumilikdə 297,5 milyon manat, habelə beynəlxalq münasibətlər və digər beynəlxalq fəaliyyətlə bağlı xərclər üçün əlavə 139,6 milyon manat, o cümlədən xarici ölkələrə maliyyə yardımının göstərilməsi üçün 100 milyon manat, Azərbaycanın xaricdəki diplomatik və digər nümayəndəliklərinin əməkhaqqı sisteminin təkmilləşdirilməsi ilə bağlı, həmçinin bəzi xarici ölkələrdə yeni səfirlik və diplomatik nümayəndəliklərin fəaliyyətə başlaması ilə əlaqədar 26 milyon manat, BMT-nin iqlim dəyişməsi üzrə çərçivə konsepsiyasına uyğun olaraq ölkəmizin qəbul etdiyi öhdəliklərin yerinə yetirilməsi üçün 13,6 milyon manat, dəmir yolu sahəsində, ölkə ərazisində elektrik enerjisi təchizatı və digər infrastruktur layihələr üzrə yenidənqurma və əsaslı təmir xərcləri üçün 128 milyon manat, sahibkarlıq fəaliyyəti ilə bağlı verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması üçün 50 milyon manat, bəzi büdcə təşkilatlarının maddi-texniki təminatının yaxşılaşdırılması və digər zəruri tədbirlərin maliyyə təminatı üçün 102 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclər üçün əlavə177,5 milyon manat, dövlət büdcəsindən maliyyələşən bəzi təşkilatların əlavə büdcədənkənar gəlirləri hesabına xərclərinin artırılması üçün 79 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulub.

Nəzərə çatdırılıb ki, dövlət büdcəsinin gəlirlərinin 52,5 faizi və ya 17739,7 milyon manatı neft sektorunun, 47,5 faizi və ya 16039,8 milyon manatı qeyri-neft sektorunun payına düşür.

Yenidən baxılmış 2023-cü il dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə ümumi xərclərin 60,3 faizi və ya 22039,3 milyon manat, əsaslı xərclərə ümumi xərclərin 36,5 faizi və ya 13347,0 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 3,2 faizi və ya 1182,5 milyon manat vəsait yönəldiləcək.

Məlumat verilib ki, yenidən baxılmış 2023-cü il icmal büdcənin gəlirləri 42949,1 milyon manat proqnozlaşdırılır və bu təsdiq olunmuş göstəriciyə nisbətən 9923,4 milyon manat və ya 30 faiz çoxdur. İcmal büdcənin xərcləri isə 41213,9 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3244,5 milyon manat və ya 8,5 faiz çoxdur. Qeyd olunub ki, icmal büdcə 4943,6 milyon manat kəsirlə proqnozlaşdırılsa da, 6678,9 milyon manat əlavə gəlirlər hesabına 1735,3 milyon manat profisit yaranacaq.

Samir Şərifov bildirib ki, 2023-cü ilin dövlət və icmal büdcələrinə yenidən baxılmasının əsas hədəfi prioritet vəzifə olaraq işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, Böyük qayıdış proqramının icrası, dövlətin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin artırılması, ordunun hərbi qüdrətinin gücləndirilməsi üçün əlavə maliyyə təminatının yaradılmasından ibarətdir.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) və "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi (birinci oxunuş) barədə qanun layihələrini təqdim edib.

Musa Quliyev Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun dürüstləşdirilmiş büdcə layihələrinin "Büdcə sistemi haqqında" qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq hazırlandığını söyləyib. Diqqətə çatdırılıb ki, dürüstləşdirilmiş büdcədə DSMF-nin gəlirləri və xərclərinin 4 milyon manat artırılaraq 6 milyard 268 milyon manata çatdırılması təklif olunur. Fondun büdcəsinin 4 milyon manat həcmində gəliri əvvəlki illərdə istifadə olunmamış vəsaitdən formalaşacaq. DSMF dürüstləşdirilmiş büdcəsinin xərc hissəsində nəzərdə tutulmuş 4 milyon manat vəsait uşağın anadan olmasına görə müavinətin məbləğinin 2023-cü ilin yanvar ayından 300 manatdan 500 manata qaldırılması üçün xərclərini qarşılamaq üçün nəzərdə tutulub. Eyni zamanda postpandemiya dövründə ölüm hallarının azalması səbəbindən dəfn üçün müavinətin 2023-cü ilin büdcəsində təsdiq edilmiş 41 milyon manatdan 4 milyon manat azaldılaraq 37 milyon manata endirilməsi təklif olunur. Fondun mərkəzi aparatının və yerli struktur bölmələrinin saxlanılması xərclərinin 4 milyon manat və yaxud 3,9 faiz artırılaraq 106,7 milyon manat səviyyəsində olması nəzərdə tutulur.

Bildirilib ki, İşsizlikdən Sığorta Fondunun dürüstləşdirilmiş büdcəsində gəlir və xərclərin 5 milyon manat artırılaraq 212,7 milyon manatdan 217,7 milyon manata çatdırılması nəzərdə tutulub. Büdcə gəlirlərinin 5 milyon manatlıq artımı İşsizlikdən Sığorta Fondunun 2022-ci ilin sonuna istifadə olunmamış vəsaiti hesabına təmin ediləcək. Qeyd edilib ki, İşsizlikdən Sığorta Fondunun büdcə xərclərinin 7 parametri üzrə dəyişiklik təklif edilir. Belə ki, işsizliyə görə sığorta ödənişləri, haqqı ödənilən ictimai işlərin təşkili, sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi, Dövlət Məşğulluq Ağentliyinin aparatının, yerli orqanlarının və Sosial Müdafiə Məsələləri üzrə Milli Observasiyanın saxlanılma xərcləri istiqamətlərində artımlar nəzərdə tutulur. Artımlar əməkhaqlarının yüksəlməsi, yeni sosial müəssisələrin yaradılması və əlavə iş yerlərinin açılması ilə əlaqədardır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bu qanun layihələri ilə əlaqədar rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini söyləyib.

Milli Məclisin Sədri Sahibə Qafarova 2023-cü ilin dövlət büdcəsinə dəyişikliklərlə bağlı təqdim olunan qanun layihələrinə dair Hesablama Palatası tərəfindən rəy verildiyini diqqətə çatdırıb.

Sonra bu qanun layihələri ətrafında müzakirələr aparılıb. Komitə sədri Siyavuş Novruzov, deputatlar Fazil Mustafa, Sevil Mikayılova, Rafael Hüseynov, Şahin İsmayılov, Əminə Ağazadə, Tahir Kərimli, Nurlan Həsənov, Elşən Musayev, Vahid Əhmədov, Qüdrət Həsənquliyev, Razi Nurullayev çıxış edərək öz fikirlərini və bəzi qeydlərini səsləndiriblər.

Müzakirələrin sonunda 2023-cü ilin dövlət büdcəsinə dəyişikliklərlə bağlı təqdim olunan 3 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, qanun layihəsi barədə birinci oxunuş zamanı ətraflı məlumat verildiyini, müzakirələr zamanı deputatlar tərəfindən bəzi qeyd və təkliflərin səsləndirildiyini söyləyib.

Komitə sədri qeyd edib ki, 2022-ci ilin dövlət büdcəsi ölkə Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri, sosial-iqtisadi siyasət və təhlükəsizlik tədbirləri ilə uzlaşdırılaraq, qlobal iqtisadiyyatda gedən proseslərin, regionda baş verən hadisələrin, müdafiə və təhlükəsizlik çağırışlarının, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla icra olunub.

O bildirib ki, Azərbaycanda 2022-ci ildə iqtisadiyyatın real artımı gözlənilən 3.5 faiz proqnoza qarşı 4.6 faiz olub, Ümumi daxili məhsulun həcmi isə ilk dəfə ən yüksək həddə - 133.8 milyard manata çatıb. Diqqətə çatdırılıb ki, büdcə qaydasının əsas göstəriciləri hədəflənən yuxarı hədləri aşmayıb. İcmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisi 22,4 faiz və ya hədəf göstəricidən 5,1 faiz az, dövlət borcunun ÜDM-ə nisbəti isə 11,6 faiz və ya hədəf göstəricidən 8,4 faiz az olub. Hesabat ilində ölkənin dövlət borcu 490,7 milyon manat artaraq 15 milyard 566,6 milyon manat, dövlət borcunun 73,1 faizini təşkil edən xarici birbaşa dövlət borcu isə 700,2 milyon ABŞ dolları azalaraq 6 milyard 693 milyon ABŞ dolları təşkil edib.

Bildirilib ki, 2022-ci ildə dövlət büdcəsinin gəlirləri 29 197,8 milyon manat proqnoza qarşı 30 679,6 milyon manat təşkil edib və proqnozla müqayisədə 1 481.8 milyon manat çox icra olunub. Qeyd olunub ki, gəlirlərin tərkibində qeyri-neft sektoru üzrə daxilolmalar 15 350.0 milyon manat təşkil edib. Vergi orqanları xəttilə dövlət büdcəsinə daxilolmalar 15 543.0 milyon manat, Dövlət Gömrük Komitəsinin xətti ilə 5 654.6 milyon manat olub. Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləği 3 594.5 milyon manat azalaraq 7 923 milyon manat təşkil edib.

Qeyd edilib ki, ötən il üzrə dövlət büdcəsinin təsdiq olunmuş 32 303.8 milyon manat xərclərinin 99.3 faizi icra olunub. Sosial xərclər dövlət büdcəsinin icrasında xərclərin 36,1 faizini təşkil edib. Ölkənin müdafiə potensialının gücləndirilməsi, silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılmasına dövlət büdcə xərclərinin 17,5 faizi və ya 5622,5 milyon manat vəsait xərclənib. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2022-ci ilin dövlət büdcəsindən ümumilikdə 4311,0 milyon manat vəsait ayrılıb.

Tahir Mirkişili bildirib ki, 2022-ci il üçün dövlət büdcəsinin icrası ölkə Prezidenti İlham Əliyev tərəfindən müəyyən edilən inkişaf və dəstək kursunun ardıcıl olaraq davam etdirilməsi, əsas dövlət və sosial vəzifələrin həyata keçirilməsi, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, ölkədə makroiqtisadi sabitliyin qorunması, müdafiə və təhlükəsizlik məsələlərinin həlli və iqtisadiyyatın stimullaşdırılması istiqamətində müsbət rol oynayıb.

Məsələ ətrafında müzakirələrdə çıxış edən deputatlar Vüqar Bayramov, Etibar Əliyev, Tahir Kərimli, Sabir Rüstəmxanlı, Rüfət Quliyev öz fikirlərini açıqlayıblar. Maliyyə naziri Samir Şərifov iclasda səsləndirilən bəzi məsələlərə aydınlıq gətirib.

Müzakirələrdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

"Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri də ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin qalan 6 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Sahibə Qafarova diqqətə çatdırıb ki, növbəti 4 məsələ cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, məzmun və mahiyyətcə də bir-birinə yaxındır.

Beləliklə, gündəliyin 9-12-ci məsələlərinin - birinci oxunuşda müzakirəyə çıxarılan "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişiklik edilməsi barədə, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin əvvəlcə təqdimatlarının dinlənilməsi, sonra birlikdə müzakirə olunması qərara alınıb.

9-cu məsələ - "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov bildirib ki, ölkə Prezidentinin təsdiq etdiyi "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda nəqliyyat vasitələrinin utilizasiya proqramının hazırlanması nəzərdə tutulub. Buna uyğun olaraq 14 dövlət qurumu ilə koordinasiyalı şəkildə hazırlanan qanun layihəsində qanuna "Nəqliyyat vasitələrinin utilizasiyası" fəslinin əlavə edilməsi təklif olunub.

Sonra spiker Sahibə Qafarova bildirib ki, 10-cu və 12-ci məsələlərə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. İnzibati Xətalar Məcəlləsində və "Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi ilə bağlı qanun layihələri haqqında məlumat verən komitə üzvü Kamal Cəfərov deyib ki, sənədlərdə utilizasiyası ilə bağlı qanunvericilikdə yeni yaranan münasibətlərə görə yeni inzibati qaydaların və xətaların müəyyən edilməsi təklif olunub.

11-ci məsələ barədə məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, "İstehsalat və məişət tullantıları haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsinə uyğun olaraq hazırlanan Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə görə, ölkənin gömrük ərazisinə gətirilən və istehsal-buraxılış vaxtından 4 (dörd) il keçən minik avtomobillərinin gömrük rəsmiləşdirilməsi zamanı "Tullantılar haqqında" qanuna uyğun olaraq utilizasiya haqqı tutulacaq.

10-cu, 11-ci və 12-ci məsələlərlə bağlı komitə sədri Sadiq Qurbanov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin müsbət rəyini təqdim edəndən sonra sənədlərin müzakirəsi aparılıb. Müzakirədə çıxış edən deputatlar Vüqar Bayramov, Emin Hacıyev, Etibar Əliyev, İltizam Yusifov layihələrlə bağlı fikirlərini bölüşüblər, qeydlərini səsləndiriblər.

Sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Gündəliyin 13-cü məsələsi olan Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. O bildirib ki, əməyin mühafizəsi və iş yerlərinin attestasiyasının aparılması sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə ölkə Prezidentinin 23 may 2023-ci il tarixli fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Əməyin Mühafizəsi Mərkəzi" publik hüquqi şəxsi yaradılıb. Mərkəzin funksiya və vəzifələrinə eyni zamanda əməyin mühafizəsi sahəsində həm attestasiyanın aparılmasına texniki köməklik göstərmək, həm maarifləndirmə işinin aparılması, həm də təlimlərin keçirilməsi daxildir. Bu məqsədlə də Əmək Məcəlləsinin "İş yerlərinin attestasiyası, onun məqsədi və keçirilməsinin tənzimlənməsi" adlanan 64-cü maddəsinə "attestasiyasının keçirilməsini" sözlərindən sonra "və attestasiyanın aparılması nəticələrinə dair sənədlərin surətinin 10 iş günü müddətində məlumat üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim olunmasını təmin etməlidir" sözləri əlavə edilir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Kamal Cəfərov bildirib ki, layihədə yol-nəqliyyat hadisələrinin baş verməsinin səbəblərindən biri olan nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə, xüsusilə narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə etməklə idarə edilməsinə görə inzibati məsuliyyətin sərtləşdirilməsi nəzərdə tutulur.

Bundan əlavə, layihədə yol-nəqliyyat hadisələrinin baş verməsinin digər səbəblərindən olan sürət həddinin aşılması, qarşıdan gələn nəqliyyatın hərəkət zolağına çıxma, ötmə və manevr etmə, yolayrıcını keçmə qaydalarının pozulması və sair halların törədilməsinin qarşısının alınması məqsədilə İnzibati Xətalar Məcəlləsində qeyd edilənləri nəzərdə tutan müvafiq xətalara görə sanksiyalarının sərtləşdirilməsi təklif olunub.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Güclü lider, müstəqil siyasət, qüdrətli dövlət

## İlham Əliyevin qətiyyətli diplomatiyası sayəsində Azərbaycan yeni çağırışlara cavab verən ölkə statusuna sahiblənib

Əvvəli 1-ci səh.

Təbii ki, Azərbaycana bu statusu qazandıran İlham Əliyevin qlobal təşəbbüsləri və sözünə sadiqliyidir. Buna görə də dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı regionun təhlükəsizlik zəmanəti adlandırırlar. Aparıcı dövlətlər ölkəmizin Cənubi Qafqaz və Xəzər dənizi regionunda əvəzolunmaz tərəfdaş kimi böyük dəyərə malik olduğunu bəyan edirlər. Bütün bunlar bir daha təsdiq edir ki, İlham Əliyevin tam müstəqil siyasəti Azərbaycanı müasir dünyanın yeni çağırışlarına cavab verən ölkəyə çevirib.

Bu uğurları şərtləndirən Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi inkişaf strategiyası, güclü dövlət konsepsiyasıdır. Son 20 ildə dayanıqlı və özünü təmin edən müstəqil iqtisadiyyatı, xarici siyasəti olan Azərbaycan İkinci Qarabağ müharibəsindəki şanlı zəfəri ilə gücünə bir qədər də güc qatdı. Dünya Azərbaycanı həm də müzəffər orduya sahib ölkə kimi tanıdı. Siyasi, iqtisadi və hərbi gücün vəhdəti Azərbaycanın söz və güc sahibi kimi nüfuzunu yüksəltdi.

Bu gün elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin. Yəni İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Buna tək bir misal olaraq İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü qlobal təşəbbüsləri, mühüm təklifləri göstərmək olar. Ölkəmizin təşkilata sədrliyinin qlobal pandemiya dövrünə təsadüf etməsinə baxmayaraq, çevik və səmərəli şəkildə öz sədrlik gündəliyini yeni reallığa uyğunlaşdıran İlham Əliyev təşəbbüskarlığı, qətiyyəti və siyasi iradəsi ilə ortaya nümunə qoydu. Pandemiyanın misli görünməmiş fəsadları qarşısında dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycan qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu. Belə ki, məhz Azərbaycanın sədrliyi altında Qoşulmama Hərəkatı dünya ictimaiyyətini pandemiya ilə mübarizədə səfərbər etdi.

İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ilin mayında təşkilatın pandemiya ilə mübarizəyə həsr edilən onlayn sammiti keçirildi. Bu sammitdə Azərbaycan Prezidenti BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif dünya ictimaiyyəti tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya baş tutdu. Eyni zamanda hərəkatın sədri kimi "peyvənd millətçiliyi"nə qarşı uğurla mübarizə apardı. Azərbaycanın təşəbbüsü ilə həm BMT Baş Assambleyasında, həm də BMT-nin İnsan Hüquqları Şurasında vaksinlərin ədalətli bölüşdürülməsinə dair qətnamələr qəbul edildi.

Hazırda Azərbaycanın ən prioritet məsələsi işğaldan azad edilən ərazilərimizin bərpası, Böyük qayıdışın daha da sürətlənməsi və regionda sülhün, təhlükəsizliyin təmin olunmasıdır. Yalnız öz iqtisadi gücünə arxalanaraq, yəni heç kimdən maddi yardım almadan Qarabağ və Şərqi Zəngəzuru yenidən quran qalib Azərbaycan Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması üçün vacib addımlar atır. Lakin məğlub Ermənistanın müxtəlif iddialar irəli sürməsi hər iki tərəfə sərf edəcək sülhün təmin olunmasını gecikdirir. Təbii ki, regionda maraqları olan, bölgədən keçən qlobal eneril layihələrinin iştirakçı dövlətləri də, böyük güclər də Cənubi Qafqazda təhlükəsizliyin təmin olunmasında çox maraqlıdırlar. Bununla bağlı çoxsaylı faktlar göstərmək olar. Məsələn, ABŞ Prezidenti Cozef Baydenin İlham Əliyevə 28 May Müstəqillik Günü ilə bağlı göndərdiyi məktubda qeyd edilir ki, 30 ildən artıq bir dövrdə Azərbaycan və Amerika Birləşmiş Ştatları transmilli təhlükələrlə mübarizədən inklüziv iqtisadi inkişafa qədər möhkəm tərəfdaşlıq yaradıb. Bu tədbirlərin, habelə qanunun aliliyinin təşviqinin və Azərbaycan xalqı üçün imkanların artırılmasına yönəlmiş islahatların həyata keçirildiyi dönəmdə ABŞ Azərbaycanın yanında olacaq. Bununla yanaşı, ABŞ gələcək nəsillər üçün Cənubi Qafqazda sülhün və rifahın təşviqinə kömək göstərəcək ədalətli və dayanıqlı sülhü dəstəkləməyə davam edəcək.

Bununla əlaqədar çoxsaylı faktlar göstərmək olar. Lakin reallıq budur ki, bu gün İlham Əliyevin düşünülmüş, tam müstəqil siyasəti və uğurlu diplomatiyası ilə Azərbaycan sosial-iqtisadi inkişafda böyük nailiyyətlərə, beynəlxalq aləmdə yüksək nüfuza malik olan dövlət statusuna sahiblənib.

Hazırda Azərbaycan tərəqqi və inkişaf yolu ilə inamla irəliləyir, regional və beynəlxalq proseslərdə mühüm rol oynayır. Azərbaycan dövləti qarşıya yeni inkişaf zirvələrini fəth etmək məqsədini qoyaraq, xalqın rifahının yüksəldilməsində və dövlətin təhlükəsizliyinin möhkəmlənməsində sanballı nəticələr əldə edib.

Tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqları və uğurları güclü iqtisadiyyat, qüdrətli qövlət, müzəffər ordu, beynəlxalq arenada önəmli mövqe, uğurlu xarici siyasət və qalib ölkə statusuna sahiblənməsidir. Laçında bu rayondan olan sakinlərlə görüşündə İlham Əliyev bu uğurları dəyərləndirərkən vurğuladı ki, bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda yaratmış olduğu bu qüdrətli dövlət istənilən nəticəni əldə etməyə qadirdir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Strateji əməkdaşlıq

## Azərbaycan-İsrail münasibətlərinin təməlində tarixi bağlar, etibarlı tərəfdaşlıq və dostluq dayanır

**Dünyanın siyasi arenasında özünəməxsus yeri və çəkisi olan Azərbaycanın beynəlxalq mövqeyi hər ötən gün daha da artır. Sözü imzası qədər kəsərli olan Prezident İlham Əliyevin şəxsi nüfuzu, siyasi liderlik qabiliyyəti və müstəqil diplomatiya yürütməsi sayəsində bu gün Azərbaycan dünyada güvənilir, etibarlı tərəfdaş olaraq tanınır və ölkəmizin bir çox dövlətlə sıx əməkdaşlıq əlaqələri qurması və bu əlaqələrin dayanmadan inkişaf etdirilməsi də buna bariz nümunədir.**



Tarixən xalqlarımız arasında var olan dostluq bağlarının mövcudluğu isə Azərbaycan və İsrail dövlətləri arasında olan əlaqələri səmimi, etibarlı tərəfdaşlıq mövqeyinə yüksəldib.

O da təsadüfi deyil ki, ölkəmiz hər zaman İsraillə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına xüsusi önəm verib. Bu il Azərbaycanın Təl-Əvivdə səfirliyini açması isə ölkələrimiz arasındakı hərtərəfli əlaqələrin diplomatik müstəvidə də yüksək zirvəyə ucaldığının mühüm göstəricisi oldu.

Eyni zamanda İsrail Prezidenti İsxak Hersoqun mayın 30-da ölkəmizə səfəri İsrail-Azərbaycan əlaqələrinin inkişafına və yaxın əməkdaşlıq üçün çox əlverişli imkanlar yaratmasına daha bir təkan, mühüm vəsilə idi.

### Elə bir heyrətamiz ölkə yaratmısınız ki...

İsrail Prezidentinin ölkələrimiz arasında sıx tərəfdaşlıq əlaqələrini nümayiş etdirən bu tarixi səfəri zamanı İsxak Hersoqla geniş tərkibdə görüşü zamanı Prezident İlham Əliyev də əmin olduğunu bildirdi ki, səfər ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına böyük təkan verəcək.

Azərbaycana açıq ürəklə, millətlərimiz arasında böyük dostluqla gəldiklərini söyləyən İsrail Prezidenti dedi: "Ən əsası odur ki, Siz mərhum atanızı yetişdirən millətsiniz, sonra isə Siz onun yolunu davam etdirərək elə bir heyrətamiz ölkə yaratmısınız ki, bura bir çox məsələlərin mərkəzinə çevrilib".

"İsraillə Azərbaycan arasında tərəfdaşlıq Sizin qeyd etdiyiniz və bizim müzakirə etdiyimiz bir çox sahələrin də təməl nöqtəsidir. Düşünürəm ki, bu, bir çox səviyyələrdə xalqlarımıza mesaj göndərir", - deyən İsxak Hersoq vurğuladı ki, bu, elə bir mesaj göndərir ki, yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar, birlikdə möhtəşəm işlər görə bilərlər. İkincisi, bu, strateji münasibətdir, çünki biz sülh, rifah və inkişaf istiqamətlərində bütün regiona öz təsirimizi göstəririk.

### Aramızda heç bir fərqin, heç bir bölgünün olmadığını nümayiş etdirən fakt

Əsrlərdir Azərbaycanda sülh və dostluq şəraitində yaşayan yəhudilər və azərbaycanlılar hazırda da bu ənənəni uğurla davam etdirərək birgəyaşayışın misilsiz örnəyini göstərirlər. Azərbaycanda yaşayan yəhudilər hər zaman cəmiyyətimizin fəal hissəsi olublar və ölkəmizdə baş verən bütün məsələlərdə fəal iştirak ediblər.

Ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri kimi, yəhudilər də vətənimizin bütövlüyü uğrunda döyüşə atılaraq onu cəsurluqla qoruyublar, hətta torpaqlarımız uğrunda canlarından belə keçməkdən çəkinməyiblər. Birinci Qarabağ müharibəsində yəhudi xalqının vətənpərvər oğlu tankçı Albert Aqarunovun göstərdiyi qəhrəmanlıqlar hələ də dillərdə dastandır.

44 günlük Vətən müharibəsində də Azərbaycanda yaşayan yəhudi xalqının nümayəndələri eyni vətənpərvərliyi nümayiş etdirdilər.

Hər zaman Azərbaycan və İsrail dövlətləri arasındakı əlaqələrin inkişafında çox fəal rol oynayan Azərbaycanın yəhudi icması və əsasən Azərbaycandan olan yəhudilərdən ibarət İsraildəki Azərbaycan diasporu Vətən müharibəsi dövründə də ölkəmizin ədalətli mövqeyini müdafiə etdi, Azərbaycana dəstək mitinqləri keçirdi.

"Onlar bizim müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda bizimlə və bütün digər azlıqların nümayəndələri ilə çiyin-çiyinə vuruşublar", - deyə ölkə başçısı İlham Əliyev Prezident İsxak Hersoqla birgə mətbuata bəyanatlarla çıxışı zamanı, İsraildə yaşayan azərbaycanlıların ölkələrimiz arasında körpülərin qurulmasında mühüm rol oynadığını bildiyini söylədi: "Bizim dünya azərbaycanlılarının diaspor təşkilatları var, lakin yalnız bir ölkədə, İsraildə bu təşkilat əsasən yəhudi mənşəli insanlardan ibarətdir. Bu, aramızda heç bir fərqin, heç bir bölgünün olmadığını nümayiş etdirir".

### Hələ qarşıda çoxlu işlər görüləcək

Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olan İsrail 1993-cü ildə ölkəmizdə səfirliyini açıb və bu il dövlətlərimiz arasında qurulan uğurlu diplomatik əlaqələrin 30 illiyini qeyd edirik.

Bu gün İsrail və Azərbaycan arasında yüksək etimada, dostluq və qardaşlığa dayanan əlaqələr həm də onu bir daha sübut edir ki, ötən bu illər ərzində ölkələrimiz ikitərəfli əlaqələr istiqamətində uğurlu siyasət aparıblar və münasibətlərimizi etibarlı tərəfdaşlığa çatdırıblar.

İsraillə Azərbaycan arasında olan ticarət dövriyyəsi 1,7 milyard ABŞ dollarından çoxdur ki, bu, olduqca böyük məbləğdir. Həmçinin Azərbaycanın İsraillə irriqasiya və kənd təsərrüfatı, kibertəhlükəsizlik, müdafiə sənayesi və sair sahələrdə uğurlu əməkdaşlıqları var və bu sahələrdəki əməkdaşlıqların daha da inkişaf etdirilməsi planlaşdırılır.

Dövlətlərimiz arasındakı bu nümunəvi əlaqələr heç şübhəsiz iki ölkə rəhbəri arasında olan xoş münasibətlərə dayanaraq daha da irəliləyib və özünün ən parlaq dövrünə qədəm qoyub.

Prezident İlham Əliyevin mayın 30-da İsrail Prezidenti İsxak Hersoqla geniş tərkibdə görüşü zamanı qeyd etdiyi kimi, hələ qarşıda ölkələrimizi daha da uğurlu nailiyyətlər və işlər gözləyir: "Biz səfərdən sonra müsbət dinamikanı görəcəyik. Çünki mən tamamilə əminəm, böyük potensial mövcuddur, baxmayaraq ki, biz ayrı-ayrı istiqamətlər, ticarət, enerji, təhlükəsizlik sahələri üzrə artıq çoxlu işlər görmüşük. Lakin hələ çoxlu işlər görülməlidir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Hayastan borc içində çabalayır

## İş yerlərinin bağlanması, artan inflyasiya əhalinin ölkədən yeni köçünə rəvac verib

**2023-cü ilin ötən 5 ayında Hayastan iqtisadiyyatında qeydə alınan tənəzzül daha da sürətlənib. Bunun əvəzində ölkənin xaricdən maliyyə asılılığı sürətlə artıb. Üstəlik Ermənistanın dövlət borcu artıq 11 milyard ABŞ dollarına çatıb. Yerli hökumət cari ilin yanvarından iyulunadək ölkənin dövlət borcunu daha 1 milyard dollar artırıb.**

2023-cü ilin birinci rübündə Hayastanın dövlət büdcəsinin xərcləri 422,7 milyard dram və ya planlaşdırılan göstəricinin 76,5 faizini təşkil edib. Hayastan Əmək və Sosial Məsələlər Nazirliyinin və Müdafiə Nazirliyinin məsuliyyəti altında həyata keçirilən proqramlar dövlət büdcəsinin faktiki xərclərində ən böyük paya malik olub - müvafiq olaraq 38,6 və 14,1 faiz təşkil edib. 2022-ci ilin birinci rübü ilə müqayisədə Hayastanın dövlət büdcəsinin xərcləri 6,5 faiz və ya 25,9 milyard dram artıb.

"4rd.am" nəşri yazıb ki, borc məbləğinin artmasının səbəbi Hayastanın ötən il iqtisadi böhrandan tam çıxa bilməməsi və iqtisadiyyatı stimullaşdırmaq üçün əlavə tədbirlərə ehtiyacın olmasıdır. Dünyanın bütün ölkələrinin dövlət borcu var. Problem bunda yox, onun sürətli artım tempində və vəsaitlərdən effektiv istifadədədir. Xüsusi halda cari ilin 5 ayı ərzində hökumət dövlət borcunu 2,5 faiz artırıb, halbuki 2022-ci ilin yanvar-iyulunda Ermənistanda iqtisadi fəallıq 5,2 faiz təşkil etmişdi. Hazırda Ermənistanın hər bir vətəndaşına 3 min ABŞ dollarından çox məbləğdə borc düşür.

Bu vəziyyətdə iş yerlərinin bağlanması, artan inflyasiya əhalinin ölkədən yeni köçünə rəvac verib. Məhz belə bir vaxtda aparılan hesablamalar göstərir ki, bu ilin yanvar-may aylarında Ermənistanda əhalinin təbii artımı 1000 nəfərə çatmır.

Bundan başqa, təbii artımın azalmasına ermənilərin kütləvi şəkildə ölkəni tərk etməsi də ciddi təsir göstərir. 2018-2022-ci illərdə və bu ilin yanvar-may aylarında təxminən 100 mindən çox erməni Rusiya vətəndaşlığını qəbul edib. Onlardan 20 mindən çoxu bu ilin yanvar-iyun aylarının payına düşür.

Miqrasiya prosesi təkcə Rusiya ilə məhdudlaşmır. Əsasən reproduktiv yaşda olan kişilər və qadınlar da daxil olmaqla, daha çox gənc ailələr ölkəni tərk edirlər. Bu da qısa müddətdə ölkənin demoqrafiyasında mənfi nəticələrə gətirib çıxarıb. "4rd.am" portalı yazır: "Miqrasiya sahəsində ötənilki rekordun bu il artacağı tamamilə mümkündür. Emiqrasiya prosesinin yalnız Rusiya ilə məhdudlaşmadığı məlumdur. Həm də aydındır ki, reproduktiv yaşda kişilər və qadınlar da daxil olmaqla, əsasən gənc ailələr mühacirət edirlər. Bu, artıq qısa müddətdə ölkənin demoqrafiyasını aradan qaldırıla bilməyən mənfi nəticələrlə təhdid edir".

Ölkədə ötən illərə nisbətən xeyli pisləşən sosial-iqtisadi vəziyyət, yaxın perspektivdə həlli görünməyən siyasi böhran əhalinin gələcəklə bağlı bütün ümidlərini məhv edib. Elə bu səbəbdən həyatını Hayastandan kənarda davam etdirmək istəyənlərin sayı artır. Rəsmi rəqəmlərə əsasən, Hayastanda əhalinin sayı 2,9 milyon nəfərdir. Lakin ermənilərin özləri etiraf edir ki, reallıqda bu göstərici xeyli azdır. Çünki rəsmi qeydiyyatda olan əhalinin tərkibinə xaricdə yaşayan, ancaq Hayastan vətəndaşlığından çıxarılmayan şəxslər də daxildir. Hökumətin demoqrafiya probleminin həlli üçün həyata keçirdiyi siyasət, o cümlədən əhali artımını stimullaşdırmaq üçün elan etdiyi proqramlar faktiki olaraq iflasa uğrayıb.

Bu səbəbdəndir ki, qeyd etdiyimiz kimi, ölkəni tərk edənlərin sayı hər il artır. Erməni ekspert Manvel Naumyan bildirir ki, ölkəni tərk edənlərin 1,1-1,2 milyonu Rusiyaya, 150 mini ABŞ-yə, 120-150 mini Avropaya, digərləri MDB-nin müxtəlif ölkələrinə və digər dövlətlərə köçüb: "Kütləvi mühacirət 1992-1994-cü illərdə qeydə alınıb. Son 3 il ərzində təxminən 600 min vətəndaş və ya o dövrdə əhalinin 16 faizi Hayastanı geri dönməmək şərti ilə tərk edib. 1995-2001-ci illər ərzində Ermənistandan təqribən 250 min nəfər, ildə orta hesabla 40-45 min insan mühacirət edib".

Bütün bunlar Hayastanın sürətlə məhvə yaxınlaşdığını bir daha təsdiqləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



Azərbaycanın QURTULUŞ salnaməsi:
Heydər Əliyevdən İlham Əliyevə
30

# Heydər Əliyev ideyaları regional

*Əvvəli 1-ci səh.*

1969-cu ildən sonra Azərbaycanda geniş tikinti-quruculuq işlərinə start verilmiş, ümumi sahəsi 22 milyon kvadratmetr olan mənzillər inşa edilmişdi. Yeni iş yerlərinin açılması nəticəsində iqtisadiyyatda işləyənlərin ümumi sayı 1985-ci ildə 2,4 milyon nəfərə çatmışdı. Bu, 1970-ci ilin müvafiq dövründən 2 dəfə çox idi.

Həmin dövrdə kənd təsərrüfatının inkişafı sahəsində böyük işlər görüldü. Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərin əvvəllərində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində qısa müddət ərzində şoran torpaqlar əsl məhsuldar torpaqlara çevrilmiş, taxıl, üzüm, pambıq, meyvə-tərəvəz istehsalı əhəmiyyətli şəkildə artmışdır.

"Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır", - deyən Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə təhsil, səhiyyə, mədəniyyət, incəsənət və milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı sahəsində böyük və əhəmiyyətli addımlar atıldı. Bu istiqamətdə aparılan ardıcıl və məqsədyönlü dövlət siyasəti Azərbaycan əhalisinin təhsil, mədəni və intellektual səviyyəsinin yüksəldilməsində mühüm rol oynadı. 1969-1982-ci illərdə 770-ə qədər məktəb binası istifadəyə verilmiş, respublikada ali məktəblərin sayı 12-dən 17-yə, təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatdırılmışdır.

Ümummilli Liderin hələ sovet dövründə respublikamız üçün milli hərbi kadrların hazırlanması sahəsində atdığı uzaqgörən addımların ölkəmizin Ermənistanın təcavüzünə məruz qaldığı zamanda necə misilsiz əhəmiyyət daşıdığının bir daha şahidi olduq. Bu, bir həqiqətdir ki, sovet dövlətində bütün sahələr kimi, ordu quruculuğu prosesi də məlum siyasi ideoloji prinsiplərə əsaslanırdı. Rəsmi Moskva milli respublikalarda milli hərbi kadrların hazırlanmasını bir qayda olaraq qısqanclıqla qarşılayır və buna mane olurdu. Ulu Öndər Heydər Əliyev 1973-cü ildə böyük səylər nəticəsində belə bir məktəbin yaradılmasına nail olmuşdu. Beləliklə, Heydər Əliyev 1969-1982-ci illərdə Sovet İttifaqı çərçivəsində perspektiv müstəqil Azərbaycan dövləti üçün xidmət edə biləcək bütün zəruri addımları atmışdı.

1982-ci ildə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Heydər Əliyev Moskvada yaşadığı və işlədiyi dövrdə də Azərbaycana diqqət və qayğısını əsirgəmir, respublikamızın ictimai, mədəni həyatı ilə daim maraqlanırdı. Moskvada yaşayan azərbaycanlılarla, eləcə də vaxtilə şəxsən özünün buraya ali məktəblərdə təhsil almağa göndərdiyi azərbaycanlı tələbələrlə görüşür, onların problemlərinin həllinə kömək edirdi.

Heydər Əliyevin mərkəzi hakimiyyətdə yüksək vəzifə tutması ermənilərin Azərbaycanla bağlı avantürist planlarının həyata keçməsinə mane olurdu. Heydər Əliyev Qorbaçov-erməni qruplaşmasına qətiyyən sərf etmirdi və onların hədəfi Azərbaycanın böyük oğlunu bu vəzifədən uzaqlaşdırmaq idi. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun siyasi xəttinə etiraz əlaməti olaraq Heydər Əliyev 1987-ci il oktyabrın 21-də tutduğu vəzifədən istefa verdi.

XX əsrin sonunda SSRİ rəhbərliyinin imperiya siyasətinə etiraz əlaməti olaraq, Azərbaycan xalqı azadlıq hərəkatına qalxdı. Xalqımızın müstəqillik əzmini qırmaq üçün 1990-cı ilin yanvarında Bakıya qoşun yeridildi və qanlı qırğın törədildi. Azərbaycan xalqının taleyinə biganə qala bilməyən Heydər Əliyev özünün və ailə üzvlərinin həyatının təhlükədə olmasına baxmayaraq, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet qoşunlarının Bakıda törətdiyi qırğınla bağlı bəyanat verdi.





1993-cü ildə Azərbaycan xalqı qətiyyətlə ayağa qalxaraq dünyanın ən böyük siyasət adamını hakimiyyətə gətirdi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. 15 İyun günü Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. 1993-cü il iyunun 24-də Milli Məclisin qərarı ilə Heydər Əliyev Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrasına başladı. 1993-cü il oktyabrın 3-də keçirilən seçkilərdə böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev qısa müddətdə xaos və anarxiyaya son qoyulmasına, ictimai-siyasi sabitliyin bərpa edilməsi istiqamətində gərgin fəaliyyətə başladı.

Ötən illərdə Ümummilli Liderimizin həyata keçirdiyi şərəfli xilaskarlıq missiyası xalqımızın və bütün dünyanın gözü qarşısında cərəyan etmiş, Azərbaycan məhv olmaq təhlükəsindən qurtarmış və gələcəyə inamla baxan güclü bir dövlətə çevrilmişdir. Bu illərdə Heydər Əliyevin gərgin zəhməti, əzmi və siyasi iradəsi sayəsində həyata keçirilən nəhəng işlər miqyasına görə insanı heyrətə gətirir. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında dönüş yarandı. Elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlət çevrilişləri cəhdinin qarşısı alındı. Dövlət müstəqilliyi qorunub saxlanıldı. Silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu. Dövlətin xarici siyasəti milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Milli Ordu quruculuğunda ciddi dəyişikliklər başlandı.

Heydər Əliyev təkcə düzgün daxili siyasət kursunu deyil, həm də uğurlu xarici siyasət strategiyasını qurdu. Balanslı və çoxvektorlu xarici siyasət kursu kimi xarakterizə olunan bu siyasətin prioritet istiqamətlərindən birini də "yeni neft diplomatiyası" təşkil edirdi. Azərbaycanın yeni enerji strategiyasının memarı Ümummilli Lider Heydər Əliyevin ötən əsrin 90-cı illərində müəllifi olduğu iki siyasi qərar ölkəmizin neft-qaz siyasətinin formalaşmasında həlledici əhəmiyyətə malik oldu. Ölkədə aparılan uğurlu daxili siyasət nəticəsində irimiqyaslı beynəlxalq sənədlərin işlənib hazırlanması və həyata keçirilməsinin əsası qoyuldu. 1994-cü ilin sentyabrında Bakıda "Əsrin müqaviləsi" adını almış neft müqaviləsi imzalandı. Bu müqavilə ölkəmizin dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi. Azərbaycan artıq bütün dünyada neft ölkəsi kimi tanınmağa başladı.

Ulu Öndər Heydər Əliyev 1993-2003-cü illərdə Azərbaycanın sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə yeni inkişaf strategiyasının təməlini qoydu. İqtisadiyyatın bütün sahələrində aparılan düzgün və səmərəli siyasət nəticəsində ölkədə ümumi daxili məhsul 1996-2002-ci illərdə 71 faiz artaraq, 2002-ci ildə 6 milyard manata çatdı, MDB məkanında ilk dəfə olaraq aqrar sahənin inkişafı istiqamətində ciddi islahatlar həyata keçirildi.

Bu gün Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Ulu Öndərdən "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. O, Azərbaycanın çağdaş tarixinə yeni missiya ilə daxil olmuşdur. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan özünün milli dövlət idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Son illərdə imzalanmış məqsədyönlü fərman və sərəncamlar, qəbul edilmiş qərarlar, görülən nəhəng işlər ölkəmizin dinamik yüksəlişini təmin etmiş, Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmişdir. Qəhrəman ordumuzun zəfər yürüşü işğal edilmiş torpaqlarımızın, xüsusən də xalqımızın ləyaqət simvolu olan Şuşanın düşməndən azad edilməsi ilə nəticələnmişdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Şuşanın işğadan azad edilməsi münasibətilə Azərbaycan xalqına müraciətində demişdir: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan!"

Ümummilli Liderin miras qoyduğu irsin öyrənilməsində, təbliğ olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin qazandığı ümummilli etimad və beynəlxalq dəstək Heydər Əliyev siyasi irsinin böyük qələbəsi, ölkəmizin isə uğurlu gələcəyinin qarantıdır. Nə qədər ki, Azərbaycan var, Heydər Əliyev də olacaq, onun ideya və əməlləri yaşayacaq, bizi daim doğru yola, irəliyə aparacaqdır.

*Azərbaycan tarixinin mühüm siyasi hadisələrindən biri sayılan Xalqımızın Milli Qurtuluş Gününün 30 illiyi ərəfəsində olduğunu xatırladan Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru **Bəxtiyar SADIQOV** dedi ki, Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyət sükanının arxasına keçməsi müstəqilliyimizin dönüş nöqtəsi oldu. Əgər Ulu Öndər Heydər Əliyev özünün siyasi uzaqgörənliyi və təcrübəsi ilə həmin böhranlı zamanda proseslərə müdaxilə etməsəydi, xalqımızın, dövlətçiliyimizin daha dəhşətli, faciəli aqibətlə üzləşəcəyi qaçılmaz idi:*

- Milli Qurtuluş Gününün 30-cu ildönümünü "Heydər Əliyev İli"ndə qarşılayırıq. Hesab edirəm ki, bunun özünün bir rəmzi mənası var. 2023-cü ilin Prezident İlham Əliyevin sərəncamı ilə "Heydər Əliyev İli" elan edilməsi xalqımızın yekdil razılığı ilə qarşılanan ictimai-siyasi hadisədir. "Heydər Əliyev İli" çərçivəsində keçirilən hər bir tədbir əbədiyaşar öndərimizin dövlətçilik fəaliyyətinə bir daha nəzər salınması, onun ideyalarının təbliği və gənc nəsillərə ötürülməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Möhtərəm Prezidentimiz İlham Əliyevin mayın 10-da Şuşadan xalqımıza etdiyi müraciətində dediyi kimi, biz bu yubiley tədbirlərindən gələcəyə baxışı daha da dəqiqləşdirmək üçün istifadə etməliyik.

Azərbaycanın müasir tarixinin ən böyük həqiqətlərindən biri budur ki, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə respublikamız inkişaf edib, xalqımızın rifahı yüksəlib. Ulu Öndərin ilk dəfə rəhbərliyə başladığı dövrdə inkişaf səviyyəsinə görə ittifaq miqyasında 14-cü mövqedə olan Azərbaycan artıq bir neçə ildən sonra Rusiya, Belarus, Ukrayna ilə bir cərgəyə yüksəlmişdi. Azərbaycanı nəinki ittifaq miqyasında, onun hüdudlarından kənarda da tanıyırdılar. Heydər Əliyev həm ölkəni inkişaf etdirirdi, həm azərbaycanlıların idarəçilikdə daha mükəmməl iştirakı üçün gənclərimizi oxumaq üçün nüfuzlu ali məktəblərə göndərirdi. Heydər Əliyev tərəfindən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması hər zaman Ulu Öndərin xalqımız qarşısındakı tarixi xidmətlərinin möhtəşəm nümunəsi kimi daim xatırlanacaq.

Ümumiyyətlə, Heydər Əliyev Azərbaycana rəhbərlik timsalında xalqa xidmət arzusunu reallaşdırmaq, şanlı missiyasını gerçəkləşdirmək üçün fəaliyyət meydanı tapmışdı. Azərbaycan isə sədaqətli övladının simasında qurucusunu, qoruyucusunu, onu daim sevən və ucaldan övladını kəşf etmişdi. Heydər Əliyev və Azərbaycan sanki bir-biri üçün yaranmışdı.

Bu baxımdan ötən əsrin 80-ci illərindən sonra respublikamızda cərəyan edən proseslər göstərir ki, xalqımızın narahatlıq dolu günləri Heydər Əliyevin siyasi rəhbərlikdə təmsil olunmadığı vaxtlarda başlayıb. Bundan istifadə edən ermənilər 1988-ci ilin əvvəllərindən etibarən açıq şəkildə Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməyə başladılar. 20 Yanvar faciəsinin baş verməsi də bu proseslərin davamı idi. Azərbaycanın ovaxtkı rəhbərliyi isə tamamilə antimilli olduğundan xalqın, respublikanın maraqlarını müdafiə edə bilmək imkanlarından uzaq idi.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda cərəyan edən proseslər də ilk növbədə siyasi lider problemini qabarıq şəkildə ortaya qoyurdu. Təsadüfi deyil ki, müstəqillik dövrünün ən faciəli hadisələri Mütəllibov hakimiyyətinin, AXC-Müsavat qaragüruhunun iqtidarı dövründə baş verdi. Ermənistanla müharibə vəziyyətində olan respublikamızda nizami ordu yaradılmamışdı, vahid komandanlıq yox idi, silahlı dəstələr müəyyən qüvvələrin ambisiyalarına xidmət edirdilər. Xocalı soyqırımı, Laçının, Şuşanın işğalı dərin mənəvi sarsıntıya səbəb olmuşdu. Bu hakimiyyətlərin idarəçilikdə buraxdıqları kobud səhvlərin nəticəsi idi ki, Azərbaycan 1993-cü ilin ortalarına doğru nəinki parçalanmaq, hətta müstəqilliyini, dövlətçiliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı.

30 il əvvəl baş verənləri yəqin ki, bu konfransın orta və yaşlı iştirakçıları yaxşı xatırlayırlar. Bir tərəfdən torpaqlarımız işğal edilir, digər tərəfdən separatçılıq baş alıb gedirdi. Dövlət idarəetmə aparatı tam çökmüşdü və hakimiyyətsizlik fonunda ölkənin hər yerində xaos və anarxiya hökm sürürdü. Gəncədə baş verən qardaş qırğını isə bütün bu ağrılı proseslərin kulminasiya nöqtəsi idi.

Öz xalqının iztirablarına dözməyən, israrlı çağırışlara biganə qala bilməyən Heydər Əliyev Gəncə hadisələrindən bir neçə gün sonra - 1993-cü il iyun ayının 9-da Naxçıvandan Bakıya gəldi. Heydər Əliyevi Bakıya, siyasi idarəçiliyə dəvət edən həm də elə ozamankı iqtidar idi. Başda Əbülfəz Elçibəy olmaqla bütün AXC-Müsavat qaragüruhu da anlayırdı ki, ölkəni bu vəziyyətdən yalnız Heydər Əliyev kimi böyük siyasət nəhəngi xilas edə bilər. Bu, həmin qaragüruh idi ki, bundan bir neçə ay əvvəl Heydər Əliyevə qarşı Naxçıvanda təxribat törətməyə cəhd etmişdi. Ulu Öndərin bir şəxsiyyət kimi ucalığı həm də o idi ki, AXC-Müsavat cütlüyünün ona qarşı davamlı şəkildə törətdiyi təxribatlara rəğmən öz xalqına yardım etməyə, xilaskarlıq missiyasını yerinə yetirməyə tələsdi. Ulu Öndər Heydər Əliyev sonralar həmin vaxtları xatırlayaraq deyirdi: "1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı, ovaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi, qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək, məni Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən ovaxtkı iqtidar belə bir zamanda əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri, ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər".

Bir məsələni də qeyd etməliyik ki, xüsusən 1993-cü ilin 4 iyun hadisələri ərəfəsində və ondan sonra respublikada hər hansı dövlət vəzifəsinin məsuliyyətini öz üzərinə götürmək hər kəsdən böyük risk, qətiyyət və hünər tələb edirdi. Heydər Əliyev isə Naxçıvandan özü ilə heç nə gətirməmişdi. Nə ordusu var idi, nə silahı. Ulu Öndər bütün məsələlərdə görkəmli dövlət xadimi kimi özünün zəngin siyasi və idarəçilik təcrübəsinə və xalqın ona olan dərin sevgisinə arxalanırdı. Elə özünün möhtəşəm siyasi təcrübəsi sayəsində Heydər Əliyev Gəncədə baş vermiş qardaş qırğınının davam etməsinin qarşısını müdrikcəsinə aldı.

Ulu Öndər Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri vəzifəsinə seçilməsi isə bir daha Azərbaycanın bütün siyasi qruplarının bu böyük şəxsiyyətə olan inamının göstəricisi idi. Həmin gün parlamentin tarixi iclasında Heydər Əliyev çıxış edərək Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özünün əsas vəzifələrindən biri hesab etdiyini bildirdi. Ulu Öndər bəyan etdi ki, ömrünün sonrakı hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəkdir.

Heydər Əliyevin Ali Sovetin sədri seçilməsi ilə Azərbaycanda tamamilə yeni proseslər başladı. İlk növbədə respublikamızın müstəqilliyini qəbul etmək istəməyən, Azərbaycanın parçalanmasını hədəfləyən bütün xarici dairələrin planları iflasa uğradı. Heydər Əliyev tədricən ölkədəki anarxiyanı, xaosu aradan qaldırdı, hakimiyyətsizliyə son qoydu, separatizmin qarşısını aldı. Beləliklə, Ulu Öndər öz tarixi missiyası ilə müstəqilliyimizi və dövlətçiliyimizi labüd təhlükələrdən xilas etdi. Məhz bunlara görə 15 İyun tarixi Azərbaycanda təqvimə Milli Qurtuluş Günü kimi daxil oldu. Azərbaycan Respublikasının Milli Məclisi Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı gününü 1997-ci il 27 iyun tarixli qərarı ilə rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi.

Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə başladığı xilaskarlıq missiyasını uğurla başa çatdırdı, Azərbaycanın dövlətçiliyinin və müstəqilliyinin əbədi olmasını təmin etdi. Özünün dediyi kimi, ömrünün qalan hissəsini xalqına bağışlayan Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 10 ildə respublikamızın dünyada yerini möhkəmləndirdi, sosial-iqtisadi inkişaf yoluna çıxardı. Ən əsası, tarixinin ən qüdrətli Azərbaycanının və böyük zəfərin təməlini qoydu.

Heydər Əliyev Azərbaycanın müstəqilliyini, gələcək inkişafını təmin edən təkmil siyasi kursun müəllifi olmaqla yanaşı, həm də özünün siyasi davamçısını yetişdirdi. Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tarixinin ən qüdrətli dövlətinə çevrilməsi Heydər Əliyevin dövlət və xalq qarşısındakı böyük xidmətləri sırasında yer alır. Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 ilə yaxın müddətdə Azərbaycan olduqca möhtəşəm inkişaf yolu keçib, regionda lider dövlətə, dünyada söz sahibinə çevrilib. Bu gün Azərbaycan kosmik klubun üzvüdür, qlobal enerji təhlükəsizliyində özünün xüsusi yeri olan dövlətdir. Bütün bunlar göstərir ki, Heydər Əliyev siyasi kursu layiqincə davam etdirilir, Ulu Öndərin ideyaları xalqımızın rifahının yüksəlməsinə, dövlətimizin inkişafına uğurla xidmət edir.

May ayının 10-da Şuşadan xalqa müraciətində Prezident İlham Əliyev dedi ki, Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasını təmin etməklə möhtərəm İlham Əliyev Ulu Öndər Heydər Əliyevin arzusunu çin etdi. Bu savaşdakı zəfərlə Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın son beş əsrlik tarixində ən böyük hərbi missiyanı həyata keçirdi. İlk dəfə olaraq məhz İlham Əliyevin rəhbərliyi ilə xalqımız itirdiyi torpaqları geri qaytardı.

Vətən müharibəsindəki qələbə bu gün dinc quruculuq meydanında davam edir. Azad edilmiş torpaqlar sürətlə yenidən qurulur, onlara yeni həyat verilir və bütün bunlar bir daha dövlətimizin qüdrətini, Prezident İlham Əliyevin qətiyyətini dünyaya nümayiş etdirir.

Bu gün Azərbaycanın müstəqil dövlət kimi bütün uğurları öz başlanğıcını məhz Milli Qurtuluşdan götürür. 30 il əvvəl təsəvvür belə edə bilməzdik ki, vaxt gələcək, Azərbaycan öz tarixinin ən qüdrətli dövlətinə çevriləcək, dünyada sayılıb-seçilən ölkələrdən olacaq. Azərbaycanın bu uğurları həm də onun təsdiqidir ki, Heydər Əliyev siyasi kursu bu günümüzün və gələcəyimizin etibarlı təminatıdır. Bütün bunlara görə xalqımız hər zaman Ulu Öndər Heydər Əliyevə və onun layiqli siyasi davamçısı möhtərəm İlham Əliyevə minnətdar olacaq.

*Hər bir xalqın tarixində yeni parlaq səhifə açan, ən taleyüklü məqamlarda xalqı arxasınca aparan, xilaskar rolunu oynayan, xalqın yaddaşında əbədi iz qoyan dahi insanların olduğunu söyləyən Yeni Azərbaycan Partiyası Şəki rayon təşkilatının sədri **Daşqın MİKAYILOV** qeyd etdi ki, həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş Heydər Əliyev dahi şəxsiyyətlərdəndir:*




- Dünya səviyyəli siyasi xadim, böyük şəxsiyyət, müdrik dövlət adamı, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə silinməz izlər qoymuş, müstəsna xidmətləri ilə əbədilik qazanmışdır. XX əsrin 60-cı illərində SSRİ-nin tərkibində olan Azərbaycan demək olar ki, bütün sahələrdə tənəzzül dövrünü yaşayırdı. Ulu Öndər Heydər Əliyev 1969-cu il iyul ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra bütün sahələrdə sürətli yüksəliş, inkişaf və tərəqqi baş verdi.

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Şəki rayonunun inkişafında da Ulu Öndər Heydər Əliyevin böyük əməyi olmuşdur. Heydər Əliyev siyasi fəaliyyəti dövründə iki dəfə 1974-cü və 2002-ci ildə Şəki şəhərinə səfər etmişdir. Ulu Öndərlə keçirilən görüşlər şəkililərin qəlbində silinməz izlər buraxmışdır.

Ulu Öndər Heydər Əliyev ilk dəfə 1974-cü il iyulun 5-də Şəkiyə səfər etmiş, ümumrespublika müşavirəsi keçirmişdir.



Azərbaycanın QURTULUŞ salnaməsi:
Heydər Əliyevdən İlham Əliyevə
30

# inkişafın əsas istinadgahıdır





Həmin vaxtdan başlayaraq rayonda köklü dəyişikliklər baş vermiş, Şəkinin sel sularından mühafizəsi üçün bəndlərin, Kiş çayı üzərində nəhəng körpünün və Əyriçay su anbarının tikintisinə başlanılmış, Daşüz Atçılıq İdman Mərkəzi istifadəyə verilmiş, konserv zavodu tikilmişdir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətdə olduğu 1969-1982-ci illərdə respublikada qazanılan uğurlar Şəkinin də iqtisadi və mədəni həyatına əhəmiyyətli şəkildə təsir göstərmiş, Şəki üzrə ümumi məhsul istehsalının və satışının, eyni zamanda sənaye müəssisələrində istehsalın həcmi artmışdır. O zaman nəinki Azərbaycanın, eləcə də Yaxın və Orta Şərqin ən böyük ipək istehsalçısı və toxuculuq mərkəzlərindən biri hesab edilən Şəkidə həmin müddətdə ipəkçiliyin inkişafı xüsusilə geniş vüsət almış və məhz Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə - 1975-ci ildə şəhərin bütün ipək müəssisələrini özündə birləşdirən, 7 min nəfərə yaxın daimi işçi çalışan Şəki İpək İstehsalat Birliyi yaradılmışdır. Şəki İpək İstehsalat Birliyi SSRİ-nin 75 müəssisəsinə ipək parça, 84 müəssisəsinə isə ipək sap göndərir, Şəki ipəyindən hazırlanan parçalar Yaponiya, İsveçrə, İtaliya və digər xarici ölkələrə ixrac olunurdu.

1975-1980-ci illərdə Şəkidə əsaslı tikintinin genişləndirilməsi sahəsində də bir şox işlər görülmüş, çoxmənzilli yaşayış binaları, avtomobil məktəbi, avtobaza, sutəmizləyici stansiya tikilmiş, Şəki İpək İstehsalat Birliyində boyaq-bəzək istehsalatı genişlənmişdir.

Bunlarla yanaşı, həmin dövrdə nəqliyyat xidmətləri inkişaf etmiş, mənzillər qazla təmin edilmiş, ticarət sahəsi genişləndirilmiş, tarixi mədəni irsin qorunub saxlanması istiqamətində mühüm işlər görülmüş, məktəblər, uşaq bağçaları, toxuculuq, tibb, pedaqoji və kənd təsərrüfatı texnikumları, texniki peşə məktəbləri və internatlar fəaliyyət göstərmiş, mərkəzi rayon xəstəxanasının uroloji, reanimasiya şöbələri açılmış, qadın məsləhətxanası yeni binaya köçürülmüş, tibb işçilərinin sayı artmışdır. 1975-ci il aprelin 15-də Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının açılışı ilə bağlı qərar qəbul olunmuş, 1976-cı ildə teatr fəaliyyətə başlamışdır.

1993-cü ildə hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və yenicə bərpa edilmiş dövlət müstəqilliyinin itirilməsi təhlükəsi yarandıqda yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onun hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur oldular.

Ümummilli Liderimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra bütün sahələrə olduğu kimi, ipəkçiliyə olan münasibət kökündən dəyişmiş, ipək sənayesinin bərpası istiqamətində zəruri işlər görülmüşdür. Ulu Öndərin 2001-ci ildə fəaliyyəti dayanmış "Şəki-ipək" ASC-ni işə salmaq məqsədilə imzaladığı müvafiq sərəncamla dövlət büdcəsindən xeyli miqdarda vəsait ayrılmış və həmin ildən müəssisənin fəaliyyəti bərpa olunmuşdur.

Ulu Öndər Heydər Əliyev 2002-ci ilin noyabr ayında növbəti dəfə Şəkidə səfərdə olmuş, Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak etmiş, "Şəki-İpək" Açıq Tipli Səhmdar Cəmiyyətinə və ölkəmizin məşhur memarlıq abidələrindən olan Şəki Xan Sarayına baxış keçirmiş, Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrının qarşısındakı meydanda sakinlərlə görüşmüş, şəhər icra hakimiyyətində geniş müşavirə keçirmişdir.

Bu gün əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli maraqlara əsaslanan siyasət onun siyasi varisi və layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla icra edilir. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını artırır, Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna əminlik yaradır. Azərbaycan xalqının Ümummilli Lideri, müdrik rəhbər, böyük siyasi xadim, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi qədirbilən xalqımızın qəlbində əbədi yaşayacaqdır.

*Şəki Xalq Tətbiqi Sənəti Muzeyinin direktoru **İradə ABDULLAZADƏ** qeyd etdi ki, Ümummilli Liderimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu kimi hər bir azərbaycanlının taleyində müstəsna rol oynamışdır. Bu böyük şəxsiyyətin zəngin irsinin öyrənilməsi və yaşadılması müstəsna əhəmiyyətə malikdir:*




- Ulu Öndər Heydər Əliyevin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılan Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti ölkəmizdə, eləcə də ölkə hüdudlarından kənarda yüksək qiymətləndirilir və böyük rəğbətlə qarşılanır.

Heydər Əliyev Fondu xeyirxahlıq, sülh, insanpərvərlik kimi bəşəri amallar uğrunda nəcib fəaliyyəti ilə ölkədə həyata keçirilən çoxşaxəli islahatlara dəyərli töhfələr verir, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməklə xalqımızın Heydər Əliyevə olan sevgisini daha da gücləndirir.

Heydər Əliyev Fondu dövlət tərəfindən regionların inkişafına yönəlmiş tədbirlərə geniş dəstək göstərir. Şəki şəhərində də fondun təşəbbüsü və dəstəyi ilə layihələr reallaşdırılmışdır, təhsil ocaqları - məktəblər, uşaq bağçaları tikilib istifadəyə verilmişdir. Uşaqlara, xüsusilə xəstə və kimsəsizlərə diqqət və qayğı Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biridir. Təhsil və uşaq müəssisələrinin maddi-texniki bazasının təkmilləşdirilməsi, uşaq evlərində böyüyənlərin gələcəyi, sağlamlıq imkanları məhdud və kimsəsiz uşaqların sağlamlıqlarının qorunması ilə bağlı Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən tədbirlər çərçivəsində Şəki şəhərində qarışıq tipli uşaq evi üçün yeni bina inşa olunmuşdur. Uşaq evinin yerləşdiyi bina qəzalı vəziyyətdə idi və mövcud infrastruktur rahat məskunlaşmaya imkan vermədiyindən burada uşaqlara lazımi səviyyədə xidmət göstərmək çətin idi. Heydər Əliyev Fondunun nümayəndələri binanın mövcud şəraiti ilə tanış olduqdan sonra, uşaq evində məskunlaşanların yaşayış şəraitinin, təlim-tərbiyə və asudə vaxtlarının təşkilinin yaxşılaşdırılması məqsədi ilə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, yeni bina inşa edilərək istifadəyə verilmişdir. 2018-ci ildə Şəkiyə səfərləri zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni binanın açılışında iştirak etmişlər.

Heydər Əliyev Fondu tərəfindən Şəki şəhərində həyata keçirilən layihələrdən biri də Şəki Xan Məscidi Kompleksinin bərpa olunmasıdır. 2022-ci il dekabr ayının 2-də Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şəki Xan Məscidi Kompleksində aparılmış bərpa işləri ilə tanış olmuşlar və kompleksin açılışını etmişlər.

Ölkə əhəmiyyətli abidələrin siyahısında olan, xanlıqlar dövrünə aid edilən Xan məscidində bərpa işlərinə Heydər Əliyev Fondu tərəfindən 2021-ci ilin may ayında başlanılmışdır. Bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar olunan və Şəki xan nəslinə aid olduğu ehtimal olunan skelet nümunələri üzrə tədqiqatların aparılmasına da fond tərəfindən dəstək göstərilmişdir.

Şəki Xan Məscidi Kompleksinin ərazisində Heydər Əliyev Fondunun dəstəyi ilə muzey də yaradılmışdır. Muzeydə Şəki xanlığı dövrünə aid fərqli eksponatlar, müxtəlif mənbələrdən toplanan maddi-mədəniyyət nümunələri təqdim olunur. Muzey əyani şəkildə Şəki xanlığının yaranmasının, formalaşmasının milli dövlətçilik tariximizdə xüsusi yerini nümayiş etdirir.

Bu gün toplaşdığımız bu gözəl mərkəz isə Ümummilli Liderin xatirəsinə dərin ehtiramın parlaq nümunəsidir. Mərkəzdə Ulu Öndərin mənalı həyatı və çoxşaxəli fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb. Mərkəz Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin təbliği, Ulu Öndərin irsinin öyrənilməsi və tədqiqi baxımından mühüm əhəmiyyət daşıyır.

Bütün bu qeyd olunanlara əsaslanaraq əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin zəngin irsi doğma Şəkimizdə layiqincə yaşadılır. Mənalı ömrünü öz xalqına həsr etmiş Ulu Öndərin siyasi irsi dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Ümummilli Liderin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə bundan sonra da faydalanacaqdır.

*Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan mayor **Mehman ƏBDÜRƏYİMOV** bildirdi ki, Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qorunub saxlanması, ölkəmizin inkişafı yolunda böyük işlər görüb, misilsiz xidmətlər göstərib:*

- Dahi liderin uzaqgörən siyasəti sayəsində ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan dövləti yox olmaqdan, parçalanmaqdan xilas olmuşdur. Həmin dövrdə yaranmış vəziyyət ölkəni uçuruma sürükləyirdi. Bundan istifadə edən Ermənistan torpaqlarımızı işğal edirdi. Bütün bunlara baxmayaraq, xalqımız bu sınaqlardan üzüağ çıxmağı bacardı. Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıtdı. Belə güclü siyasi liderin hakimiyyətdə olması Azərbaycan üçün çox xoşbəxt bir hal idi. Heydər Əliyev ilk olaraq Ermənistanla müharibəni dayandırdı, milli dövlət quruculuğu, ölkədə ictimai siyasi sabitliyin təmin edilməsi istiqamətində mühüm addımlar atdı. Bir çox islahatlar keçirildi. Milli birlik və həmrəyliyin təmin edilməsi üçün vacib işlər görüldü.




Ulu Öndər Heydər Əliyev ordu quruculuğuna böyük önəm verirdi. Qısa müddətdə hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırıldı. Dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldildi. Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı. Hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsinə diqqət göstərən Ulu Öndərin imzaladığı müvafiq fərmana əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası yaradıldı. Azərbaycan Ali Hərbi Dənizçilik və Azərbaycan Ali Hərbi Təyyarəçilik məktəblərinin formalaşmasında da Ulu Öndərin böyük xidmətləri olmuşdur.

Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu, eləcə də milli təhlükəsizlik siyasəti ilə bağlı başladığı işlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ulu Öndərin müəyyən etdiyi, Prezident İlham Əliyevin daha da təkmilləşdirərək müasirləşdirdiyi və inamla həyata keçirdiyi milli dövlətçilik strategiyasının ən böyük təntənəsi məhz 44 günlük Vətən müharibəsinin yekunu ilə əldə edilən tarixi zəfər oldu.

Bu zəfərə gedən yolda xalqımız şəhidlər verdi. Şəkidən 2000 nəfərə yaxın qəhrəman oğlumuz müharibədə iştirak edib. Onlardan 55-i şəhid olmuş, 1 nəfər itkin düşmüş, 73 nəfər sağlamlığını itirərək əlil olmuş, 1100 nəfərə yaxın oğlumuz isə veteran adını almışdır.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında "dəmir yumruq" əməliyyatı ilə 44 gün davam edən Vətən müharibəsinə mən də Xüsusi Təyinatlı Qüvvələrin tərkibində qatılmışam. 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunmasında, Füzuli, Xocavənd istiqamətlətində gedən döyüşlərdə fəal iştirak etmiş, cənab Prezdentin sərəncamlarına əsasən, medallarla təltif edilmişəm.

Bu gün canından, qanından keçərək Vətən yolunda şəhid olmuş döyüş yoldaşlarımın əziz xatirəsini bir an olsun unutmur, Allahdan bu qəhrəman oğullarımıza rəhmət diləyir, eyni zamanda fəxr edirəm ki, Ulu Öndərimizin qurucusu olduğu ordumuzun bir zabiti kimi düşmən üzərində zəfərin qazanılmasında mən də öz kiçik töhfəmi verə bilmişəm.

Yaşasın Azərbaycan xalqı, yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

*Şəhid anası, "Vətən Naminə" İctimai Birliyinin Şəki bölməsinin sədri **Gülnarə MUSTAFAYEVA** qeyd etdi ki, 30 illik həsrətdən sonra qələbəmizin üçüncü ilini yaşayırıq və qalib bir ölkənin vətəndaşı olaraq biz şəhid anaları da qürur duyuruq, fəxr edirik:*

- Bu qələbə hissini bizə yaşatdıqları üçün şəhidlərimizə və qazilərimizə, ümumiyyətlə, Vətən fədailərinə borcluyuq. Birinci Qarabağ müharibəsində biz torpaqlarımızın 20 faizini itirsək də, bu məğlubiyyət demək deyildir. Çünki o vaxt şəhid olmuş qəhrəman balalarımızın açdığı ilk cığırı 44 günlük İkinci Qarabağ müharibəsində vətənimizin fədailəri başa çatdırıb, azadlıq adlı bir yol açdılar və bu gün özləri torpaq altında o yola çiyinlərini verib, dayaq durdular ki, hamı o yoldan qürurla keçsin. Onlar ömürlərini yarıda kəsdilər ki, bu gün biz Azərbaycan olaraq tam bütöv olaq. Biz şəhid anaları bu gün bu acılarla ayaqda dura biliriksə, bunun üçün Prezidentimizə, dövlətimizə, bütün xalqımıza minnətdarıq. İstər qazilər olsun, istərsə də şəhid ailələri hər zaman şəhər ictimaiyyətinin və xalqın qayğısını görmüşük və bu da bizim ən böyük səbrimiz olub.




Bütün bunlara baxmayaraq, mən bir anayam və ürəyimdə heç vaxt sağalmayan, hər gün sızıldayan bir övlad yarası var. Biz şəhid ailələri heç vaxt tək olmadıq. Xalqımız bu acını bizimlə bərabər yaşadı və hər zaman da yanımızdadırlar. Arzu edirəm ki, Azərbaycan xalqı bir də müharibə görməsin. Analar çiyinlərində şəhid tabutu deyil, balalarımızın toyuna hazırladıqları xonçaları tutsunlar. Allah Ali Baş Komandanımız İlham Əliyev başda olmaqla, ordumuzu, əsgər və zabitlərimizi qorusun. Qazilərimizə Allah şəfa versin.

Həzrət Əli deyib: "Getdiyin yola inanırsansa, atdığın addımdan qorxma". Biz millət olaraq, xalq olaraq nə getdiyimiz yoldan, nə də atdığımız addımdan qorxmadıq və qorxmuruq da.

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialının tələbəsi **Aysun KƏRİMLİ** vurğuladı ki, ictimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan Ulu Öndər bütün bu proseslərdə gənclərin roluna həmişə xüsusi fikir verirdi. O, müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakının təmin edilməsini daim əsas faktor kimi qeyd edirdi:*




- Heydər Əliyev Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin mühüm rol oynayacağını həmişə xüsusi olaraq dəyərləndirirdi. Məhz özünün dediyi kimi, "Azərbaycanın tarixinə nəzər salsaq, onun hər mərhələsində gənclərimizin özünəməxsus rol oynadığının şahidi olarıq".

Ulu Öndər hakimiyyətə gəldiyi gündən gənclərin himayədarı kimi çıxış etmiş, həmişə Azərbaycan gəncliyini düşünmüşdür. O, qeyd edirdi ki, gəncliyə etinasız yanaşmaq gələcəyi təhlükəyə atmaq deməkdir. Çünki gələcəyin təminatı məhz gəncliyə olan münasibətdən asılıdır.

Heydər Əliyevin gənclərlə müntəzəm görüşləri, ölkə gənclərinin forumlarının keçirilməsi, Gənclər və İdman Nazirliyinin yaradılması, Gənclər Gününün təsis olunması, gənclərin sosial, iqtisadi və digər problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən fərman, sərəncam və dövlət proqramlarının qəbul edilməsi, gənclər siyasətinin dövlət siyasətinin tərkib hissəsinə çevrilməsi gənc nəslə göstərilən yüksək diqqət və qayğının təsdiqi idi.

Ulu Öndər Heydər Əliyevin siyasi kursu yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Əsası Ümummilli Lider tərəfindən qoyulan gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu gündən-günə artır, gənclərimiz bütün sahələrdə öz sözlərini deyə bilirlər.

Azərbaycanda milli-mənəvi dəyərlərə sahiblənmiş cəsur, yüksək vətənpərvərlik hissinə, intellektual səviyyəyə, milli düşüncəyə malik gənc nəsil formalaşıb. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində öz dövlətinə, özünə, öz gücünə və istedadına inam hissi artıb. Bunun ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan qələbədir. Bu qələbəni bizə Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə doğulan və böyüyən, İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə yetişən və formalaşan gənclər bəxş etdilər.

Şəki gənclərinin nümayəndəsi olaraq, biz də Heydər Əliyevin ideyalarını daim öyrənməyə, onlardan faydalanmağa, Ulu Öndərin görmək istədiyi Azərbaycan gəncliyini ləyaqətlə təmsil etməyə çalışır, bütöv və müstəqil Azərbaycan naminə bütün gücümüzü səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, ölkəmizin uğurlu daxili və xarici siyasətini dəstəkləyirik.

Tam inamla bildirmək istəyirəm ki, ölkəmizdə Ulu Öndərin gənclər siyasətinin uğurla davam etdirilməsi Azərbaycan gəncliyini daha işıqlı sabahlara aparacaq. Heydər Əliyevin görmək istədiyi Azərbaycan bu günün reallığına çevrilib və ölkəmiz Heydər Əliyev siyasi kursu ilə inamla addımlayır. Şəki gəncləri də Heydər Əliyevin irsindən faydalanır. Əminliklə söyləyə bilərəm ki, Heydər Əliyev irsi hələ neçə-neçə gələcək nəsillər üçün də zəngin xəzinə olacaq.

***"AZƏRBAYCAN"***



# Naxçıvan iqtisadiyyatı ölkə iqtisadiyyatına tam inteqrasiya olunacaq

## Dövlət proqramının digər hədəfi muxtar respublika əhalisinin həyat səviyyəsinin daha da yüksəldilməsidir

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Naxçıvan MR Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və onun təqribən yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır.**

Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində bütün regionlarımızın, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının təməli qoyulmuşdur. Prezident İlham Əliyevin 2004-cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafına yönəltdiyi dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi Naxçıvan MR-in da tərəqqisinə - burada yeni müəssisələrin və iş yerlərinin yaradılmasına, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur.

Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvan Muxtar Respublikasının gələcəkdə daha da inkişafı üçün geniş imkanlar yaratmışdır. Bu imkanlardan istifadə edilməklə muxtar respublikanın sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində tədbirlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilmişdir. Odur ki, Naxçıvanın sosial-iqtisadi inkişafı ilə bağlı tədbirlərin, həmçinin kompleks proqramların hazırlanması və onların icrasının davam etdirilməsi nəzərdə tutulur.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" məhz yeni mərhələdə qarşıda duran vəzifələrin reallaşdırılması məqsədilə hazırlanmışdır. Proqram Naxçıvan iqtisadi rayonuna daxil olan Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarını əhatə edir. Beləliklə, bu dövlət proqramında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilmişdir.

Ötən dövr ərzində əldə olunmuş nailiyyətlərə qısaca nəzər salaq. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda da qeyd edildiyi kimi, ölkəmizdə regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü tədbirlər sayəsində muxtar respublikada görülmüş işlər infrastruktur layihələrinin həyata keçirilməsi, qazlaşdırmanın təmin edilməsi, enerji təchizatının yaxşılaşdırılması, müasir yolların inşası, sosial infrastruktur obyektlərinin tikintisi, məşğulluq sahəsində uğurlu addımlarla nəticələnmişdir.

Prezident İlham Əliyevin 13 sentyabr 2019-cu il tarixli fərmanı ilə Şərur Sənaye Məhəlləsi yaradılmışdır. Elektrik enerjisi təchizatının yaxşılaşdırılması istiqamətində 169,8 meqavat gücündə 10 elektrik stansiyası istifadəyə verilmişdir. Təbii qazla təchizat tam yekunlaşmışdır. Naxçıvan şəhərinin və onun inzibati ərazisinə daxil olan yaşayış məntəqələrinin əhalisini içməli su və kanalizasiya xidməti ilə təmin etmək üçün sutəmizləmə qurğuları və 3 su anbarı tikilmişdir. Naxçıvan şəhərində, Əliabad qəsəbəsində, Tumbul, Hacıniyyət, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində su xətti və kanalizasiya şəbəkəsi quraşdırılmışdır. Rabitə və informasiya texnologiyalarının tətbiqi sahəsində 1685,7 kilometr fiber-optik xətt çəkilmiş, onlarca ATS quraşdırılmış və bir çox köhnələri təmir olunmuşdur. Naxçıvan aeroportu regionun aviasiya nəqliyyat əlaqəsi üçün yeganə vasitə olmuş və 2004-cü ildən beynəlxalq hava limanı statusu qazanmışdır.

Sosial sahənin göstəricilərindən də bir neçəsini qeyd edərək deyək ki, son 10 ildə şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olanlara və digər imtiyazlı şəxslərə 120 mənzil və 280 minik avtomobili verilmişdir. Ölkədə 2017-ci ildən həyata keçirilən özünüməşğulluq proqramına Naxçıvan Muxtar Respublikası üzrə 1320 ailə cəlb edilmişdir.

Nailiyyətlərin daha da möhkəmləndirilməsi, regionun potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması üçün müasir çağırışlara və yanaşmalara əsaslanan çoxsaylı tədbirlərin həyata keçirilməsi zəruri hesab olunur. Belə ki, muxtar respublikada olan təbii ehtiyatların (əlvan metallar) hesabına hasilat sənayesinin inkişaf etdirilməsi, xammal bazası əsasında yeni sənaye sahələrinin (tikinti materialları, qida məhsulları istehsalı və s.) qurulması və mövcud sənaye müəssisələrinin fəaliyyətinin genişləndirilməsi, habelə ayrı-ayrı sahələrdə güzəştlərin tətbiqinin nəzərdə tutulduğu sənaye zonasının yaradılması gözlənilir. Elektrik enerjisinin istehsalı və ixracı üzrə mövcud potensialdan istifadə etməklə yeni bərpaolunan enerji (əsasən, günəş) stansiyalarının, həmçinin istilik-elektrik stansiyalarının tikintisi, Türkiyə sərhədinədək 18 kilometrlik magistral boru kəmərinin çəkilməsi ilə Naxçıvan MR-in Türkiyənin qaz şəbəkəsi ilə əlaqələndirilməsi gündəmə gələn məsələlərdir. Kənd təsərrüfatının inkişafında suvarma suyunun əhəmiyyətini nəzərə alaraq bölgədə suvarma şəbəkələrinin yenilənməsi, müasir suvarma sistemlərindən istifadənin genişləndirilməsi də vacıb sayılan məsələlər sırasında dayanır. Eləcə də duz yataqları, mineral sular, tarixi və dini abidələr, ekoturizm üçün təbii əlverişli şəraitin olması nəzərə alınaraq əlavə dəyər yaradılması baxımından turizm infrastrukturunun qurulması nəzərdə tutulur.

Görüləcək işlər genişmiqyaslı və çoxşaxəlidir. Bunların hamısı davamlı iqtisadi artımın təmin edilməsinə və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir. Məqsəd həm də Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədlərə nail olmaq üçün 2023-2027-ci illər üçün 11 prioritet istiqamət müəyyən olunmuş və dövlət proqramının həyata keçirilməsi ilə bağlı icrası planlaşdırılan bütün tədbirlər həmin prioritet istiqamətlər üzrə qruplaşdırılmışdır.

Onu da vurğulayaq ki, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası ilə yaranmış yeni reallıq Orta dəhlizin inkişaf perspektivlərini gündəmə gətirməklə, Zəngəzur dəhlizinin açılmasını zəruri etmiş və Naxçıvan Muxtar Respublikasının tranzit potensialını genişləndirmişdir. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri və tətbiq olunan güzəştlər, həmçinin Zəngəzur dəhlizi vasitəsilə bu ərazilərin Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat əlaqələrinin qurulması perspektivi analoji güzəştlərin muxtar respublikada da tətbiqinə imkanlar yaradır.

Hazırda bu imkanlardan istifadə edərək Naxçıvanda iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu, sosial rifah halının daha da yüksəldilməsi və ekoloji təhlükəsizliyin gücləndirilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi öndə dayanır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# İqtisadi qüdrətin real göstəricisi

## Dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzura ayrılan vəsaitin artırılması Böyük qayıdışı daha da sürətləndirəcək

**Xəbər verildiyi kimi, dövlət büdcəsinə proqnozlaşdırılandan daha çox daxilolmalar büdcəyə yenidən baxılmasına və dəyişiklik edilməsinə səbəb olub. Belə ki, 2023-cü ilin dövlət büdcəsinin gəlirləri 33 milyard 779,5 milyon manat nəzərdə tutulsa da, bu ilin 4 ayında 2 milyard 400 milyon manat əlavə vəsaitin daxil olması müxtəlif istiqamətlər üzrə xərcləri artırmağa imkan yaradıb.**





Təbii ki, burada Azərbaycan dövlətinin prioritet istiqaməti olan işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması, bu yöndə həyata keçirilən Böyük qayıdış proqramının icrası üçün əlavə vəsaitin ayrılmasına xüsusi önəm verilir. Beləliklə, Qarabağ və Şərqi Zəngəzurun bərpasına bu ilin dövlət büdcəsindəki əlavə vəsaitdən 2 milyard 260 milyon manat ayrılaraq ümumilikdə 5 milyard 260 milyon yönəldilməsi planlaşdırılıb. Bu bir daha göstərir ki, dövlət tərəfindən keçmiş məcburi köçkünlərin tezliklə öz yurd-yuvalarına qayıtmaları üçün sürətli quruculuq işləri həyata keçirilir.

Onu da əlavə edək ki, ölkə üzrə ümumi daxil məhsul da (ÜDM) 0,1 faiz, qeyri-neft sahəsində isə 3,7 faiz artıb. Proqnoza əsasən, 2023-cü ilin sonunda ÜDM üzrə artım 1,8-2 faiz arasında, qeyri-neft sahəsində isə 5,7 faizə çatacaq.

### Zəngəzur dəhlizinin açılması reallıqdır

Milli Məclisin deputatı Aydın Hüseynov qəzetimizə açıqlamasında deyib ki, məlum sənəd dünən Milli Məclisin növbədənkənar ilk iclasında müzakirəyə çıxarılıb. Deputat xatırladıb ki, 4 ayın yekunlarına əsasən, büdcə gəlirlərinin 2 milyard manatdan çox artması bugünkü reallığı yaradıb: "Eyni zamanda dövlətin prioritet hesab etdiyi istiqamətlər üzrə büdcənin xərc hissəsində də artım nəzərdə tutulub. Cənab Prezidentin ötən il imzaladığı sərəncama əsasən, Böyük qayıdış proqramının icrası ilə əlaqədar 2023-cü il büdcəsindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında quruculuq işlərinin davam etdirilməsi üçün əlavə 2,6 milyard manat planlaşdırılıb". Deputat qeyd edib ki, müdafiə qabiliyyətinin daha da gücləndirilməsinə 1 milyard 105 milyon, xüsusi müdafiə təyinatlı layihə və tədbirlər üçün isə 1 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub.

A.Hüseynov hesab edir ki, artıq Zəngəzur dəhlizinin açılması reallıqdır. Bununla əlaqədar dəmir yollarında işlərin həyata keçirilməsi üçün vəsait nəzərdə tutulub. Eləcə də dəyişikliklərdə yeni peykin alınması üçün də ayırmalar var.

Deputatın fikrincə, dövlət büdcəsi əvvəl proqnozlaşdırılandan 9,8 faiz artıb, yenidən baxılmış büdcə gəlirlərinin 52,5 faizi neft sektorunun, qalanı isə qeyri-neft sahəsinin payına düşür.

### İki yeni iqtisadi zonanın ölkənin ümumi iqtisadiyyatına müsbət təsiri olacaq

Milli Məclisin deputatı Rüfət Quliyev deyib ki, hər il büdcəyə ənənəvi formada əsas müzakirədən sonra yenidən baxılır. Bunun əsas səbəbi büdcəyə daxilolmaların, xərc hissəsinin, ümumi daxili məhsulun artmasıdır. Ümumilikdə isə bu, iqtisadi artımdır.

Deputat qeyd edib ki, gəlirlərin artmasında neft-qaz sektoru üzrə daxilolmaların xüsusi çəkisi var: "Cənab Prezidentin tapşırığı ilə daxilolmaların 1 milyard manatdan çox hissəsi müdafiə məsələlərinə ayrılıb. Bu, yeni çağırışların səbəbidir. Ordumuz güclənməli, Qarabağ və Şərqi Zəngəzurda quruculuq işləri daha da sürətlənməlidir". Onun sözlərinə görə, hazırda işğaldan azad olunmuş ərazilərdə böyük sürətlə bərpa işləri gedir, möhtəşəm layihələr həyata keçirilir. Böyük qayıdış üçün həmin ərazilərdə tam şərait yaradılmalı olduğunu vurğulayan R.Quliyev əlavə edib ki, ərazidə yeni yollar salınır, enerji stansiyaları tikilir, qaz xətləri çəkilir, sosial infrastruktur qurulur. Həmçinin əhalinin işğaldan azad olunmuş ərazilərdə məskunlaşması üçün yeni iş yerləri yaratmağa da ehtiyac var. "Bunların həm siyasi, həm də iqtisadi mənası var. Siyasi mənası odur ki, dünyaya bir daha bəyan etdik ki, bu torpaqların sahibi Azərbaycandır. Düşünürəm ki, 2-3 ilə iki yeni iqtisadi zonanın Azərbaycanın ümumi iqtisadiyyatına kifayət qədər müsbət təsiri olacaq", - deyə deputat əlavə edib.

Rüfət Quliyevin fikrincə, Qarabağ və Şərqi Zəngəzura əlavə olaraq 2 milyard 260 milyon manatın ayrılması nəzərdə tutulub ki, bu da ümumilikdə həmin rayonların hərtərəfli tərəqqisinə istiqamətlənib. Daha sonra bu rayonların iqtisadiyyatı tam bərpa olunacaq və bu, gələcəkdə ÜDM-nin artmasına böyük təkan verəcək.

Deputat sonda onu da əlavə edib ki, bütün quruculuq işlərinin hamısı Azərbaycanın öz vəsaiti hesabına həyata keçirilir. Dövlət bunun üçün hansısa beynəlxalq təşkilatdan, hansısa dövlətdən maliyyə yardımı almır. Artıq Azərbaycanın valyuta ehtiyatları 66 milyard dollara yüksəlib. Bu, ölkənin maliyyə "yastığı"dır. Prezident İlham Əliyevin tapşırığına əsasən. son üç ildə xarici borcların həcmi xeyli azalıb. Beləliklə, Azərbaycanda çoxşaxəli inkişaf göz önündədir. Yaxın zamanlarda dünya Azərbaycanın Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirməsinə şahidlik edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İnflyasiya azalacaq, ÜDM artacaq

**Hazırda Azərbaycanda illik inflyasiya 12,8 faizdir. Gözləntilərə əsasən, bu ilin sonunda inflyasiya 8,3 faizə qədər azalacaq. Bununla yanaşı, ümumi daxili məhsulun (ÜDM) həcmində artım gözlənilir. Proqnozlara görə, 2023-cü ilin sonunda ÜDM üzrə ümumi artım 1,8 - 2 faiz olacaq, qeyri-neft sahəsində isə ÜDM 5,7 faizə çatacaq.**
**Mövzu ilə bağlı mütəxəssislərin fikirlərini öyrəndik.**



### Qiymətlərin optimallaşdırılması əsas prioritetdir

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov deyib ki, inflyasiya səviyyəsinin azaldılması və qiymətlərin optimallaşdırılması 2023-cü ilin əsas iqtisadi prioritetlərindəndir: "Ötənilki yüksək qiymət artımlarından sonra cari ildə qiymətlərin müqayisəli şəkildə azaldılması əsas hədəflərdəndir. Son rəsmi açıqlamalar da ondan xəbər verir ki, 2023-cü ildə qiymətlər əvvəlki illərlə müqayisədə daha az artacaq. Bu, birbaşa idxal inflyasiyasının tənzimlənməsi və yerli məhsullarda qiymətlərin optimallaşdırılması ilə bağlıdır".

Deputat qeyd edib ki, ölkəmizdə biznes mühitinin inkişaf etdirilməsi, sahibkarların güzəştli kreditlərdən istifadəsinin genişləndirilməsi yeni imkanlar yaradır: "Bu da təbii ki, qiymətlərə və inflyasiyanın səviyyəsinə təsir göstərir. Nəticədə qiymətlərin optimallaşdırılması istiqamətində səylər daha da gücləndirilir".

Vüqar Bayramov bildirib ki, cari ilin ikinci yarısında qiymətlərin ucuzlaşdırılması əsas məqsəd olacaq. Bu istiqamətdə atılan addımlar dəstəklənəcək. Bütün bunlar həm də vətəndaşların sosial müdafiəsi baxımından vacib hesab edilir. Nəzərə almaq lazımdır ki, optimal qiymətlər daha az ailə büdcəsi xərci deməkdir. Qiymətlərin ucuzlaşması bütövlükdə xərclərin azalmasına və əhalinin sosial təminatının gücləndirilməsinə xidmət edir. İnflasiyanın azalması da ÜDM-nin artmasına zəmin yaradır.

### Görülən işlərin məqsədi inflyasiyanın qarşısını almaqdır

İqtisadçı Əkrəm Həsənov qeyd edib ki, son vaxtlar Mərkəzi Bank inflyasiyanın azalması üçün müəyyən addımlar atır: "Misal üçün, uçot dərəcəsini, məcburi ehtiyatların normasını artırır və sair. Prinsipcə bütün bunlar inflyasiyanın qarşısını almalıdır. Amma bunun effekt verəcəyini demək olmaz, çünki bu məsələ təkcə Mərkəzi Bankdan asılı deyil. Ola bilər ki, Mərkəzi Bankın müşahidə etdiyi başqa məsələlər də var. Ona görə də ilin sonunda inflyasiyanın azalacağını proqnozlaşdırıblar".

Nəzərə almaq lazımdır ki, qiymət artımı təkcə daxili deyil, xarici faktorlardan da asılıdır. Yəni bu gün dünya ölkələrində də qiymət artımı müşahidə edilir. Bu da ümumilikdə həm dünyada, həm də ölkəmizdə inflyasiyanın azalmasına mane olur.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanlı deputatlar fransalı həmkarları ilə görüşəcəklər

**Milli Məclisin deputatları - Fransa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov, qrupun üzvləri Ramin Məmmədov və Tural Gəncəliyev iyunun 7-də Fransanın paytaxtı Parisə səfər edəcəklər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, deputatlar Fransa Respublikası Milli Assambleyasının Azərbaycanla dostluq qrupunun üzvləri ilə görüşəcəklər. Görüşdə parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi və tərəfləri maraqlandıran digər məsələlərlə bağlı müzakirələr aparılacaq.

Səfər iyunun 10-da başa çatacaq.

# Zabit heyətinin təkmilləşdirmə kursunun növbəti buraxılışı olub

**Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Psixoloq" hərbi uçot ixtisası tədris qrupunun dinləyiciləri ilə keçirilən zabit heyətinin təkmilləşdirmə kursunun növbəti buraxılışı olub.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, psixoloqların nəzəri bilikləri, ixtisas və fiziki hazırlıqlarının yoxlanılması məqsədilə yekun imtahan keçirilib.

Nəticələrə əsasən, kursu müvəffəqiyyətlə bitirən dinləyicilərə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, keçirilən kursun əsas məqsədi hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin yüksəldilməsi, şəxsi heyətin psixoloji vəziyyətinin qiymətləndirilməsi, eləcə də hərbi kollektivlərdə sosial-psixoloji proseslərin öyrənilməsi zamanı onların praktiki bacarıqlarının inkişaf etdirilməsidir.

# MN: "Mühəndis-istehkam bölmələri tərəfindən 30,8 min hektardan artıq ərazi minalardan təmizlənib"







**Azad edilmiş ərazilərdə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən tapşırıqların icrası davam etdirilir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, cari ilin iyun ayı ərzində azad olunmuş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində 200 hektaradək ərazi minalardan tam təmizlənib. İşğaldan azad edilmiş ərazilərdə bu günədək mühəndis-istehkam bölmələri tərəfindən 30 min 890 hektardan artıq ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib.

Bundan başqa, mühəndis qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində mürəkkəb relyefli, o cümlədən çətin keçilən qayalıq ərazilərdə avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə cari il ərzində 9 km-dək yeni təminat yolları çəkilib, 38 km-dək mövcud təminat yolları təkmilləşdirilərək bərpa edilib.

Minatəmizlənmə işlərində əsas səylər azad edilmiş ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.

# "Azərbaycanın gənc qurucuları" adlı ilk layihə əsaslı öyrənmə olimpiadasının final mərhələsi keçirilib





İyunun 6-da ADA Universitetində Qazax Müəllimlər Seminariyası / ADA Universiteti Qazax Mərkəzinin təşəbbüsü və təşkilatçılığı, Qarabağ Dirçəliş Fondu və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə "Azərbaycanın gənc qurucuları" adlı ilk layihə əsaslı öyrənmə olimpiadasının final mərhələsi keçirilib.



AZƏRTAC xəbər verir ki, "Qarabağın bərpası şagirdlərin gözü ilə" şüarı altında keçirilən olimpiadada Bakı və Sumqayıt şəhərləri istisna olmaqla, Azərbaycanın 37 şəhər və rayonundan 5-7 nəfərdən ibarət komandalar şəklində ümumilikdə 735 şagird işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması istiqamətində hazırladıqları layihələri təqdim ediblər.

Olimpiada iştirakçılarını və qonaqları salamlayan ADA Universitetinin akademik işlər üzrə prorektoru Vəfa Kazdal layihənin əhəmiyyətini vurğulayarkən onun ərsəyə gəlməsində ADA Qazax Mərkəzinin fəaliyyətini xüsusi qeyd edib.

Olimpiadanın regional layihə olduğunu söyləyən prorektor bu təşəbbüsün 40-dək rayonu təmsil edən 235 komandadan 800-ə yaxın şagirdi bir araya gətirdiyini ifadə edib. Əlavə edib ki, həmin layihələrdən 105-i müsabiqədə iştirak etmək hüququ qazanıb.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev Qarabağın bərpası ilə bağlı hər bir layihənin son dərəcə böyük əhəmiyyət kəsb etdiyini və bu prosesə xüsusilə də məktəblilərin maraq göstərməsinin sevindirici hal olduğunu qeyd edib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov işğaldan azad edilmiş ərazilərdəki yenidənqurma prosesindən bəhs edərkən bildirib ki, Zəngilan, Tərtər və Laçına köçürülənlər arasında bu olimpiadada iştirak edənlərlə eyni yaşda olan məktəblilər də yer alıblar və onlar özləri quruculuq prosesinin canlı şahidləridirlər. O əlavə edib ki, bu olimpiadada iştirak edən məktəblilərin irəli sürdüyü layihələrin əksəriyyəti dövlətimiz tərəfindən müəyyənləşdirilən strateji sahələri əhatə edir.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev şagirdlərin təqdim etdiyi innovativ ideyalarla bağlı fikirlərini bölüşüb və fondun işğaldan azad edilmiş ərazilərin dirçəlişinə töhfə verən təşəbbüsləri dəstəkləməyə davam edəcəyini vurğulayıb. Qarabağın inkişafının daimi prosesə çevrilməsinin və bunun yüksək templə icra edilməsinin vacibliyini vurğulayan R.Hacıyev Qarabağın Azərbaycanın innovasiya poliqonuna çevriləcəyini və bu inkişafın mərkəzində isə ağıllı insan amilinin durduğunu qeyd edib.

Daha sonra olimpiada layihəsinin meneceri Samirə Ağayeva və ADA Qazax Mərkəzinin aparıcı məsləhətçisi Natiq Məmmədli layihənin yekunlarına dair çıxış ediblər.

Final mərhələsinə vəsiqə qazanan 5 komandanın layihələrinin videoxülasəsi təqdim edildikdən sonra qaliblərin adları açıqlanıb. Onlara sertifikat və hədiyyələr təqdim edilib.

Birinci yerə Şəki şəhər Kimya təmayüllü liseyin "Çapar", ikinci yerə Yevlax şəhəri Səməd Vurğun adına məktəbin "Fi", üçüncü yerə Laçının Taxtakörpü qəsəbə tam orta məktəbinin "Qayıdış", dördüncü yerə Nail İbrahimli adına Oğuz şəhər 3 nömrəli məktəbin "Qarabağnamə" və beşinci yerə isə Gəncə şəhər fizika, riyaziyyat və informatika təmayüllü məktəbin "Ultimate" layihələri layiq görülüb.

Sonda məktəblilər üçün ADA Universitetində kampus turu təşkil edilib.

Qeyd edək ki, "Azərbaycanın gənc qurucuları" olimpiadasının məqsədi şagirdlərin layihə əsaslı biliklərə yiyələnməsinin təmin edilməsi, onları Qarabağla bağlı bilikləri təcrübədə istifadə etmələrinə təşviq etmək, eləcə də onların araşdırma və təqdimat bacarıqlarının, dəyərləndirmə və yaradıcılıq təfəkkürlərinin inkişafına dəstək olmaqdır.

# AŞ PA-nın həmməruzəçiləri ilə görüş

**İyunun 6-da ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Monitorinq Komitəsinin həmməruzəçiləri Yan Lidel-Qreynger və xanım Liz Kristofersen ilə görüşüb.**

Bu barədə Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Görüşdə Avropa Şurası və Azərbaycan arasında sıx əməkdaşlıqdan məmnunluq ifadə edilərək bu əlaqələrin demokratiyanın inkişafına, qanunun aliliyinə xidmət etdiyi bildirilib, Avropa Şurası ilə birgə həyata keçirilən islahatlardan və layihələrdən bəhs olunub.

Nazir Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan kompleks qanunvericilik, institusional və praktiki tədbirlər barədə məlumat verib, məhkəmə hakimiyyətinin müstəqil özünüidarə fəaliyyətini, hakimlərin Avropa Şurası tərəfindən örnək kimi dəyərləndirilən ən şəffaf seçimini qeyd edib. Dünya Bankının iştirakı ilə məhkəmə infrastrukturunun müasirləşdirilərək yüksək texnoloji (hi-tech) məhkəmələrin yaradıldığını və "Elektron məhkəmə" sisteminin tətbiqi üzrə işlərin artıq başa çatdırılaraq bu ərəfədə bütün ölkə üzrə tam əhatə olunduğunu vurğulayıb, bu sahədə ölkəmizin nailiyyətlərinin Dünya Bankı tərəfindən digər dövlətlərə tövsiyə edildiyini bildirib.

Həmməruzəçilər həmçinin penitensiar sahədə aparılan islahatlar, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması, yeni müasir penitensiar müəssisələrin inşa olunaraq istifadəyə verilməsi barədə məlumatlandırılıb.

Qonaqlar Azərbaycanda hüquqi sahədə islahatları və nailiyyətləri məmnunluqla qarşılayıb, məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunması, korrupsiya ilə mübarizə, qarşıda duran çağırışlar və digər məsələlər üzrə faydalı fikir mübadiləsi aparıblar.

Nazir əsas prioritetlərdən Vətən müharibəsində azad edilmiş torpaqlarımızda hüquq təsisatlarının fəaliyyətinin təşkili olduğunu bildirərək, hazırda həmin ərazilərdə aparılan bərpa-quruculuq işlərinə toxunub. Bu prosesə ciddi əngəl törədən torpaqlarımızın büsbütün, hətta müharibədən sonra minalanması qeyd edilərək, 300-dən çox şəxsin minaya düşərək yaralandığı, onlardan 57 nəfərin həlak olduğu bildirilib, bununla bağlı qonağa xüsusi broşür təqdim edilib.

# Baş Prokurorluqda itkin düşmüş şəxslərlə bağlı Beynəlxalq Komissiyanın nümayəndə heyəti ilə görüş olub

**İyunun 6-da BMT-nin İtkin düşmüş şəxslərlə bağlı Beynəlxalq Komissiyasının (ICMP) Koordinasiya və əməkdaşlıq üzrə direktoru Andreas Kleyzerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Baş Prokurorluqda görüş keçirilib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə baş prokurorun birinci müavini Elçin Məmmədov Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 3890 azərbaycanlının taleyinə bu günə kimi aydınlıq gətirilmədiyini, onlar barədə Ermənistan tərəfindən hələ də müfəssəl məlumatların təqdim olunmadığını qeyd edərək, bu xüsusda ICMP ilə əməkdaşlığa böyük önəm verildiyini vurğulayıb.

Andreas Kleyzer hərbi münaqişələr zamanı itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi və insanlıq əleyhinə törədilmiş cinayətlərin müəyyən edilməsi sahəsində uzun illərə dayanan təcrübəyə malik komissiyanın Azərbaycan rəsmiləri ilə sıx əməkdaşlığa hazır olduğunu, xüsusilə prokurorluq orqanlarının bu sahədə aparıcı rol oynadığını bildirib.

Görüşdə itkin düşmüş şəxslərin qeydiyyatı, məlumat bazası, itkin düşmüş şəxslər və Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar Hərbi Prokurorluqda və Baş Prokurorluğun İstintaq idarəsində istintaq olunan cinayət işləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Qərbi Azərbaycan İcması bəyanat yaydı

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və digər rəsmilər bu günlərdə verdikləri bəyanatlarında Azərbaycanda yaşayan ermənilərin hüquqları məsələsi ilə bağlı spekulyasiya edərək ölkəsinin aqressiv və riyakar siyasətini nümayiş etdirməkdə davam edirlər.**

Xatırladaq ki, Ermənistan hökuməti bu ölkədə vaxtilə kompakt şəkildə yaşamış yüz minlərlə azərbaycanlının hamısını qovub və onların mədəni irsini sistemli şəkildə dağıdıb. Ermənistan hökuməti həmin insanların qanuni təmsilçisi olan Qərbi Azərbaycan İcmasının qayıdış hüququnun təmin edilməsi üzrə dialoqa başlamaq çağırışlarına cavab vermir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının məsələ ilə bağlı bəyanatında yer alıb.

Qeyd olunub ki, Ermənistan öz ərazisindən qovduğu azərbaycanlıların qayıtmaq hüququnu təmin etməkdən nümayişkaranə şəkildə imtina etməsi azmış kimi, Azərbaycanda yaşayan ermənilərin hüquqlarının qorunması bəhanəsi altında Azərbaycan Respublikasının ərazi bütövlüyünə zidd olan və dövlətlərin daxili işlərinə qarışmamaq prinsipini pozan yanaşma sərgiləyir. Ermənistan rəsmiləri Azərbaycanda yaşayan ermənilər ilə bağlı hansısa beynəlxalq mexanizm yaradılması kimi sərsəm ideyalarını səsləndirməkdə davam edirlər.

"Ermənistan hökumətinin Qərbi Azərbaycan İcmasının dialoq çağırışını cavabsız qoyması və Azərbaycan hökumətinin dialoq dəvətinə mənfi cavab vermiş və Azərbaycanın ərazi bütövlüyünə açıq-aşkar qarşı çıxan separatist ünsürlər üçün hansısa beynəlxalq mexanizmin yaradılmasına çalışması bu ölkənin destruktiv siyasətini göstərir.

Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən beynəlxalq hüquqa və insan haqlarına zidd siyasətdən əl çəkməyi, qovduğu azərbaycanlıların beynəlxalq verifikasiya və zəmanət mexanizmləri çərçivəsində öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarına şərait yaratmağı tələb edir", - deyə icmanın bəyanatında vurğulanıb.

# Xanəndəlik sənəti dünya musiqisinin incisidir

## Mehriban xanım Əliyeva Azərbaycan muğam sənətinin qorunmasına və inkişafına xüsusi diqqət, qayğı göstərir

**Şərq sivilizasiyasının mühüm mərkəzlərindən biri olan Azərbaycanda ta qədim dövrlərdən etibarən zəngin incəsənət mövcud olub. Eləcə də muğam sənətimizin qədimliyi bu sahədə aparılan araşdırmalarla təsdiqini tapıb və bu sənətin ilk nümunələrinin müasir tipli insanların formalaşdığı dövrlərə qədər gedib çıxdığı bildirilir.**

Muğamla bağlı araşdırmalarda Abasqulu Nəcəfzadə "Adında bayatı sözü olan muğamlar" adlı məqaləsində muğamların genezisini araşdıraraq onların qədimliyi ilə bağlı yazır ki, Azərbaycan ərazisində muğamların ilk nümunələrini müasir tipli insanların formalaşdığı qədim Qobustanda öyrənməliyik. Yəni muğamın yaranma tarixi Qobustanda məskunlaşan ana və nənələrimizin körpələrin beşiyi başında oxudoqları ilk "Layla"lar qədər daha qədimdir: "Layla"lar şeir formasında deyilmir, hər hansı muğam üzərində zümzümə edilir. Bu, min il də, 20 min il də bundan əvvəl belə oxunmuşdur. İndinin özündə avazla oxunan ən qədim laylaları dinləyəndə onların hansı muğama kökləndiyini asanlıqla müəyyənləşdirmək mümkündür. Həm qədim, həm də çağdaş laylaların əksəriyyəti "Segah" muğamının məqam-intonasiyası əsasında oxunur. Muğam janrı həm uzaq keçmişin, həm bu günün, həm də gələcəyin möhtəşəm xəzinəsidir".

Azərbaycan muğam ifaçılığının tarixi köklərini araşdırsaq onun 8 min illik tarixə malik olduğunun faktlarla sübut edildiyini görürük. Bunu Cənubi Azərbaycanın Cığamış şəhərində tapılmış gil qablar üzərindəki müxtəlif musiqi alətlərinin təsviri də sübut edir.

Muğam sözünün etimologiyası Azərbayca ərazisində yaşayan atəşpərəst kahinlər olan maqların adı ilə bağlıdır. Məlumdur ki, zərdüştlüyün tərəfdarları digər dinlərdə olduğu kimi, xüsusi mərasimlərdə rituallar yerinə yetirərkən xeyir Allahı Ahuramazdanın şərəfinə mahnılar, himnlər maqlar tərəfindən oxunmuşdur. Onlar musiqinin insanlara emosional təsirindən xəbərdar olub insanların əhvalına, psixikasına musiqi ilə təsir edə bilirdilər.

Sasanilər dövründə zərdüştlüyün geniş yayılması, Sasani şahlarının maqlara xüsusi diqqət ayırması faktı hər kəsə məlumdur. Bu dövrdə şah saraylarında musiqi məclislərinin təmtəraqlı şəkildə təşkil olunması ilə bağlı ədəbiyyatda və tarixdə xeyli məlumat var.

Bəzən müğənniləri mütrüb kimi adlandırsalar da, dahi Nizami ərğanun və çəngin müşayiətilə çıxış edən müğənnini mütribdən fərqləndirir. Dünya ədəbiyyatının klassiki Əbdülqasım Firdövsi "Şahnamə" əsərində bağlı beytlər işlətmişdir.

*Çünki eyvandan döyüş sədalarının yüksək səsi gəlirdi*

*Müğənni qanun və çəngin müşayiəti ilə oxuyurdu.*

### Dahi şairlərin yaradıcılığı özünü muğam ifaçılığında da göstərib

Daha sonralar Şimali Azərbaycanda xristianlığın yayılması nəticəsində Alban kilsələri və xristian din xadimləri cəmiyyətin önəmli təbəqəsinə çevrildilər. Məlumdur ki, xristian dininin kilsə ayinlərində xüsusi yeri kilsə xoru tutur. İncilin mətninə uyğun dini musiqi ilə yaradana mədh etmək bu musiqinin əsas vəzifəsi idi. Təəssüf ki, musiqişünaslar tərəfindən bu dövrün araşdırılmasına rast gəlmirik. Buna görə də qarşıya sual çıxır - Alban xristian kilsələrində III mömin Vaçaqan və Girdiman hökmdarı Cavanşirin zamanında kilsə xoru fəaliyyət göstərmişdir? O dövrdə Azərbaycan vokal sənətinin inkişafına bu xorun təsiri olub?

VII əsrdə islamın ölkədə yayılması Azərbaycanın vilayətləri arasında mədəni dini birliyin yaranmasına gətirib çıxardı. İslamın əsas müddəalarını elm və təhsilə qayğı göstərmək kimi ideyalar təşkil etsə də, incəsənət növlərinə münasibət birmənalı deyildi. Memarlıq, miniatür sənəti, nəqqaşlıq kimi sahələr öz inkişaf zirvəsinə çata bilsə də, musiqi, rəssamlıq və heykəltaraşlıq haqqında eyni fikri söyləyə bilmərik. Birmənalı şəkildə insan portreti və heykəlinin yaradılması qəbuledilməz idi. Musiqiyə münasibət bəzi hallarda loyal olsa da, bəzi fanatiklər tərəfindən sərt münasibət formalaşırdı. Baxmayaraq ki, islam ayinlərində dini rituallardan musiqi təcrid edilmişdi.

Abbasi xəlifələrinin hökmranlığı dövründə musiqiyə münasibət dəyişdi. Xəlifələr özləri musiqiyə qulaq asır, bəstəkar və ifaçıları himayə edir, eyni zamanda onların nəzəriyyəçi kimi formalaşmasına da yardım edirdilər.

Təbii ki, din xadimlərinin musiqiyə mənfi münasibəti muğam ifaçılığının xanəndəlik sənətinin inkişafına əngəl törədirdi. Azərbaycanın görkəmli tar və kaman ustası Ağasəlim Abdullayev və Fəxrəddin Dadaşov "Şərq musiqisində muğam ənənələri" adlı məqalələrində muğam ifaçılığının təşəkkül tapmasında islam dininin müsbət rolu olduğunu vurğulayırlar: "Muğamı müəyyən dərəcədə islam dini ilə də bağlamaq olar. Bu, Quran ayə və surələrinin, müsəlmanları ibadətə səsləyən azanın improvizasiyalı şəkildə ifasında özünü göstərir. Lakin muğam inkişafda olub, fundamental forma kəsb etdiyi üçün onu bütövlükdə dini musiqi ilə bağlamaq düzgün olmazdı. Avazlı-reçitativli bu oxu tərzi vurğulu-vurğusuz, uzun və qısa hecaların növbələşməsi ilə icra edilir."

Xanəndə Aqil Məlikov isə islamın musiqidən ayrılmadığını bildirib. Xanəndəyə görə islam aləmində quran, şəriət, Əli süfrəsi, "Məhərrəmlik əzadarlığı" adlı məclislər mövcuddur. Hər məclisdə musiqiyə bu və ya digər şəkildə müraciət olunur. Quran məclisində ayələr muğam üzərində xüsusi avazla oxunur, Əli süfrəsində əhli-beyt aşiqləri imamların şərəfinə mərasim təşkil edir, dərvişlər xanəndələrin rolunu həyata keçirirlər. Aqil Məlikov qeyd edir: "Sadəcə olaraq onları xanəndələrdən fərqləndirən əsas xüsusiyyət muğam ifası zamanı qinayə yol verməmələridir. Qina deyərkən, burada həddindən artıq çox istifadə edilən zəngulələr, qışqırıqlar nəzərdə tutulur. Bundan əlavə, dərvişlər muğamları daha çox məzhər (sağanağında haram sayılan metal halqalar, pulcuqlar, zınqırovlar olmayan dərviş dəfi) alətinin müşayiəti ilə və ya dəmyə ifa edirlər".

Məhərrəm əzadarlığı məclisləriylə bağlı ədəbiyyatda ayrı-ayrı müəlliflərə aid məlumatlar var. X-XVII əsrlərdə Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Xaqani Şirvani, İzəddin Həsənoğlu, İmadəddin Nəsimi, Cahan şah Həqiqi, Həbibi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Həqiri Təbrizi, Qövsi Təbrizi, Saib Təbrizi kimi şairlərin yaradıcılığı özünü muğam ifaçılığında da göstərib.

### Ustadlarımızın hər birinin yetişməsində bu məktəblərin müstəsna xidmətləri olub

Məlumdur ki, xanəndəlik sənəti oxuma sənəti sayılır. Qərb oxu tərzindən bir sıra xüsusiyyətlərə görə fərqlənən bu ifaçılıq növü Şərq musiqisinin özülü hesab edilən muğam sənəti ilə sıx bağlıdır. Buna görə də xanəndəlik sənəti dedikdə ilk növbədə vokal-instrumental muğam ifaçılığı nəzərdə tutulur.

Vokal-instrumental muğam ifaçılığında xüsusi yer tutan zərbi-muğamlar aşıq sənəti ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir. İddia edə bilərik ki, zərbi-muğamların, şikəstələrin, təsniflərin və xalq mahnılarının çoxunun əsasını aşıq sənəti təşkil edir. Orta əsrlərdə aşıq sənətinin inkişafında da mühüm dəyişiklik müşahidə olundu. Xüsusən Şah İsmayıl Xətainin hakimiyyəti dövründə aşıqlara fərqli münasibət formalaşmağa başladı. Bu dövrdə Aşıq Qurbani, Sarı Aşıq, Aşıq Abbas Tufarqanlı, Aşıq Abdulla kimi xalq sənətkarları yaşayıb yaratmışdır.

Xanəndəliyin bir sənət kimi inkişafında xüsusi rolu olan dövr XVIII-XIX əsrlərdir. Bu dövrü xarakterizə etsək Qarabağ, Abşeron, Şirvan, Gəncə və digər mədəni mərkəzlərdə incəsənətin müxtəlif sahələrinin inkişafı, xüsusən musiqi və muğam ifaçılığı sənətini təkmilləşdirən mühitin məclislərin və məktəblərin meydana gəlmə prosesinin şahidi oluruq.

Bütün bu musiqi məclisləri yeni xanəndələr nəslinin yetişdirilməsilə bərabər, muğam sənətinin xalq arasında intişar tapmasında da böyük rol oynamışdır. Digər tərəfdən, məclislər musiqimizi yad təsirlərdən qorumuş, muğamların milli məzmunlu, xalq ruhunda olmasını təmin etmişdir. Muğamın geniş xalq kütlələrinin məişətində möhkəm yer tutmasına səbəb də məhz bu idi. XX əsrin ilk onilliklərində Azərbaycanın böyük şəhərlərində musiqi məclislərinin ənənələri davam etdirilirdi. Göründüyü kimi, Qarabağ, Şamaxı və Bakı musiqi məclislərinin Azərbaycan muğam sənətinə verdiyi töhfələr danılmazdır. Çünki ustadlarımızın hər birinin bir xanəndə kimi püxtələşməsində, yetişməsində bu məktəblərin müstəsna xidmətləri olub.

### Muğam sənətinə böyük diqqət və qayğı

Ta qədimdən inkişaf edə-edə bu günümüzə gələn milli muğam sənətinin yaşadılmasına böyük önəm verilir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında bu sənətin qorunmasına, inkişafına və təbliğinə xüsusi diqqət və qayğı göstərilir, bu istiqamətdə fundamental işlər gerçəkləşdirilir.

Məhz Mehriban xanım Əliyevanın milli mədəniyyətimizin, muğam sənətimizin inkişafı ilə bağlı göstərdiyi şəxsi səy və əzmin nəticəsidir ki, Azərbaycan muğamları 2008-ci ildə UNESCO-nun Bəşəriyyətin Qeyri-maddi İrsi üzrə Reprezentativ Siyahısına daxil edilib.

Eyni zamanda Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2009-cu ildən keçirilən milli muğam müsabiqələri və beynəlxalq muğam festivalları milli sərvətimiz olan muğamın dünya miqyasında tanıdılmasına, eyni zamanda yaşadılaraq gələcəyə ötürülməsinə xidmət edir.

Vətən müharibəsindəki zəfərdən sonra Mehriban xanım Əliyeva muğamımızın qorunması, inkişafı və yaşadılması kimi müstəsna missiyanı Qarabağda da davam etdirir. 30 ildən sonra yenidən Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada keçirilən "Xarıbülbül" festivalında səsləndirilən Azərbaycan muğamlarının sədasının bütün Qarabağa, Azərbaycana, dünyaya səs salması buna ən gözəl örnəkdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakıda və ölkəmizin bir neçə bölgəsində muğam mərkəzləri yaradılıb. İşğaldan azad olunduqdan sonra muğamın mərkəzi sayılan Ağdam rayonunda Ağdam Muğam Mərkəzinin təməlinin qoyulması isə bu sahəyə daha bir müstəsna xidmətdir. Həmçinin fondun təşəbbüsü ilə görkəmli ifaçılarımızın diskləri, kitabları, albomları buraxılır.

Hər zaman muğam sənətinin ustadlarına qayğı və diqqət göstərən Mehriban xanım Əliyeva bu sənətdə olan gənclərin ən böyük hamisi sayılır, onların inkişafı üçün əlindən gələn dəstəyi göstərir.

Fəxr edirik ki, qədim ənənələrə malik milli muğam sənətimiz bu gün daha da inkişaf etdirilərək gələcək nəsillərə layiqli bir şəkildə ötürülür.

***Zümrüd MƏMMƏDOVA,***
***Muğam müsabiqəsinin qalibi***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Gəncədə MDB dövlətlərinin Gömrük Xidməti Rəhbərləri Şurasının 76-cı iclası keçirilib

**Gəncədə Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının Ekspertlərinin və şuranın 76-cı iclası keçirilib.**

İclasda Azərbaycan, Qazaxıstan, Qırğız, Özbəkistan, Rusiya, Belarus, Tacikistan gömrük xidmətlərinin nümayəndələri iştirak ediblər. AZƏRTAC xəbər verir ki, iclasdan əvvəl nümayəndə heyətləri Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər. Həmçinin iclas iştirakçıları Ermənistan silahlı qüvvələrinin Gəncədə törətdikləri terror nəticəsində dağılan əraziyə gəlib, həlak olan dinc sakinlərin xatirəsini anıb, Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Daha sonra gündəlikdə duran məsələlərin müzakirəsinə başlanılıb. İclas iştirakçıları dəmir yolu ilə daşınan malların gömrük əməliyyatları və gömrük nəzarəti zamanı gömrük orqanları və daşıyıcıların fəaliyyətinin təşkili, gömrük xidmətləri arasında ekspert və tədqiqat fəaliyyəti sahəsində əməkdaşlıq haqqında saziş layihəsinin hazırlanması, malların gömrük dəyəri, eyni zamanda əqli mülkiyyət hüquqlarının pozulması ilə bağlı məlumat mübadiləsinin reallaşdırılmasına dair məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Həmçinin üzv dövlətlərin gömrük orqanları tərəfindən nəqliyyat və kommersiya sənədlərinə gömrük orqanlarının möhür və ştamplarının vurulması qaydası və kadr hazırlığı haqqında saziş layihələri ilə bağlı müzakirələr aparılıb.

## Özbəkistan nümayəndə heyəti ölkəmizdəki sosial xidmət və reabilitasiya müəssisələri ilə tanış olub

**DOST Mərkəzində qonaqlar üçün Sosial Xidmətlər Agentliyi və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın fəaliyyətinə dair təqdimatlar edilib.**

Özbəkistan Respublikası Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyinin direktoru Mansurbek Olloyerovun başçılıq etdiyi nümayəndə heyəti 5 saylı DOST Mərkəzi ilə tanış olub.

Mərkəzdə nümayəndə heyəti ilə görüşdə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev ölkəmizdəki sosial xidmət və reabilitasiya sistemi, bu sahələrdə aparılan islahatlar barədə məlumat verib. Görüşdə qeyd olunan sahələrdə təcrübə mübadilələrinin əhəmiyyəti vurğulanıb.

Qonaqlar üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın fəaliyyətinə dair təqdimatlar edilib.

Özbəkistan nümayəndə heyəti səfər çərçivəsində Sosial Xidmətlər Agentliyinin paytaxtın Nərimanov rayonundakı İxtisaslaşmış Sosial Xidmət Mərkəzi, Pirallahı rayonundakı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün yeni günərzi qayğı mərkəzi və bu təbəqədən olan uşaqlar üçün 1 saylı sosial xidmət müəssisəsində, Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Şağan Reabilitasiya Pansionatında olublar.

Nümayəndə heyətinə həmin müəssisələrin fəaliyyəti, həssas əhali qruplarına, əlilliyi olan şəxslərə göstərilən reabilitasiya xidmətləri barədə məlumat verilib. "Birgə və Sağlam" İB-nin Autizm Mərkəzində olan qonaqlar həmçinin Sosial Xidmətlər Agentliyinin sosial işçilərinin həssas qruplara aid uşaqların ailələrinə səfərlər edərək qiymətləndirmə aparması prosesi ilə yaxından tanış olublar.

## 5,5 milyard manat yatırım, 37,7 min iş yeri



**Ölkədə müntəzəm olaraq dövrün çağırışlarına uyğun təkmilləşdirilən qanunvericilik bazası, aparılan iqtisadi islahatlar sahibkarlığın inkişafını da sürətləndirir. Bunun üzərinə dövlət tərəfindən fürsət düşdükcə verilən hər cür dəstəyi də gəlsək, onda özəl sektorun ölkə iqtisadiyyatının etibarlı güvənc yerinə çevrilməsinin əsl səbəbi aydın olur.**

Dövlətin özəl sektora dəstəyi isə səngimir. İnvestisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması məqsədilə Prezidentin "İnvestisiya təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 18 yanvar 2016-cı il tarixli fərmanı, 20 aprel 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası" və investisiya təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı 20 dekabr 2022-ci il tarixli fərmanı ilə investisiya təşviqi mexanizmi yaradılaraq təkmilləşdirilmiş və müvafiq meyarlara uyğun sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxs və fərdi sahibkarların vergi və gömrük güzəştləri əldə etməsi üçün əlverişli şərait yaranmışdır. İnvestisiya təşviqi mexanizminə edilmiş son dəyişikliklərə əsasən, investisiya təşviqi sənədi 2023-cü ilin 1 yanvar tarixindən 3 il müddətində sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları, müvafiq ərazilərdə (Bakı, Sumqayıt, Gəncə şəhərləri, Abşeron rayonu və işğaldan azad edilmiş ərazilər istisna olmaqla, digər şəhər və rayonlarda) həyata keçiriləcək layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyən edilən istiqamətlər üzrə həyata keçiriləcək strateji layihələrə verilir. Yeni mexanizmdə müəyyən edilmiş meyarlara ekoloji baxımdan əhəmiyyətli olan tullantıların təkrar emalı fəaliyyət sahəsi əlavə olunmuş və turizm istiqamətli fəaliyyət sahələri genişləndirilmişdir.

Yeni mexanizm əsasən regionların inkişafına və investisiya potensialının artırılmasına yönəlmişdir. İnvestisiya təşviqi sənədi həmin sənədin əldə olunduğu tarixdən etibarən 7 il müddətində Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. Bu güzəştlərə mənfəət və ya gəlir vergisinin 50 faizindən, torpaq və əmlak vergisindən tam, müvafiq təsdiqedici sənəd əsasında layihə çərçivəsində xaricdən idxal olunan texnika, texnoloji avadanlıq və qurğunun gömrük rüsumu və ƏDV-dən tam azad olması daxildir.

### Bu, 473 sahibkarlıq subyektinə verilmiş 571 investisiya təşviqi sənədi hesabına mümkün olur

Ümumilikdə cari ilin 1 aprel tarixinədək ölkə üzrə 473 sahibkarlıq subyektinə 571 investisiya təşviqi sənədi verilmişdir. İnvestisiya təşviqi sənədi təqdim olunan layihələrin reallaşması nəticəsində yerli istehsala 5,5 milyard manatdan artıq investisiyanın yatırılacağı, 37,7 mindən çox iş yerinin açılacağı nəzərdə tutulur. Təşviq edilmiş layihələrin 14 faizi Bakı şəhəri və ətraf qəsəbələrin, 86 faizi regionların payına düşür. Təqdim edilmiş investisiya təşviqi sənədlərinin 60,6 faizi sənaye, 35,9 faizi kənd təsərrüfatı, 1,9 faizi logistika, 1,6 faizi turizm sahələrində icra olunacaq layihələri əhatə edir. Xatırladaq ki, 2022-ci il ərzində 49 sahibkarlıq subyektinə 50 investisiya təşviqi sənədi təqdim olunmuşdur. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 664,6 milyon manat investisiyanın yatırılması və 2323 yeni iş yerinin açılması nəzərdə tutulmuşdur.

İnvestisiya təşviqi sənədi verilmiş 400-dən artıq layihə artıq fəaliyyətə başlamışdır. Digər layihələrin qurulması üzrə işlər davam edir. Fəaliyyət göstərən müəssisələr üzrə istehsal olunan müxtəlif sənaye və kənd təsərrüfatı məhsulları dünyanın müxtəlif ölkələrinə (MDB, Avropa, ərəb ölkələri və s.) ixrac olunur.

Dövlət tərəfindən cari il aprelin 1-dək investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara (437 sahibkarlıq subyekti) 881,3 milyon dollar dəyərində texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün 5228 təsdiqedici sənəd verilmişdir. Sahibkarlar tərəfindən idxalda tətbiq olunan vergi və rüsumlardan 221,1 milyon dollar məbləğində güzəşt əldə edilmişdir.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## "Baku Crystal Hall"da yerli şirkətlərin sərgisi keçiriləcək

**"Heydər Əliyev və Azərbaycan sahibkarlığı" mövzusunda yerli şirkətlərin sərgisində sənaye, kənd təsərrüfatı, qida, İKT, təhsil, inşaat, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox şirkətin məhsul və xidmətləri təqdim olunacaq.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, iyunun 8-də "Baku Crystal Hall"da "Heydər Əliyev və Azərbaycan sahibkarlığı" mövzusunda yerli şirkətlərin sərgisi işə başlayacaq.

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbir İqtisadiyyat Nazirliyinin dəstəyi, KOBİA və "Marsol Group"un birgə təşkilatçılığı, "Kapital Bank"ın rəsmi tərəfdaşlığı ilə keçiriləcək. Sərgidə sənaye, kənd təsərrüfatı, qida, İKT, təhsil, inşaat, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 150-dən çox yerli şirkətin məhsul və xidmətləri nümayiş olunacaq.

Sərginin təşkilində məqsəd Azərbaycan şirkətlərinin daha geniş tanıdılması, bazarlara çıxış imkanlarının genişləndirilməsi, iş adamları arasında biznes tərəfdaşlığının inkişaf etdirilməsi və yeni əməkdaşlıqların qurulmasıdır. Sərginin başlıca üstünlüyü iqtisadiyyatın bütün sektorları üzrə məhsul və xidmətlərin təqdim olunmasıdır.

İyunun 10-dək davam edəcək sərgi çərçivəsində, həmçinin "Böyük qayıdış - işğaldan azad olunmuş ərazilərdə investisiya imkanları və güzəştlər" və "Müasir çağırışlar fonunda iqtisadi transformasiya: rəqabətli və dayanıqlı bizneslərin formalaşması" mövzularında panel müzakirələr təşkil olunacaq, ikitərəfli görüşlər keçiriləcək.

## ƏƏSMN tərəfindən satışa çıxarılan mənzillərdən artıq 200-ə yaxını satılıb

**Bakının Qaradağ rayonundakı Ümid qəsəbəsində, Abşeron, Samux rayonlarında yeni binalarda yerləşən, çıxarışlı və tam təmirli mənzillərin ms.sosial.gov.az portalı üzərindən onlayn satışı davam edir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən ms.sosial.gov.az portalı üzərindən onlayn satışı həyata keçirilən mənzillərdən artıq 200-ə yaxını satılıb.

Mənzilləri alan şəxslər tərəfindən mənzillərin dəyəri tam ödənilməklə onlarla notariat qaydasında təsdiq edilmiş alqı-satqı müqaviləsi bağlanıb və mənzillər sahiblərinə təqdim olunub.

Hazırda 1400-dən çox mənzilin ms.sosial.gov.az portalı üzərindən bron edilməsi və bron etmiş şəxslərlə əlaqə saxlanılaraq onların bron etdikləri mənzillərin alqı-satqısına dəvət olunması prosesi davam edir.

Mənzillərdən maksimum 3 mənzili bron etmək imkanı verilir.

Bakının Qaradağ rayonundakı Ümid qəsəbəsində, Abşeron rayonunda ("Stansiya Sumqayıt" kimi tanınan ərazi) və Samux rayonunda yeni binalarda yerləşən həmin mənzillər hər biri çıxarışlı və tam təmirlidir.

## Bu, artıq üçtərəfli əməkdaşlıqdır

### Qazaxıstan-BƏƏ birgə müəssisəsi Azərbaycanla əlaqələrini genişləndirir

**Qazaxıstanın "KazMunayQaz" şirkətinin əməkdaşlarını azərbaycanlı həmkarları ilə çoxillik dostluq və əməkdaşlıq əlaqələri birləşdirir. Azərbaycanla Qazaxıstan arasında iqtisadi münasibətlər genişləndikcə bu əlaqələr yeni mərhələlərə qədəm qoyur.**




CIMS (Caspian Integrated Maritime Sulutions) şirkətinin baş direktoru Şerxan Suqurbekov da söhbətinə məhz Azərbaycan-Qazaxıstan əlaqələrinin yüksək səviyyədə olduğunu xatırlatmaqla başladı. Onunla "Bakı Enerji Həftəsi" davam etdiyi günlərdə "Bakı-Ekspo" Mərkəzində tanış olduq. Öyrəndik ki, CIMS "KazMunayQaz"la Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "ABU DABİ Ports" şirkətinin yaratdıqları birgə müəssisədir.

Həmsöhbətimiz Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin keçən ilin avqustunda Azərbaycana və Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin aprel ayında Qazaxıstana rəsmi səfər etmələrini yada saldı. Belə ki, bu səfərlər çərçivəsində prezidentlərin istər təkbətək və geniş tərkibdə görüşlərində, mətbuata bəyanatlarında, istərsə də imzalanan sənədlərdə iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın dərinləşməsinə və şaxələndirilməsinə geniş yer verilir. Ölkələrimizin əməkdaşlığı qarşılıqlı etimada, səmimi münasibətə əsaslanır. İndiyədək "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında 2022-2026-cı illər üzrə əməkdaşlığın inkişaf etdirilməsi haqqında Kompleks Proqram" və "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə", həmçinin müxtəlif strukturlar tərəfindən onlarca sənəd imzalanıb.

Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan-BƏƏ iqtisadi əməkdaşlığı da getdikcə vüsət alır. Xüsusilə son dövrlərdə bərpaolunan enerji sahəsində həyata keçirilən layihələr xüsusi önəm kəsb edir. BƏƏ və Qazaxıstan əlaqələrinin genişləndirilməsi də təqdirəlayiqdir. Bütün bunlar gənc CIMS müəssisəsinin qarşısında perspektivlər açır. Dəniz daşımaları ilə məşğul olan müəssisə mənzil başına müxtəlif təyinatlı yüklər çatdırır. Bunların sırasında neft, konteynerlər, taxıl, metal, dəniz yataqları və digər sahələr üçün yüklər var. SIMS "KazMunayQaz" və SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) arasında imzalanan müqavilələr çərçivəsində, eləcə də Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin fəaliyyəti ilə bağlı bir sıra işlər həyata keçirir.

- BTC ilə birbaşa əlaqəmiz var. Qazaxıstan neftini bu kəmərə qoşmaq üçün Səngəçal terminalınadək çatdırırıq. Doğrudur, hələ ki, köhnə tankerlərlə. Lakin iki təzə tanker almışıq. Hazırda onların tikintisi yekunlaşmaq üzrədir. Odur ki, yaxın aylarda daşımalarımız yeni tankerlərlə həyata keçiriləcək, - deyə Şerxan Suqurbekov bildirir.

O, rəhbəri olduğu müəssisənin də iştirak etdiyi Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi haqqında fikirlərini bölüşdü. Bu ənənəvi tədbirlə yanaşı, Energetika və "Yaşıl Enerji", eləcə Nəqliyyat və Logistika sərgilərinin keçirilməsinin təqdirəlayiq olduğunu dedi. Çünki indiki zamanda həmin sahələr bir-birilə çox sıx bağlıdır və bunsuz onların inkişafını təsəvvür etmək çətindir:

- Sərgi mərkəzində əvvəlki illərdə olduğu kimi, yenə də SOCAR-ın, bp-nin, "Total"ın və bir çox digər köhnə iştirakçıların stendlərini görürəm. Yeni iştirakçılar da çoxdur və bu, yaxşı haldır, yeni tanışlıqlar, yeni əlaqələr deməkdir. Doğrudur, hər tanışlıq heç də işbirliyi yaratmaqla, müqavilə imzalamaqla yekunlaşmır. Amma yenilikləri görmək, fikir mübadiləsi aparmaq özü də kiçik məsələ deyil.

Azərbaycanı çox sevdiyini söyləyən qazaxıstanlı həmsöhbətimiz Bakı ilə yeni görüşündən də məmnun olduğunu bildirdi:

- Ölkənizin nailiyyətlərini daim izləyirik, bir sıra beynəlxalq tədbirlərə evsahibliyi etməyinizdən qürur duyuruq. Görürük ki, Azərbaycan getdikcə həm də daha çox turistin diqqətini çəkir. Bütün bunlar bizi sevindirir. Burada çoxlu dostlarımız var və bu dostluq bizim birgə işlərimizə təkan verir.

***Flora SADIQLI, "Azərbaycan"***

## AÇG-dən hasil edilən qazın həcmi açıqlanıb

**Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan işlənməyə başladıqdan 2023-cü il mayın 1-dək 207,8 milyard kubmetr qaz hasil olunub. Bu barədə Trend-ə neft-qaz bazarındakı mənbədən məlumat verilib.**

Həmin müddət ərzində "Çıraq" yatağında hasilatın ümumi həcmi 30,4 milyard, "Azəri" və "Dərinsulu Günəşli" yataqlarında isə müvafiq olaraq 160 milyard və 17,4 milyard kubmetr olub.

Layihənin operatoru olan bp-nin son məlumatlarına əsasən, 2023-cü ilin birinci rübündə "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda hasilatın ümumi həcmi 2022-ci ilin birinci rübündəki gündəlik 434 min barellə müqayisədə gündə orta hesabla 386 min barelə düşüb.

Xatırladaq ki, AÇG-də iştirak payları aşağıdakı kimidir: bp (30,37%), SOCAR (25,0%), MOL (9,57%), İNPEKS (9,31%), Ekvinor (7,27%), EksonMobil (6,79%), TPAO (5,73%), İTOÇU (3,65%), ONGCVideş (2,31%).

AÇG üzrə Hasilatın Pay Bölgüsü haqqında sazişin podratçı tərəfləri adından "BP Exploration (Caspian Sea) Limited" şirkəti operatordur.

## Fumiqasiya tədbirləri davam edir

**Aqrar Xidmətlər Agentliyinin Bitki Mühafizəsi və Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzi fiziki və hüquqi şəxslərin müraciəti əsasında fumiqasiya tədbirlərini davam etdirir.**

Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumata görə, cari ilin may ayı ərzində ölkə ərazisində 8362,12 ton dənli və paxlalı bitkilərin məhsulları, yemlər, texniki yüklər, qurudulmuş meyvələr və digər materiallar (tütün, pambıq, biyan və digər karantin nəzarətində olan materiallar), 38061,216 $m^3$ meşə materialları (taxta altlıqlar (paletlər), qutular və s), 118942,4 $m^3$ saxlanma yeri, 76 $m^3$ yaş meyvə və tərəvəz, 65000 $m^3$ istixana və digər yerlər zərərsizləşdirilmişdir.

Keçirilən fumiqasiya (zərərsizləşdirmə) tədbirləri nəticəsində ölkə ərazisində, sahibkarlara məxsus istehsal və saxlanma yerlərində fitosanitar vəziyyət sabitləşmiş, idxal olunan məhsullarda zərərvericilərin ölkə ərazisinə daxil olmasının və yayılmasının qarşısı alınmışdır.

Bildiririk ki, zərərsizləşdirmə tədbirləri karantin nəzarətində olan məhsulların becərilməsi, tədarükü, saxlanması, daşınması, emalı, satışı, habelə onların idxalı, tranziti və ixracı ilə məşğul olan hüquqi və fiziki şəxslər üçün məcburidir. Tələblərə riayət etməyən şəxslər fitosanitar tədbirlərin pozulmasına görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar. Yüksək toksiki maddələr olduğuna görə qeyri-dövlət fitosanitar xidməti subyektləri tərəfindən fumiqasiya tədbirlərinin aparılmasına yol verilmir.





# Mədəniyyət



● Amansız rejimin qurbanı

**1938-ci il martın 16-da Azərbaycan Xalq Daxili İşlər Komissarlığı Dövlət Təhlükəsizlik İdarəsinin birinci bölməsinin 3-cü şöbə rəisinin müavini leytenant Tevosyan belə bir arayış hazırlayır: "Türk və ingilis qərargahları Bakıda olduqları zaman 1893-cü ildə anadan olan, Azərbaycan Dövlət Konservatoriyasının keçmiş müəllimi Xədicə xanım Qayıbova onlarla yaxın əlaqədə idi, həmin qərargahların zabitlərini evinə qonaq çağırırdı.**



## Azərbaycanın ilk peşəkar qadın pianoçusu

Azərbaycanın sovetləşməsindən sonra Qayıbova öz evində "Müsavat" firqəsinin liderlərindən olan Mustafa Vəkilovu gizlətmişdir... 1924-cü ildə Qayıbovanın evində türk ordusunun zabiti azərbaycanlı Sultan Hüseynzadə gizlənirdi. Qayıbovanın evindən o, İrana qaçıb və orada alman və yapon kəşfiyyatlarına xidmət etmişdir. Qayıbovanın həyat yoldaşı Rəşid Qayıbov Azərbaycan SSR XDİK tərəfindən əksinqilabi-millətçi təşkilatının üzvü kimi həbs edilmişdir...

Yuxarıdakılara əsasən, X.Qayıbova həbs olunub. Azərbaycan SSR CM-nin 68-ci maddəsinə görə istintaqa cəlb edilməlidir".

Xədicə Qayıbova Azərbaycanın ilk peşəkar qadın pianoçusu idi. Muğamlarımızı yüksək sənətkarlıqla fortepianoda ifa edir, xalq mahnıları əsasında improvizələr yaradırdı. O, ötən əsrin 20-ci illərinin əvvəllərindən açıq konsertlər verir, müəllimlik edir, musiqi sahəsində böyük təşkilatçılıq işləri aparırdı. Lakin əsrin 30-cu illərində Stalin rejiminə qulluq edən məmurlar, əslində isə həmin rejimin nökərləri bu xanıma elə bir amansız damğa vururlar ki, indi yeni nəsillər onu pianoçudan daha çox repressiya qurbanı kimi xatırlayırlar.

O dövrdə hakimiyyət kürsülərində özlərinə yer tutmuş tarixi düşmənlərimizin - ermənilərin nümayəndələrinin əlinə fürsət düşmüşdü. Onlar qəddar siyasi rejimin ab-havasından bəhrələnərək azərbaycanlıları addımbaşı zərbələrlə qarşılayırdılar.

Erməni leytenantın arayışında göstərilirdi ki, Xədicə xanımın evinə guya sovet dövlətinin və xalqının düşmənləri, müsavatçılar, pantürkistlər toplaşırdı. Amma erməni leytenant səhv edirdi. Bura dövrün ən qabaqcıl insanları - ziyalılar, musiqiçilər, şair və yazıçılar, elm xadimləri, aktyorlar yığışırdılar. Xədicə xanım həmin məclislərdə Azərbaycan milli musiqisinin gələcəyi, xalq nəğmələrinin mühafizə olunması, qadın musiqiçilərin təhsil imkanları haqqında müzakirələr keçirirdi. Bu, öz missiyasını dərk edən o dövrün Azərbaycan ziyalısının parlaq fəaliyyətiydi. Qonaqlar arasında dövlət xadimləri, Bakıya qastrol səfərinə gələn ifaçılar, xarici ölkələrin, xüsusilə Türkiyənin ezamiyyətdə olan alimləri, şairləri var idi. Əgər həmin məclislərə Üzeyir bəy Hacıbəylinin, F.Köprülüzadənin, R.Qliyerin, L.Rudolfun, L.Abın, M.Pressmanın, H.Sarabskinin, Bülbülün, V.Qorovitsin, N.Milşteynin və dövrün neçə-neçə digər ziyalısının, incəsənət xadiminin də gəldiyini desək, onda buranın nə qədər işıqlı, bütün qaranlıq fikirlərdən uzaq, mütərəqqi bir yer olduğu daha aydın görünər.

Bu il Xədicə xanımın anadan olmasının 130 ili tamam olur. O, 1893-cü il mayın 24-də Tiflis şəhərində dünyaya göz açmışdı. Atası tanınmış din xadimi Osman Müftizadə el arasında böyük hörmət və nüfuz sahibi idi. Anası Züleyxa xanım Terequlovlar nəslindən idi. Valideynləri çox arzulayırdılar ki, altı uşağın ilki olan Xədicə təhsilli bir xanım olsun. Onlar öz imkanları daxilində bu arzunu həyata keçirməyə çalışırdılar. Odur ki, qızlarını dövlət hesabına oxutdurmaq üçün Qafqaz canişinliyinə ərizə göndərirlər və Xədicə püşkatma yolu ilə Tiflisdəki "Müqəddəs Nina" qızlar məktəbinə daxil olur.

1911-ci ildə Xədicə təhsilini başa çatdırır və həmin il çox gənc ikən yol mühəndisi Nadir Qayıbovla ailə həyatı qurur. Nadir Qafqaz müftisi məşhur Mirzə Hüseyn Əfəndi Qayıbzadənin oğlu idi.

X.Qayıbova Tiflisdə bir müddət müəllimlik edərək tatar məktəbində dərs deyir. 1919-cu ildə isə onlar ailəliklə Azərbaycana köçürlər. Xədicə xanım tezliklə şəhərin mədəni həyatına qatılmağa başlayır. Qadın sənətçilərin az olduğu Bakıda qısa müddətdə şöhrətlənir, kübar məclislərində iştirak edir. "İsmailiyyə"də düzənlənən konsertlərdə muğamlarımızı, xalq mahnılarını fortepianoda böyük məharətlə çalır, hamının rəğbətini qazanır.

X.Qayıbova Bakıda ilk türk konservatoriyasının yaradıcısı olur. Həmin dövrdə qadınlar üçün Musiqili Dram Teatrının açılması da onun xidmətləri sırasındadır.

Xədicə xanım iki dəfə ailə həyatı qurmuşdu. İstər əvvəlki, istərsə də sonrakı həyat yoldaşı dövrün ziyalı insanları olmuşlar. Yazılanlara görə, birinci ailəsi tez dağılmışdı. İkinci həyat yoldaşı - Rəşid Qayıbovu isə ictimai-siyasi fəaliyyətində dövlət əleyhinə iş aparılması və əksinqilabi-millətçi təşkilatın üzvü kimi 1937-ci ilin noyabrında həbs etmişdilər. O da repressiya qurbanlarından olmuşdu. Lakin tale bu gözəl xanıma bir cüt övlad payı vermişdi. O, axırıncı dəfə həbs olunarkən oğlu Əbdülkərim 23, qızı Alanqu 11 yaşında idi.

Bu zaman 45 yaşlı Xədicə xanım Şah döngəsindəki 16 nömrəli evdə yaşayırdı. Ömrünün çiçəklənən bir dövründə, 1938-ci il martın 17-də Dövlət Təhlükəsizlik İdarəsi onu 4390 nömrəli orderə əsasən həbs edir (ikinci əri Rəşid bu vaxt artıq həbsdə idi). Qızı Alanqu xanım həmin günü belə xatırlayır: "Gecə gəlmişdilər. Səs-küyə ayıldım. Anam həmin gəlişə nə qədər hazır olsa da, sarsılmışdı. Rəngi ağappaq idi. Bibim Nigarın əri general Şıxlinski qardaşım Əbdülkərimə gözəl bir şaşka bağışlamışdı. Əsl sənət əsəri idi. Divardan, xalçanın üstündə asılmışdı. Onu da götürdülər".

Beləliklə, bir neçə gündən sonra Qayıbovanın istintaqı başlanır. Martın 20-də keçirilən birinci dindirmədə müstəntiq Xədicə xanımın əksinqilabi fəaliyyətlə məşğul olduğunu, türkçülük ideyalarının yayılması yönümündə xüsusi iş apardığını söyləyir. O, bu ittihamı qəti şəkildə rədd edir. Sonra müstəntiq xaricdə yaşayan qohumları, tanışları barədə soruşur. 1938-ci il martın 23-də keçirilən ikinci dindirmədə onun türk və ingilis qoşun zabitlərindən kimləri tanıdığı barədə ifadə verməyə israr edirlər. Diqqəti çəkən cəhət budur ki, bu möhkəm iradəli xanım istintaq zamanı düzü düz, əyrini əyri danışır. Onun boynuna yalan qoya bilmirlər.

X.Qayıbovanın işi üzrə istintaqın qurtarması haqqında protokol 1938-ci il mayın 7-də tərtib edilir. Ertəsi gün isə müstəntiq Tevosyan 23311 nömrəli istintaq işi üzrə ittihamnamə yazır. Qayıbova Azərbaycan SSR Cinayət Məcəlləsinin 68-ci maddəsi ilə müqəssir hesab olunur. O, 6 ay həbsxanada saxlanılır. Lakin heç vaxt ağlına belə gətirmir ki, onu güllələyə bilərlər.

Yarım ildən sonra qərar çıxarılır ki, Xədicə Osman qızı Qayıbova Türkiyə konsulxanası ilə əlaqəsinə və casusluq fəaliyyətinə görə güllələnsin, şəxsi əmlakı müsadirə edilsin. Onun məhkəməsi 15 dəqiqə çəkir. Hökm 1938-ci il oktyabrın 27-də icra edilir.

Xədicə xanımın övladları və qohumları onun güllələndiyini düz 16 il sonra bilirlər. O vaxta qədər isə ailə elə düşünür ki, ona məktublaşmadan məhrum olaraq 10 il həbs cəzası verilib. 1954-cü ildə Xədicə xanımın qızı Alanqu Sultanova Azərbaycan SSR Daxili İşlər Nazirliyinə anasının işi ilə bağlı müraciət edir. 1955-ci ildə isə Dövlət Təhlükəsizlik Komitəsinin Xüsusi şöbəsinin baş müstəntiqi repressiya qurbanının qızına cavab göndərir. Laqeydlik, soyuqqanlıq, biganəlik hopmuş bir neçə cümlə ilə bildirilir ki, X.Qayıbovanın heç bir günahı yox imiş, o, Ə.Fərəczadənin verdiyi yoxlanılmamış və yalan ifadələr əsasında cəzalandırılıb. Bu ifadələr isə D.Bünyadzadənin işində olan sənədlərdə öz təsdiqini tapmayıb. X.Qayıbovanın casusluğunu göstərən heç bir material əldə edilməyib və buna görə də iş xətm olunmalıdır. 1956-cı ildə qızına X.Qayıbovanın bəraət alması haqqında arayış verilir.

Bəraət vermək asan, vurulan yaraları sağaltmaq isə çox çətindir. Belə ağır mənəvi və fiziki zərbələrdən biri də Stalin repressiyalarının, ona dəstəkçi olan erməni məmurların, müstəntiqlərin əli ilə saf duyğulu, təmiz əxlaqlı azərbaycanlı qızı, görkəmli pianoçu Xədicə Qayıbovaya, onun nəslinə vuruldu. Onun pianosundan qopan nikbin akkordlarda siyasi motivlər axtardılar və "tapdılar".

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Unudulmazlar

## Teatr sənətinin fədaisi

**Azərbaycan teatr sənətinin inkişafında xidmətləri olan aktyor, dramaturq, Xalq artisti Hacıağa Abbasov 1888-ci ilin iyununda Bakının Maştağa kəndində müəllim ailəsində dünyaya gəlib. İlk təhsilini Maştağa kəndində rus-tatar məktəbində alıb. Sonra təhsilini Bakı şəhərində davam etdirib. Görkəmli ziyalı, maarifçi Həbib bəy Mahmudbəyovun və Sultan Məcid Qənizadənin açdığı rus-müsəlman məktəbində oxuyub. Ərəblinski təxəllüsü ilə tanınan Hüseyn Xələfovla da o illərdə görüşüb. Bu görüş Hacıağa Abbasovun yaddaşında silinməz izlər buraxıb.**



O, 1905-ci ildə səhnə fəaliyyətinə Mirzə Fətəli Axundzadənin "Hekayəti-Molla İbrahimxəlil kimyagər" əsərində Molla İbrahimxəlil rolu ilə başlayıb. Teatr sənətinə ürəkdən bağlanıb. Aktyor kimi səhnəyə çıxanlara cəmiyyətin düşmən kəsildiyi vaxtda bu yolu seçmək böyük cəsarət tələb edirdi. Aktyorları təqdir edənlər az, onlara qınaqla baxan, qara yaxanların, təqiblərə, təhqirlərə məruz qoyanların çox olduğu vaxtlar idi. Ancaq bu çətinliklər, bu maneələr Hacıağa Abbasovun gözünü qorxuda bilməyib.

Həmin illərdə Hacıağa Abbasov həm də təhsilini davam etdirmək arzusu ilə yaşayıb. 1906-cı ildə o, Port-Petrovsk (indiki Mahaçqala) şəhərinə gedib. Pedaqoji təhsil almağa başlayıb. Mahaçqalada olanda da səhnədən ayrılmayıb. Orada azərbaycanlılardan ibarət teatr truppası yaradıb. Bir müddət sonra həmin truppa Teymurxanşurada (Dağıstanın indiki Buynaksk rayonu) teatra çevrilib.

Hacıağa Abbasov tərcüməçiliklə də məşğul olub. O, hələ təhsil illərində rus dilini mükəmməl öyrənib. Rus ədəbiyyatını, xüsusilə də Lev Tolstoyun əsərlərini böyük həvəslə oxuyub. Rus dilindən əsərlər tərcümə edib, onları tamaşaya qoyub. Tolstoyun yaradıcılığına marağı onu 1907-ci ildə görkəmli rus yazıçısının Yasnaya Polyanadakı mülkünə aparıb. Tolstoyla unudulmaz görüşü barədə Hacıağa Abbasov sonralar xatirələrində yazıb: "Mən böyük ədibə Azərbaycan oxucuları tərəfindən çox sevildiyini dedim. O, xeyli məmnun oldu. Biz ayrılarkən "Hərb və sülh" kitabına "Yadigar üçün L.N.Tolstoydan" sözlərini yazıb, mənə bağışladı".

1909-cu ildə təhsilini başa vurub. Həmin ilin sonlarında müəllim diplomu ilə Bakıya qayıdıb. Balaxanı kəndində Mirzə Ələkbər Sabirlə bir yerdə müəllim işləyib. Teatr sənətinə sevgisi onu yenə də səhnəyə aparıb. Müsəlman Artistləri Cəmiyyəti İttifaqının "Nicat", "Həmiyyət" teatr truppalarının fəal üzvü olub. Sonra "Şəfa" cəmiyyətinin teatr truppasında, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyov qardaşlarının müdiriyyəti" adlı teatr truppasında aktyorluq fəaliyyətini davam etdirib.



Hacıağa Abbasov bir sıra incəsənət xadimləri arasında

Dostu, sənət yoldaşı Mirzağa Əliyevlə birlikdə 1921-ci il noyabrın 13-də Bakı Türk Azad Tənqid və Təbliğ Teatrını yaradıb. Teatrın açılışında o dövrün görkəmli mədəniyyət və dövlət xadimləri - rus rejissoru Konstantin Stanislavski, Nəriman Nərimanov, mühəndis Zivər bəy Əhmədbəyov, Əzim Əzimzadə, Məmməd Səid Ordubadi iştirak ediblər.

Hacıağa Abbasov həmin teatrın direktoru olub. Elə onun səhnə fəaliyyətinin mühüm hissəsi də yaratdığı və rəhbərlik etdiyi Tənqid-Təbliğ Teatrı ilə bağlı olub.

Hacıağa Abbasov əsasən komik rolların mahir ifaçısı kimi tanınıb. O, oynadığı Şeyx Nəsrullah ("Ölülər"), Mirzə Mehdi xan ("Nadir şah"), Şamdan bəy ("Şamdan bəy"), Ağa Kərim xan ("Ağa Kərim xan Ərdəbili"), Hacı Qəmbər ("Hacı Qəmbər"), Molla İbrahimxəlil ("Molla İbrahimxəlil kimyagər"), Qubad ("Dəmirçi Gavə"), Osip ("Müfəttiş"), Moisey ("Yəhudilər") və başqa rollarla tamaşaçıların sevgisini qazanıb. Görkəmli aktyor Üzeyir bəy Hacıbəylinin operettalarında - "Məşədi İbad"da Məşədi İbad, "Arşın mal alan"da Soltan bəy, "Ər və arvad"da Kəblə Qubad rollarını ayrı-ayrı quruluşlarda dönə-dönə uğurla ifa edib.

Hacıağa Abbasov 1927-ci ildə Milli Dram Teatrının direktoru vəzifəsinə təyin olunub. Bir müddət burada çalışıb. Fədakar mədəniyyət xadimi, teatr təşkilatçısı kimi də öz bacarığını göstərib.

O, eyni zamanda yeni aktyor nəslinin yetişdirilməsində böyük işlər görüb. Bu xidmətlərinə görə 1929-1937-ci illərdə Bakı Teatr Texnikumuna rəhbər təyin edilib.

Mütaliəyə hər zaman böyük maraq göstərib. Dünya dramaturqlarının yaradıcılığını öyrənib. Bir sıra əsərləri ana dilimizə tərcümə edib. Dramaturgiyaya marağı onu bu sahədə qələmini sınamağa həvəsləndirib. "Bakının fəthi", "Ağa Məhəmməd şah Qacar və Molla Pənah Vaqif", "Əsgər oğluma", "Sabirin məhkəməsi", "Rus macərası" kimi dövrlə səsləşən, maraqlı pyeslər qələmə alıb.

O, yalnız ayrı-ayrı ədiblərin əsərlərini deyil, həm də özünün yazdığı pyesləri də uğurla tamaşaya qoyub.

Teatr sənətinin inkişafında göstərdiyi xidmətləri mükafatlandırılıb. 1932-ci ildə Hacıağa Abbasov sənətdə qazandığı nailiyyətlərə və teatr sənətinin inkişafında xidmətlərinə görə, Xalq artisti fəxri adına layiq görülüb.

Sovet hökumətinin həyata keçirdiyi repressiya siyasəti Hacıağa Abbasovun da həyatına tufanlar, qasırğalar gətirib. O da Azərbaycanın qabaqcıl ziyalılarının bir çoxu kimi təqiblərə məruz qalıb. Bu səbəbdən vətənini tərk etmək məcburiyyətində olub. Bir müddət Orta Asiya respublikalarında yaşayıb. Yaşamağa məcbur olduğu Orta Asiyada səhnə fəaliyyətini davam etdirib, teatr truppaları, dərnəklər yaradıb.

O, Böyük Vətən müharibəsi illərində respublika Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsi rəisi vəzifəsinə təyin edilib. Qazax, Şamaxı, Göyçay, Zaqatala və Bərdədə teatrların yaradılmasında müstəsna xidmətlər göstərib.

Hacıağa Abbasov uzun ömür sürüb. 1975-ci il mayın 7-də səksən yeddi yaşında Bakıda vəfat edib. İkinci Fəxri xiyabanda dəfn olunub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Azərbaycan teatrı - 150

## Səhnə insanları sehirləyən məkandır

**Lənkəran Dövlət Dram Teatrı Azərbaycan mədəniyyətinin inkişafında, xalqımızın milli ruhunun yaşadılmasında xüsusi xidmətləri olan mədəniyyət ocaqlarındandır. Bu teatrın tarixi əslində XIX əsrin 90-cı illərinə təsadüf edir. Mənbələrdən məlumdur ki, XIX əsrin sonlarında və XX əsrin əvvəllərində artıq Lənkəranda teatr mühiti formalaşmışdı. 1934-1949-cu illərdə teatr fəaliyyət göstərsə də, sonralar qeyri-müəyyən səbəblərdən fəaliyyəti dayandırılmışdır. Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra onun xeyir-duası ilə 1973-cü il dekabrın 6-da Lənkəran Dövlət Dram Teatrı öz fəaliyyətini yenidən bərpa etmişdi.**



Bu sənət ocağı repertuarında Azərbaycan dramaturqlarının əsərləri ilə yanaşı, Qərbi Avropa, rus və digər ölkə xalqlarının dramaturgiyasına da müraciət edərək yüzlərlə əsərə səhnə həyatı vermişdir. Lənkəran Dövlət Dram Teatrı təkcə respublikamızda deyil, həmçinin bir sıra xarici ölkələrdə keçirilən beynəlxalq festivallarda da uğurla çıxış etmişdir.

Prezident İlham Əliyevin "Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında" 3 fevral 2023-cü il tarixli sərəncamı teatrın yaradıcı kollektivini yeni uğurlara səfərbər edib. Bu teatrın yaradıcı kollektivi zamanın nəbzini tutan səhnə əsərlərini yüksək səviyyədə tamaşaya qoymaqdan ötrü böyük əmək sərf edir. Teatrda normal yaradıcılıq mühiti formalaşıb. Hazırda teatrda 2 xalq artisti, 3 əməkdar artist, bir Prezidentin fərdi təqaüdçüsü və 3 Prezident mükafatçısı, həmçinin onlarca sənət fədaisi çalışır. Lənkəran Dövlət Dram Teatrının ədəbi-dram hissə rəhbəri Ağaddin Babayev deyir ki, ortalığa əsl sənət nümunəsi qoymağa çalışırlar: "Bunun üçün alternativ variantlardan istifadə edirik. Afişalarla bərabər sosial şəbəkələrdə tamaşaların tizerlərini, rolikləri reklam edirik. Əlbəttə ki, bu cür reklamlar öz təsirini göstərir. Əvvəllər 15-20 nəfər tamaşaçımız olurdusa, indi tamaşaya gələnlərin sayı xeyli artıb".

Bu il teatrda 4 tamaşanın "Nuru babanın sərgüzəştləri" (müəllif və quruluşçu rejissor İ.Hacılı), "Gəl baharım, gəl yazım" (müəllif və quruluşçu rejissor A.Babalı), "Qapıda öpüş" (müəllif və quruluşçu rejissor İ.Hacılı), "Yaşayan ölü" (müəllif K.Məmmədova, quruluşçu rejissor A.Babalı), habelə 20 Yanvar və 26 fevral Xocalı soyqırımına həsr olunmuş iki ədəbi-bədii kompozisiyanın premyerası keçirilib.

Cari ilin repertuar planına uyğun olaraq K.Məmmədovanın "Yaşayan ölü" tamaşası ilə yanaşı, hazırda teatrın səhnəsində paralel olaraq Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Q.Nəcəfzadənin "İki iyirmi üç arasında" (quruluşçu rejissor Emil Əskərov), Ç.Aytmatovun "Cəmilə" (quruluşçu rejissor İmran Ali Qurban), Ə.Haqverdiyevin "Kimdir müqəssir" vodevilinin motivləri əsasında "Müqəssir" (quruluşçu rejissor Abdulla Elşadlı), Avstriya dramaturqu Piter Turrininin "Bu da axırı" (quruluşçu rejissor Abdulla Elşadlı), Təranə Vahidin "Mən toz dənəsiyəm" (quruluşçu rejissor Emil Əskərov) əsərlərinin də məşqləri davam etdirilir.

Payız mövsümündə isə teatrın yaradıcı kollektivi repertuardan kənar rumın yazıçısı Matey Vişnekin "Bu ölkə sənin qədrini bilir" pyesinin motivləri əsasında "Telefon aparatı" (quruluşçu rejissor İntiqam Hacılı), M.Bulqakovun "Ağıldankəm Jurden", Hüseyn Cavidin "İblisin intiqamı", V.Şekspirin "Kral Lir" və F.Arrabalın "Piknik" pyesləri üzərində də işləməyi planlaşdırıblar.

Cari ilin dekabrın 6-da yubileyini qeyd etməyə hazırlaşan kollektiv üzvləri teatrın aparıcı səhnə ustaları, Xalq artistləri Qabil Quliyevin və Böyükxanım Əliyevanın, aktrisa Şahrud Mehdiyevanın səhnə fəaliyyətlərinin 50 illiklərini də qeyd etmək niyyətindədirlər.

İyun ayından isə "Heydər Əliyev İli" və Azərbaycan Peşəkar Milli Teatrının 150 illik yubileyi münasibətilə "Uçan səhnə" adlı layihəyə start veriləcək. Layihə çərçivəsində teatr truppası rayonun ucqar yaşayış məntəqələrini gəzəcək, məktəb yaşlı sakinlərlə görüşərək onların qarşısında tamaşa və eyni zamanda əyləncəli proqramlarla çıxış edəcək.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Xəbər

## Özbəkistanda Azərbaycan musiqisi günləri

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi və təşkilatçılığı ilə Daşkənd və Səmərqənd şəhərlərində Azərbaycan musiqisi günləri keçirilir.**



Səmərqənd şəhər Gənclər sarayının böyük konsert zalında baş tutan tədbirdə dövlət və hökumət nümayəndələri, mədəniyyət və incəsənət xadimləri, yerli azərbaycanlılar və özbəklər iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Səmərqənd şəhər Gənclər sarayının foyesində Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən təşkil edilmiş Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunan foto və nəşrlərdən ibarət sərgi ilə tanış olublar.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov Azərbaycan mədəniyyətinə aid böyük tədbir və konsertlərin demək olar ki, hər il qədim Səmərqənd şəhərində keçirildiyini və Azərbaycan mədəniyyəti, musiqisinə hər zaman qardaş ölkədə böyük marağın olduğunu vurğulayıb.

Samir Abbasov Azərbaycan və özbək xalqlarının tarixi yaxınlığını, ortaq mədəni dəyərlərə sahib olmasını vurğulayaraq, "Özbəkistanda Azərbaycan musiqisi günləri"nin Azərbaycan mədəniyyətinin böyük hamisi Ümummilli Lider Heydər Əliyevə həsr edildiyini bildirib.

Daha sonra "Özbəkistanda Azərbaycan musiqisi günləri" çərçivəsində Azərbaycan və Özbəkistanın Xalq artisti Gülyanaq Məmmədova "Can Azərbaycandan can Özbəkistana sevgilərlə" adlı konsert proqramı ilə çıxış edib. Azərbaycan və özbək mahnılarını ifa edən Gülyanaq Məmmədova xalq mahnılarımızı, muğamlarımızı səsləndirərək tamaşaçıların çoxsaylı alqışları ilə qarşılanıb.

Qeyd edək ki, Azərbaycan musiqilərinə tarixi Səmərqənd şəhərində böyük maraq göstərilir, şəhərdə keçirilən tədbirlərdə, el şənliklərində, habelə xalq arasında mərasimlərdə Azərbaycan milli musiqisi sevgi ilə ifa olunur.

## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 07.06.2023-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.


*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tender elan edir

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Bakı, Gəncə, Mingəçevir, Şəki,Şirvan şəhərlərində və Salyan, Qax, Ağsu, Ağdaş, Astara rayonlarında 1, 2 və 3 otaqlı mənzillərin satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (telefon: (012) 526-01-01 (2637)) ünvanından ala bilərlər.

**İştirak haqqı: 300 AZN**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/h: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *İştirak haqqının ödənilməsi ilə bağlı bank sənədi;*
3. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(Sənədin əsli təqdim edilməlidir və ya surəti olduğu təqdirdə notarial qaydada təsdiq edilməlidir);***
4. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
5. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədəolma müddəti tender təklifinin qüvvədəolma müddətindən 30 bank günü çox olmalıdır);*
6. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən ayı və sonrakı dövrü əhatə etməlidir);***
7. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir, 2022-ci il üzrə);***
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
9. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
10. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
11. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
12. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
13. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir);***
14. *Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları rəsmi sorğu vasitəsilə Tender komissiyasına ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **03 iyul 2023-cü il saat 15:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **11 iyul 2023-cü il saat 15:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **12 iyul 2023-cü il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının balansında olan nəqliyyat vasitələrinə texniki xidmətin satın alınması ilə bağlı elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə Satınalmalar komissiyasının 31 may 2023-cü il tarixli qərarına əsasən "START GROUP SERVİCE" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***


## OXUCULARIN NƏZƏRİNƏ!

“AZƏRBAYCAN” *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bu il Aralıq dənizi vasitəsilə Avropaya 61 minə yaxın qaçqın gəlib

## Avropa İttifaqı qeyri-leqal miqrasiyaya qarşı yeni plan hazırlayıb

**Avropa İttifaqı (Aİ) qanunsuz miqrasiyaya qarşı mübarizə üçün yeni planını açıqlayıb. Bu plana Qərbi Aralıq dənizi və Atlantik regionlarında qeyri-leqal keçidlərin qarşısının alınması, ölkələrinə qayıdışlarının dəstəklənməsi və qanuni miqrasiyanın asanlaşdırılması, habelə miqrantların daşınması üçün aviasiya xidmətlərindən sui-istifadə hallarının qarşısının alınması daxildir.**



Aİ-nin daxili işlər üzrə komissarı İlva Johansson mətbuat konfransında bildirib ki, plan dörd sütuna əsaslanır. Bunlar insan alveri ilə mübarizə, sərhədlərin idarə edilməsi, miqrantların ölkələrinə repatriasiya və Avropa əmək bazarına çıxış üçün qanuni yolların axtarılmasıdır.

Plan Mərakeş, Seneqal, Mavritaniya və Qambiya kimi ölkələrlə tərəfdaşlığı əhatə edir və miqrasiyanın idarə edilməsində, qanunsuz gedişlərin qarşısının alınmasında və bu marşrut boyunca insanların həyatını xilas etməkdə Aİ üzv dövlətlərini gücləndirməyi hədəfləyir.

Plan həmçinin Şimali Afrika və Sahel ölkələrinə qayıdış, readmissiya və reinteqrasiya məsələlərində dəstək vermək öhdəliyini ehtiva edir. Məlumata görə, Aİ həm də əmək miqrasiyası vasitəsilə qanuni miqrasiyanı təşviq etmək niyyətindədir. Plana həmçinin axtarış-xilasetmə əməliyyatlarına dəstək verilməsi daxildir.

Yohanssonun paylaşdığı məlumatlara əsasən, 2019-cu ildə Atlantik okeanı marşrutu ilə Kanar adalarına 3000-dən az miqrant gəlib. 2020-ci ildə bu rəqəm 8 dəfə artaraq 24 min nəfərə çatıb. 2021-ci ildə artım davam edib. Ötən il isə İspaniya və Mərakeş ilə qurulan ortaqlıq nəticəsində bu rəqəm 50 faiz azalıb.

Avropa Komissiyası həmçinin Aİ-yə qanunsuz miqrasiyanı asanlaşdırmaq üçün kommersiya avtomobillərinin istifadəsi ilə bağlı tədbirləri açıqlayıb.

Qeyd olunur ki, cinayətkar şəbəkələr miqrantları Aİ ilə sərhədə və ya yaxınlığında yerləşən ölkələrə çatdırmaq üçün üçüncü ölkələr arasında kommersiya uçuşlarından, vizasız rejimlərdən və ya əmək miqrasiyası imkanlarından istifadə edir.

Bu arada Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının İdarəsi (UNHCR) Aİ-nin miqrasiya siyasətində uzunmüddətli islahatlara ehtiyac olduğunu bəyan edib.

Komissarlığın sözçüsü Şabia Mantu "Anadolu"ya müsahibəsində bildirib ki, bu il Aralıq dənizi vasitəsilə Avropaya 61 minə yaxın qaçqın gəlib, onlardan 47 minə yaxını İtaliyaya gedib. Mantu qeyd edib ki, bu il Aralıq dənizində təhlükəli miqrasiya yoluna çıxanların sayında kəskin artım müşahidə olunub. İlin əvvəlindən aprelin 30-dək dəniz yolu ilə İtaliyaya 41815 nəfər çatıb. Ardıcıl üç ildir ki, İtaliyaya dəniz yolu ilə gələn qanunsuz miqrantların sayında artım müşahidə edilir. Bu yollar çox təhlükəlidir. Bir çox gəmilər istifadəyə yararsızdır və çox asanlıqla batır. Komissarlığın rəsmisi bildirib ki, miqrantların daxil olmaq üçün təhlükəsiz əraziləri tapa bilməsi üçün dövlətlər tərəfindən koordinasiya edilmiş axtarış və xilasetmə səylərinə ehtiyac var. Mantu beynəlxalq müdafiəyə ehtiyacı olan qanunsuz miqrantlar üçün müayinə və sığınacaq prosedurlarının sürətləndirilməsinin vacibliyinə də diqqət çəkib. O əlavə edib ki, BMT İdarəsi Aİ və üzv ölkələrə qaçqınlara, sığınacaq axtaranlara və vətəndaşlığı olmayan şəxslərə dəstək olmaqda kömək etməyə hazırdır.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Azərbaycandan beş ayda 1,5 milyard ABŞ dolları dəyərində qeyri-neft məhsulları ixrac olunub

**Cari ilin yanvar-may ayları ərzində Azərbaycanın ümumi ixracı 16,1 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 1,5 milyard ABŞ dolları təşkil edib.**

AZƏRTAC İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nın iyun sayına istinadla xəbər verir ki, qeyri-neft sektoru üzrə ixrac 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 22,1 faiz artıb. 2023-cü ilin yanvar-may ayları ərzində yeyinti məhsulları üzrə ixrac 334,4 milyon ABŞ dollarına bərabər olub. 2023-cü ilin ilk 5 ayı ərzində spirtli və spirtsiz içkilərin ixracı 5,9 dəfə, şəkər ixracı 43,8 faiz, meyvə-tərəvəz ixracı isə 10,4 faiz artıb. 2023-cü ilin yanvar-may ayları ərzində aqrar və aqrar-sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri 16,9 faiz artaraq 349,1 milyon ABŞ dolları təşkil edib.

Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 55,8 faiz artaraq 92,2 milyon ABŞ dolları təşkil edib. 2023-cü ilin may ayında qeyri-neft ixracı 278,2 milyon ABŞ dolları olub. Bu ilin may ayı ərzində yeyinti məhsulları üzrə ixrac 98,2 milyon ABŞ dollarına, qeyri-yeyinti məhsulları üzrə ixrac isə 180 milyon ABŞ dollarına bərabər olub.

# "Cotidianul": "Rumıniya Azərbaycandan 2024-cü ildə də qaz tədarük etmək istəyir"

**Rumıniyanın çox nüfuzlu "Cotidianul" qəzeti ölkənin energetika naziri Vircil Daniel Popeskuya istinadla qeyd edir ki, ölkəsi 2024-cü ildə Azərbaycandan qaz tədarükünü davam etdirmək niyyətindədir.**




Məqalədə bildirilir ki, 2024-cü ildən sonra təkcə qazın tədarükünə dair yeni müqavilələrin bağlanması deyil, həm də qarşılıqlı maraq doğuran digər potensial layihələr vasitəsilə iki ölkə arasında əməkdaşlığı davam etmək planlaşdırılır.

Qeyd edək ki, 2023-cü il fevralın 3-də Bakıda Cənub Qaz Dəhlizi üzrə Məşvərət Şurasının iclası zamanı SOCAR və Rumıniyanın enerji şirkəti "Romgaz S.A." arasında qaz tədarükü haqqında müqavilə imzalanıb. Müqavilə 2023-cü ildən 2024-cü ilə qədər Azərbaycandan Rumıniyaya 1 milyard kubmetr qazın nəqlini nəzərdə tutur.

## ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Bakı Şəhər İcra Hakimiyyəti Başçısının tabeliyində "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-nin direktoru Abit Əliyevə əzizi

**MUSA MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi iş yoldaşları Ələkbər Quliyevə qardaşı

**RƏHMANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri Ələddin Məcidova atası

**TOFİQ SABİR OĞLU MƏCİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədova anası

**ZƏHRA MƏMMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhərindən Cavanşir Yusifov və Fazil Fərəcov Səbuhi Məmmədova anası

**ZƏHRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5772
Sifariş 1430

Qiyməti 40 qəpik